**HABİL QURBANOV**

# QARABAĞIN AZADLIĞI VƏ ZƏFƏRƏ GEDƏN YOL: HÜQUQİ-SOSİO-MƏDƏNİ BAXIŞ

**Bakı – 2022**

***Bu kitab Prezident İlham Əliyevin Sərəncamı ilə "2022-ci ilin Şuşa ili" elan edilməsinə ithaf edilibdir.***

**Habil Qurbanov.** Qarabağın azadlığı və zəfərə gedən yol: hüquqi-sosio-mədəni baxış. Bakı, "APOSTROF-A", 2022, 134 səh.

Kitabda müstəqil Azərbaycanda Qarabağın azadlığı, Zəfərə gedən Yolun hədəfləri, Qarabağın 30 illik işğal dövrü, Ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin Qarabağla bağlı diplomatik-siyasi strategiyası və müasir Azərbaycanda elm siyasəti və bir sıra sosio-hüquqi məsələlərə nəzər yetirilir.

Kitabda müəllifin son illər ərzində beynəlxalq və respublika konfranslarında etdiyi məruzələr, həmçinin ölkədə KİV və elmi jurnallarda nəşr edilmiş məqalələri də təkmilləşdirilərək işıqlandırılmışdır.

Kitab elmi-yaradcılıq fəaliyyəti ilə məşğul olan, geniş ictimayyət və oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-562-30-9

**© Habil Qurbanov, 2022**



***Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik.***

***İlham Əliyev***

## Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntə-

nəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 yanvar 2022-ci il**

**Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış

Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

1.1. Bakı iqtisadi rayonu (Bakı şəhəri);

1.2. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

1.3. Abşeron–Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

1.4. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

1.5. Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

1.6. Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.7. Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

1.8. Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

1.9. Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

1.10. Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

1.11. Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

1.12. Şəki–Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

1.13. Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

1.14. Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 7 iyul 2021-ci il**

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial,

iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan – Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar

mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 sentyabr 2022-ci il**

## MÜNDƏRİCAT


**I FƏSİL. ZƏFƏRƏ GEDƏN YOL .......................................15**
Azərbaycan tarixinin böyük qüruru ..........................................15
Ermənilərin cinayət əməlləri....................................................20
Ermənistanın hərbi-siyasi rəhbərliyi humanizm prinsipinə hörmətsizlik edir ...........................................................................22
Xocalı qətliamı – Azərbaycan xalqına qarşı soyqırım...............23
Xocalı soyqırımı canlı tarix və qadın hüquqları mətnində ........29

**II FƏSİL. 44 GÜNLÜK MÜHARİBƏDƏ ZƏFƏR BİZİMDİR REALLIĞI ......................................................35**
Qarabağın işğaldan azadlığı.....................................................35
Azərbaycanın "Dəmir Yumruğ"u erməni faşizmini məhv etdi .. 40
Kaş o gün mən də Ağdamda olaydım.......................................44
Azərbaycan tarixində dönüş yaradan möhtəşəm Zəfər bayramı....47
Qarabağda Zəfər uğurları müdrik siyasətin bəhrəsidir ..............54
Yeni Ağdamda bizi işıqlı gələcək gözləyir...............................59
"Dəmir Yumruğ"un bərpa etdiyi ədalət....................................62

**III FƏSİL. HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN MEMARIDIR........................................67**
Heydər Əliyev Müasir Azərbaycan xalqının xilaskarı və dövlətinin qurucusudur ..........................................................67
Heydər Əliyev siyasi kursu Azərbaycanın davamlı inkişafının başlıca amilidir ......................................................................72
Milli mövcudluğumuzun qarantı Dövlət müstəqilliyimizdir .....76
28 May Azərbaycan tarixinin şanlı səhifəsidir ..........................81
Azadlığın və müstəqilliyin şərəfli yolu.....................................86
Heydər Əliyevin hüquqi islahatlar kursu müasir dövrün tələblərinə uyğun olaraq davam etdirilir...................................90

**IV FƏSİL. AZƏRBAYCAN ELMİ: TARİX VƏ MÜASİRLİK ........ 94**
Azərbaycan elminin bayraqdarı: yenilənən və inkişaf edən Azərbaycan Milli Elmlər Akademiyası – 75 ........ 94
Ölkəmizin tərəqqisinin elmi təminatı dövlətimizin diqqət mərkəzindədir ........ 99
Yeniləşən Azərbaycanda yeni elmi təfəkkürə ehtiyac var ...... 104
Azərbaycan Milli Elmlər Akademiyasında əməkdaşların sağlamlığının mühafizəsi ən ümdə vəzifələrdən biridir .......... 110
Novruz bayramı Azərbaycan xalqının milli-mədəni fəlsəfəsini əks etdirir ........ 113

**V FƏSİL. AZƏRBAYCAN VƏ DÜNYA ........ 118**
Lider dövlətin imicinə zərbə vuran qərəzli addım ........ 118
Azərbaycan – Rusiya arasında əməkdaşlığın genişləndirilməsi böyük potensiala malikdir ........ 123
Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında həmkarlar ittifaqının rolu ........ 126

**NƏTİCƏ VƏ YA CƏSARƏTİN QƏLƏBƏSİ ........ 130**

# I FƏSİL
# ZƏFƏRƏ GEDƏN YOL

## Azərbaycan tarixinin böyük qüruru

Xalqımızın başı üstündə son iki yüz ildə qara buludlar dolanmışdır. Bu müddət ərzində vətənimizə hərisliklə baxanlar ermənilərdən bir vasitə kimi istifadə edərək, öz çirkin niyyətlərini həyata keçirmək, sərvətlərimizə sahib olmaq üçün müxtəlif yollara əl atmışlar. Sovet rejimi laxlamağa başlayandan – 1987-ci ildən isə Azərbaycanı tamamilə ələ keçirmək üçün yeni planlar quruldu. Erməniləri yenə bir alət olaraq hərəkətə gətirdilər.

XX əsrin sonlarına yaxın Ermənistan adlandırılan ərazidə əsrlər boyu yaşayan azərbaycanlılara təzyiqlər başladı. Xeyli insan vəhşicəsinə öldürüldü. Qalanlar kütləvi şəkildə, son nəfərə qədər öz ata-baba torpaqlarından sıxışdırılıb çıxarıldı. Bakıda qanlı Yanvar faciəsi baş verdi. Xalq böyük bir faciə, psixoloji gərginlik içərisində yaşamağa məcbur oldu. Min illər boyu yaşadığı vətən torpaqlarının yenidən itirilməsi təhlükəsi yarandı. Azğınlaşmış məkrli qonşular fürsətdən istifadə edərək torpaqlarımızı zəbt etmək üçün tarixdə görünməmiş vasitələrə əl atdılar. Qadınlardan, körpələrdən, yaşlı insanlardan ibarət minlərlə insanı əsir götürdülər, başlarına görünməmiş müsibətlər açdılar, işgəncələr verdilər.

Ötən əsrin doxsanıncı illərində Yer üzü özünün etinasızlıq, Azərbaycana qarşı ögeylik dövrünü yaşayırdı. Kimlərsə müsəlman, kimlərsə türklər yaşayan ölkə kimi burada baş verənlərə əhəmiyyət vermirdi. Böyük güclər öz planlarını həyata keçirmək üçün yeni ssenarilər düşünürdülər. Vətənimiz tarixi bir faciənin uçurumu qarşısında idi. Minlərlə fədakar, vətənpərvər oğullar döyüşlərə atılır, bu uçuruma düşməyimizin qarşısını almaq üçün

özlərini qurban verirdilər. Yaşından, peşəsindən, vəzifəsindən asılı olmayaraq hər kəs nəsə etmək istəyirdi. Amma yağı düşmən çox arxalı idi. Ümidlə baxdığımız güc mərkəzləri, beynəlxalq təşkilatlar Azərbaycanda baş verənləri seyr edir, üzdə erməniləri tənqid edir, arxada isə onlara kömək göstərirdilər. Mənasız müzakirələr aparılır, görüşlər təşkil edilir, qurumlar yaradılır və bununla vaxt uzatmağa çalışırdılar. Azərbaycan xalqını öz faciəsi ilə barışdırmaq ümidi ilə hər dəfə bir yeni bəhanə axtarırdılar.

1991-ci ildə Azərbaycanın dövlət xadimlərinin bir hissəsi Qarakənd üzərində vertolyotda məhv edildi. 1992-ci ildə tarixin dəhşətli bir hadisəsi – Xocalı qətliamı baş verdi. Xəstə insanları yataqda, anaları körpələrinin gözü qarşısında güllələdilər. Şaxtalı, qarlı havada ayaqyalın, yüngül paltarda qaçan insanların dalınca düşüb öldürdülər, əsir götürdülər. Ətraf kəndlər içərisində böyük qorxu yaratmaq məqsədilə meyitlərin belə başına min oyun açdılar – onları bir daha güllələdilər, başlarını əzdilər, dərilərini soydular... Amma dəhşət nə qədər çox olsa da, düşmən arzusuna çata bilmədi. Xalqımızın iradəsi, milli ruhu buna imkan vermədi.

Xalqımıza bu amansız mübarizədə inam verən insan görkəmli dövlət xadimi Heydər Əliyev idi. Təəssüf ki, həmin dövrlər onun özünə qarşı da mənfur planlar qurulurdu. Bu planlar xalqımıza qarşı qurulan işğalçı siyasətlərin tərkib hissələrindən biri idi. Onun 1990-cı il yanvar hadisələri zamanı Moskvada, Azərbaycan nümayəndəliyində xalqın dəyərli övladlarını başına yığaraq bütün dünya ictimaiyyətinə səslənməsi düşməni narahat etdi. Bununla da ona qarşı olan təzyiqlər daha da artdı. Bütün məkrli planlara baxmayaraq, böyük siyasətçi Azərbaycana qayıda bildi. Amma Moskvanın qorxusundan o vaxtkı rəhbərlik ona paytaxtda məskunlaşaraq düşmənlə mübarizə aparmasına, xalqına

kömək etməsinə imkan vermədi. Heydər Əliyev doğulduğu torpağa, Naxçıvana getməyə məcbur oldu.

Dahi Heydər Əliyevin ən böyük üstünlüklərindən biri bu idi ki, o, dünyada gedən proseslərin mahiyyətini çox gözəl bilirdi. Siyasi axının hansı istiqamətdə, hansı güclə getdiyini hər kəsdən yaxşı hiss edirdi. Hansı vacib işlərin görülməsinə nə qədər ehtiyac olduğunu bilirdi. Amma bir müddət ona öz xalqını müdafiə etmək üçün imkan verilmədi.

1993-cü ilin may-iyun aylarında Azərbaycanda ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Düşmən Azərbaycanın parçalanması üçün böyük bir oyun oynayırdı, məkrli ssenarisini həyata keçirirdi. 1993-cü il iyun ayının 9-da Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya gəldi, Ali Sovetin Sədri seçildi. Heydər Əliyev gəlişi ilə xilaskarlıq missiyasını uğurla yerinə yetirdi, Azərbaycan məkrli düşmənlərin caynağından qurtuldu. Onlar başa düşdülər ki, artıq Azərbaycana təzyiq edib onun istədikləri kimi yönləndirə bilməyəcəklər. Çünki qarşılarında böyük, qüdrətli, vətənpərvər siyasətçi Heydər Əliyev dayanmışdı. Məhz bundan sonra xalqımızın ölkənin sabahına inamı bərpa olundu.

Ulu Öndər əmin-amanlıq yaratdı, insanlar özlərini rahat, təhlükəsiz hiss etməyə başladılar. Xarici ölkələrlə, güc mərkəzləri ilə əlaqələr yaradıldı. Ulu Öndər əlində xəritə tarixi həqiqətləri dünya birliyinə çatdırdı. Ölkənin özünü toparlaması, ayağa qalxması üçün zəruri olan iqtisadi resurslarımız hərəkətə gətirildi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan neft sazişi imzalandı. Azərbaycan Ordusu yenidən quruldu. Bununla da tarixi zəfərə gələn yolla bir qədər də inamla irəliləməyə başladıq.

2003-cü ildə xalqımız Heydər Əliyev məktəbini keçmiş İlham Əliyevi özünə rəhbər seçdi. Heydər Əliyevin layiqli siyasi

davamçısı olan İlham Əliyev ölkənin taleyi üçün hansı işin harada yarımçıq qaldığını, dostumuzun, düşmənimizin kim olduğunu çox yaxşı bilirdi. Onun hakimiyyəti dövründə Heydər Əliyevin özülünü qoyduğu işlər bəhrə verməyə başladı. Neft sahəsi ölkəyə böyük gəlirlər gətirməyə başladı.

Neftdən gələn gəlirlər ölkənin inkişafı ilə yanaşı, hərbi potensialımızın güclənməsinə yönəldildi. Dost ölkələrlə əlaqələrimizə xüsusi diqqət yetirildi. Düşmən mövqeyində olanları neytrallaşdırmaq sahəsində uğurlu tədbirlər görüldü. Ölkəmiz ətrafında qurulan informasiya blokadaları dağıdıldı. Ölkədə milli həmrəylik gücləndi, insanlar İlham Əliyevin ətrafında daha sıx səfərbər oldular.

30 ilə yaxın bir dövrdə baş verənlər göstərdi ki, bir sıra dövlətlər, beynəlxalq təşkilatlar üzdə beynəlxalq prinsiplərə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıdıqları halda arxada əleyhimizə iş aparırlar. Onlar hər vəchlə vaxtı uzadaraq Azərbaycan xalqını məğlubiyyətlə barışdırmağa çalışırdılar. Prezident, Ali Baş Komandan İlham Əliyev belə çirkin - ikili siyasəti tənqid edir, onları haqqın, ədalətin, beynəlxalq qanunların yanında olmağa çağırırdı.

Düşmənin Qarabağdakı siyasi şoularına təmkinlə dözən rəhbərimiz arxada ciddi şəkildə taleyüklü müharibə üçün lazımi hazırlıqlar gördü. Azğınlaşmış düşmənsə torpaqlarımızı işğal edəcəyi barədə sərsəmləməyə başlamışdı. Bizi Bakıya qədər gələcəkləri ilə hədələyirdilər. 2020-ci ilin iyul ayında düşmən dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törətdi, hərbçilərimiz, general Polad Həşimov şəhid oldu.

Sentyabrın 27-də düşmən bir daha təxribat törədəndə Ali Baş Komandanımız əks-hücum əmrini verdi. Bu günü gözləyən müzəffər ordumuz döyüşlərə başladı. Təkcə ordumuz yox, bütün

ölkə bu istiqamətdə səfərbər oldu. Arxa cəbhədə də hər kəs əlindən gələni etməyə başladı. Xüsusilə döyüş bölgələrinə yaxın olan əhali ordumuza hər cür kömək etmək üçün fədakarlıq göstərdi.

Müharibənin 44 gündə möhtəşəm qələbəmizlə başa çatmasında xalqımızın öz rəhbərinə inamı, sevgisi böyük rol oynadı. Prezident İlham Əliyevin müharibə dövründə xarici jurnalistlərə verdiyi müsahibələr böyük uğur qazanmağımızda əvəzsiz rol oynadı. Bu müsahibələr İlham Əliyevi həm də dünya ictimaiyyətinə, güc mərkəzlərinə daha yaxşı tanıtdı. Prezident İlham Əliyevin rəşadətli bir sərkərdə kimi savaşa başçılıq etməsi göz qabağında idi. Müharibənin dayandırılmasını tələb edənlər qarşısında nümayiş etdirdiyi böyük iradə, beynəlxalq təşkilatlarda əleyhimizə qərarlar qəbul edilməsinin, düşmənə silah daşınmasının qarşısının alınması üçün göstərdiyi fəaliyyət dövlətimizin başçısının nüfuzunu daha da artırdı. Onun bu fəaliyyəti ordumuzu daha da ruhlandırdı, daha möhtəşəm qələbələrə köklədi. Demək olar ki, hər gün yeni-yeni ərazilər düşməndən azad edilirdi. Ali Baş Komandan hər gün bu barədə öz xalqına sevinclə məlumat verirdi. Şuşa böyük rəşadətlə alındıqda isə Ali Baş Komandan Ulu Öndərin məzarı üzərinə gedib raport verdi, xalqımızın sevincini ona da çatdırdı.

Bu qələbə təkcə torpaqlarımızı bizə qaytarmadı. Həm də xalqımızı bütün dünyaya yenidən tanıtdı. Hər kəs xalqımızın öz torpaqları yolunda böyük məhəbbətlə vuruşduğunun şahidi oldu. Şuşanın alınması hərb tarixində misli görünməmiş bir hadisə oldu. Xalqımız öz torpaqlarını azad etdi. İki yüz ildə ilk dəfə itirilmiş torpaqlarımızı böyük qəhrəmanlıqla geri aldı. Bu zəfər bayramı tarixi inkişafımızda, yüksəlişimizdə yeni mərhələnin uğurlu başlanğıcı oldu.

## Ermənilərin cinayət əməlləri

44 günlük müharibə dövrü Erməni hərbçilərinin mülki əhaliyə, Mingəçevir Su Elektrik Stansiyasına, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tibilisi-Ceyhan kimi strateji və digər sosial obyektlərə atəş açması beynəlxalq cinayət əməli sayılır.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektlərini atəşə tutması nəticəsində 154 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb, 31 nəfər həlak olub, 900-dən çox yaşayış evinə, həmçinin, 133 mülki obyektə, o cümlədən Bərdə şəhər mərkəzi xəstəxanasına, Ağcabədi rayonunda yerləşən bir neçə yaşayış evinə, Tərtər şəhərində Xalça-toxuculuq fabrikinə, Ağdam rayonu, Təzəkənd kəndində inşa edilmiş modul tipli məktəb binasına, Tərtər rayonu, Şıxarx qəsəbəsi 1 saylı tam orta məktəbin binasına, Tərtər şəhəri 2 saylı məktəb-liseyin binasına, Tərtər rayonunun Azad Qaraqoyunlu kəndi ərazisində yerləşən “MKT İstehsal Kommersiya” MMC-nin Pambıq zavoduna, Tərtər rayonu Qapanlı kəndində tibb məntəqəsinə külli miqdarda ziyan vurulub, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşüb, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Qeyd edək ki, 1949-cu ildə İsveçrənin Cenevrə şəhərində keçirilən konfransda 4 Cenevrə Konvensiyası qəbul edilib ki, həmin konvensiyalar silahlı münaqişələr zamanı yaralı, xəstə hərbçilərin vəziyyətinin yaxşılaşdırılması, müharibə zamanı mülki şəxslərin müdafiəsi ilə bağlıdır:

"Cenevrə konvensiyasının 18-ci maddəsində qeyd olunur ki, heç bir halda münaqişə tərəfləri mülki insanların toplandığı yerə mərmi atmamalı, artilleriya atəşinə tutmamalıdır. Təcavüzkar Ermənistan heç bir beynəlxaq hüquq norma və prinsiplərinə

əməl etməyərək Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozur, dinc əhaliyə, mülki obyektlərə və təsərrüfatlara atəş açmaqla külli miqdarda ziyan vurmağa davam edir. Onların hədəf kimi seçdiyi ərazilər əsasən əhalinin sıx yerləşdiyi ərazilərdir (rayon və kənd mərkəzləri, xəstəxanalar, məktəb və uşaq bağçaları və s.)".

Ermənistanın 1987-1988-ci illərdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe və atdığı hər bir addım bu dinc vasitələri kobudcasına pozmağa, beynəlxalq hüquqla qadağan edilmiş zor tətbiq etməyə əsaslanır. Ermənistan tərəfi indiyə kimi münaqişənin dinc vasitələrlə həlli istiqamətində heç bir real addım atmayıb, bu istiqamətdə görüntü, imitasiya yaratmağa çalışıb. BMT Nizamnaməsinin 38-ci maddəsinə əsasən isə hər hansı münaqişədə qarşıduran tərəflər mübahisəni danışıqlar, vasitəçilik, barışdırma, arbitraj, məhkəmə əməliyyatları və s. müraciət yolu ilə və ya özlərinin seçdikləri başqa dinc vasitələrlə həll etməlidirlər:

"Beynəlxalq mübahisələrin sülh yolu ilə, heç bir təhdidsiz və zor işlətmədən həlli müasir beynəlxalq hüququn mühüm prinsiplərindən birinə çevrilib. Beynəlxalq mübahisələrin həlli üçün müharibə və digər zor vasitələrinə müraciət etmək isə hüquqazidd hərəkətdir. BMT-nin Nizamnaməsinə əsasən, təşkilatın üzvü olan dövlətlər öz aralarında baş verən böyük və kiçik beynəlxalq mübahisə və münaqişələri beynəlxalq sülh, təhlükəsizlik və ədalət üçün qorxu törətmədən, tərəflərin və üçüncü dövlətlərin tələb və mənafelərini obyektiv surətdə nəzərə almaq əsasında, yalnız sülh yolu ilə həll etməlidirlər. Hazırda bütün dövlətlərin icbari vəzifəsinə çevrilmiş bu prinsip 1970-ci ildə BMT Baş Məclisinin qəbul etdiyi "Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə"də əksini tapıb.

## Ermənistanın hərbi-siyasi rəhbərliyi humanizm prinsipinə hörmətsizlik edir

Ermənistanın hərbi-siyasi rəhbərliyi bəşəri dəyərlərə, humanizm prinsipinə hörmətsizlik nümayiş etdirir, beynəlxlq qanunvericiliyi, Cenevrə konvensyalarının tələblərini kobud şəkildə pozur.

Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kimi, 1949-cu il Cenevrə konvensiyalarının tələblərini də nəzərə almır. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc əhalinin, tibb işçilərini məqsədli atəşə tutması onların beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə Konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir. Beynəlxalq qurumların ermənilərin hərbi cinayətlərinə göz yumması isə narahatlıq doğurur.

Ermənistanın hərbi-siyasi rəhbərliyi törətdiyi hərbi cinayətlərə görə cavab verməlidir.

Məlumdur ki, Azərbaycan Ordusunun işğalçı Ermənistanın hərbi birləşmələrinə endirdiyi ağır zərbələr və keçirilən əməliyyatlar ermənilərin təşvişinə səbəb olub. Lakin Azərbaycanda vətəndaşların yüksək vətənpərvərlik, həmrəylik, qətiyyət, mübarizə əzmi və sarsılmaz iradə nümayiş etdirməklə milli ordumuzun uğurlarına və zəfər yürüşünə hərtərəfli dəstək göstərirlər.

Qeyd edək ki, Azərbaycanın beynəlxalq hüquqa əməl edərək, öz erməni əsilli vətəndaşlarının təhlükəsizliyini qorumağa da haqqı və hüququ var.

Təcavüzkar Ermənistanın ordusunda fərarilik geniş yayıldığı üçün hərbi-siyasi rəhbərliyi öz əsgərlərini xidmət keçdiyi yerə qandallayaraq onu döyüşməyə məcbur edir, həmçinin dö-

yüşmək istəməyənlərə qarşı cəza dəstələrindən istifadə edirlər. Bu isə həm insan hüquqlarının kobud şəkildə pozulması, həm də Ermənistanın rəhbərliyinin çarəsizliyinin nümünəsidir.

## Xocalı qətliamı –Azərbaycan xalqına qarşı soyqırım

*Xocalıda həmin o məşum gecədə məhv edilən insanların sayı 613 yox, 763 nəfər hesab olunmalıdır.*

Mənfur düşmənin iblisanə əməlləri üzündən yurdumuzun qədim guşələrindən biri olan Xocalının təkcə adının belə çəkilməsi hər bir azərbaycanlının qəlbini parçalayır. "Xocalı" sözünün özü, sanki, fəryad edir, nalə çəkir, bütün insanlığı, yer üzünü qınayır, o qətliamı törədənlərə lənət oxuyur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verənlər insanlıq tarixində heç zaman silinməyəcək qara ləkədir. Erməni xislətinin mahiyyətidir, erməni faşizminin insanlıq üçün nə qədər təhlükəli olmasının sübutudur.

Xocalı qətliamı tariximizin ən qanlı, ən faciəli səhifələrindən biri olmaqla yanaşı, eyni zamanda, müasir sivilizasiyanın hansı bir vəziyyətdə olmasını əks etdirən olduqca ciddi, məşum göstəricilərdən biridir.

İndi yer üzünün inkişafına nizam verən nəhəng güc mərkəzlərinin hamısı çox gözəl bilir ki, Qarabağ Azərbaycan torpağıdır. Amma o güc mərkəzləri öz məkrli maraqlarını həyata keçirmək üçün bütün yer üzündə insanlığa layiq olmayan oyunlar oynayırlar. Bu oyunlar həqiqəti, ədaləti ayaq altına alır, işıqlı zəkaların insanlıq adına yaratdıqlarını darmadağın edir. Min illər boyu bütün müdrik insanların, dinlərin, mütərəqqi nəzəriyyələrin çağırışları qulaq ardına vurulur, unutdurulur. Hüquq elminin də əsrlər boyu əldə etdiyi nailiyyətlərə məhəl qoyulmur. Paradoksal bir vəziyyət yaranıb. Bir tərəfdən, heyvanların belə mü-

dafiəsinə qalxanlar insanları zəlil edirlər, insanların zəlil edilməsinə göz yumurlar. İnsan hüquqlarının aliliyindən ağızdolusu danışanlar, xalqların hüquqlarını tanımaq istəmirlər. Hörmətli Prezidentimiz İlham Əliyevin dəfələrlə dediyi kimi, ikili, çoxüzlü siyasət yürüdürlər.

Ən qədim tarixi mənbələr də bu ərazidə lap bineyi-qədimdən Azərbaycan xalqının yaşadığını təsdiq edir. Son minillikdə də ata-babalarımızın bu torpağın sahibi olduqlarını təsdiq edən yüzlərlə nişanələr, tarixi abidələr var. Tarix kitabları da var. Azərbaycanın şimal hissəsi Rusiyaya birləşdirildikdən sonra ermənilərin buraya hansı niyyətlə köçürüldüyü də hər kəsə məlumdur. Amma torpaqlarımıza göz dikən güc mərkəzləri ermənini əllərində ov tulasına çevirib üstümüzə qısqırdır. Torpaqlarımızdan hissə-hissə ələ keçirdikcə daha da şirnikləşirlər. Yeni oyunlar qururlar. Xocalı qətliamı torpaqlarımızın ələ keçirilməsi yolunda başımıza gələn bir bəla, düşmənin ən iyrənc sifətini üzə çıxaran tarixi bir gerçəklikdir. Xocalı qətliamı Vətənimizə qarşı həyata keçirilən çirkin siyasətin mahiyyətini açan ibrətamiz bir göz dağıdır.

Xocalı hadisəsinin necə baş verməsi, yaşı 40-50-dən yuxarı olanların yaxşı yadındadır. Vətənimizin başına min bir oyunlar açılırdı, ölkə daxilində milli zəmində münaqişələr törədilir, qarşıdurmalar yaradılırdı. Ölkədə xaos hökm sürürdü. Güc mərkəzləri bir tərəfdən ölkə rəhbərliyini, əhalini arxayın salmaqla yanaşı, altdan-altdan öz məkrli niyyətlərini həyata keçirmək üçün mexanizmlər, texnologiyalar həyata keçirirdi, digər tərəfdən, erməniləri qızışdırıb üstümüzə yeridirdilər.

Xocavənddə, Qarakənd yaxınlığında vertolyotda Azərbaycanın bir çox mühüm vəzifə sahibləri məhv edildikdən sonra ölkədə bir bədbinlik, ruh düşgünlüyü yaranmışdı. Belə bir vaxtda

bölgədə yeganə aeroportun olduğu, ölkəmiz üçün strateji cəhətdən son dərəcə mühüm əhəmiyyət kəsb edən bir ərazidə yerləşən Xocalı ətrafında vəziyyət günü-gündən gərginləşirdi.

Ölkə rəhbərliyi əhalini oradan çıxarmağa tərəddüd edirdi. Çünki, əhalinin çıxması ilə həmin ərazinin müdafiəsi xeyli zəifləyəcəkdi. Amma rəhbərliyin həmin əhalini orada saxlamağa da qətiyyəti, intellektual potensialı, bacarığı, lazımi texnikası çatışmırdı. Belə bir vəziyyətdə Xocalı səhlənkarcasına, sadəlövhcəsinə başlı-başına buraxılmışdı. Bu, tarixi bir cinayət idi. Düşmən bu vəziyyəti fövtə vermədi. Əliyalın insanların üstünə silahlı ordu yeridildi.Tarixin ən qəddar,vəhşi, iblisi belə mat qoyan hadisəsi baş verdi...

Ermənistanın silahlı qüvvələri 1992- ci il fevralın 25-dən 26-na keçən gecə Rusiyanın 366-cı motoatıcı alayının iştirakı və yaxından köməyi, daşnakların fitvası, xarici ölkələrdən gələn erməni yaraqlılarının iştirakı, sonradan Ermənistanın prezidenti olacaq bir cəlladın – Serj Sarkisyanın təşkilatçılığı ilə köməksiz insanların üzərinə yeridilər. Xəstə insanları çarpayıda vurdular, uşaqları süngüyə keçirdilər, hamilə qadınların qarınlarını yardılar, pərən-pərən düşmüş insanları gülləbaran etdilər. Azərbaycan əhalisinə qarşı heç yerdə görünməmiş bir vəhşi qətliam həyata keçirildi. Hətta ölmüş insanların belə kəlləsini əzir, sifətlərinin dərisini soyurdular. Həmin mənfur Serj Sarkisyanın sonralar fəxrlə dediyi kimi, bununla Azərbaycan əhalisinin gözünü qorxutmaq, ətraf kəndlərin də boşalmasına nail olmaq istəyirdilər. Onlar öz məqsədlərinə çatdılar. Amma öz sifətlərini də xeyli dərəcədə açdılar. Çünki, normal insan psixologiyasına malik insanlar belə vəhşilik törədə bilməzdi.

Rəsmi statistikaya görə, həmin gecə Xocalıda 613 nəfər qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca in-

sanlar olub. 8 ailə tamamilə məhv edilib. 25 uşaq hər iki valideynini itirib. 130 uşaq isə valideynlərindən birini itirib. 487 nəfər yaralanıb ki, onlardan da 76-sı uşaqdır. Yenə də, rəsmi statistikaya görə, 1275 nəfər əsir götürülüb. Amma hər yanda qeyd olunur ki, həmin adamlardan 150-sinin taleyi məlum deyil. Onlar itkin düşmüş sayılır. Amma mən dəfələrlə bu barədə demişəm ki, həmin 150 adamı da qətl edilənlərin siyahısına əlavə etmək lazımdır. Çünki, məlumdur ki, qəddar düşmən öldürdüklərinin bir hissəsini quyulara, xəndəklərə töküb üstünü örtərək izi itirirdi. Vaxtları olsaydı, yəqin ki, daha çox meyiti belə aradan çıxaracaqdılar.Beləliklə də, bu məntiqlə, qəti şəkildə demək lazımdır ki, Xocalıda həmin o məşum gecədə məhv edilən insanların sayı 613 yox, 763 nəfərdir.

Əsir götürülən insanların da bir çoxunun başına ən vəhşi oyunlar açılıb. Azərbaycanın Milli qəhrəmanları Allahverdi Bağırovun və Asif Məhərrəmovun (Fred Asif) gərgin əməyi, şücaətləri hesabına 1003 nəfər əsirlikdən xilas edilə bildi. Bir çox meyitləri düşüb qaldıqları yerdən götürə bildik. Əsirlikdən yaxa qurtaran insanların söylədikləri hər bir vicdanlı insanı riqqətə gətirir, qanını dondurur. Adamlar orada günlərlə soyuq yerdə ac saxlanıb. Onlara erməni xislətinə uyğun işgəncələr verilib. İnsanlar öz müqəddəs dəyərlərinə qarşı çıxmağa təhrik edilib. Etiraz edənlər əzabla öldürülüb. Bunlar hamısı, erməni psixologiyasını daha dərindən dərk etməyə imkan verir.

Hər dəfə Xocalı hadisəsi yadıma düşəndə məni qəhər boğur. Yadıma meyitlərin yük maşınlarında qalaq-qalaq Ağdama gətirilməsi, qadınların fəryadı, kişilərin qəzəb, kədər, nifrət dolu sifətləri düşür. Mən həmin gün Ağdamda idim. Hələ uşaqlıqdan yaxından tanıdığım insanların, hər zaman öz qüruru ilə seçilən insanların nə günə düşdüyünü görüb sarsılmışdım. Özüm də on-

lardan betər idim. Amma özümü toparlayıb insanlara kömək etmək istəyirdim. Əlimdən nə gəlirdi edirdim. 600-dən artıq insan meyitlərinin vay-şivənlə Ağdam məscidində yuyulması, eyni zamanda, onların Şəhidlər xiyabanında dəfn olunması çox dəhşətli idi.

Təəssüf ki, tarixin ən dəhşətli bir qırğının baş verdiyi dövrdə Azərbaycanda hakimiyyətdəki rəhbərlər, eləcə də müxalifətçi siyasi qüvvələr, başqa "nüfuzlu şəxslər" lazımi münasibət bildirmədilər. Halbuki onlar haray salıb bütün Yer üzünü ayağa qaldırmalı idilər. Bütün mütərəqqi qüvvələri Azərbaycana çağırmalı, onları baş vermiş vəhşiliklə isti-isti tanış etməli idilər. Utandırıcı haldır ki, hadisə baş verən vədə ölkənin o vaxtkı rəhbərliyi bu faktı həm əhalidən, həm də dünya ictimaiyyətindən gizlətməyə çalışdı! Ölkə televiziyası, mətbuat susur, hadisənin miqyasını xeyli kiçildirdi. Özlərini siyasətçi hesab edənlərin əksəriyyətini Xocalıda baş vermiş hadisələrdən siyasi məqsədlər üçün istifadə etmək daha çox maraqlandırırdı. Amma bu acizlik, mövqesizlik o zaman həmin insanları xalqın gözündən daha çox saldı.

Xocalı hadisəsi barədə dünya ictimaiyyətini lazımi qədər məlumatlandırmaq yalnız Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidi ilə siyasi hakimiyyətə gəldikdən sonra mümkün oldu. Məhz onun fəaliyyəti nəticəsində Xocalı məsələsinə həm ölkənin siyasətində, parlamentdə, xarici siyasətdə ciddi əhəmiyyət verilməyə başlandı. Xocalı soyqırımının bütün dünyada tanınması istiqamətində əməli addımlar atıldı. Amma nəzərə almaq lazımdır ki, Heydər Əliyevə qədər Azərbaycan "siyasilərinin" başı daxili münasibətlərə qarışdığı bir müddətdə ermənilər dünya ictimaiyyəti arasında Xocalıdakı hadisələr barədə təhrif olunmuş, özləri üçün faydalı məlumatlar formalaşdırmağa müəyyən

qədər nail olmuşdular. Ona görə də əsl həqiqətləri anlatmaq üçün çox gərgin əmək sərf etmək lazım gəlirdi.

Dahi, müdrik liderimiz Heydər Əliyev elə ilk imkan düşən kimi bu sahədə ciddi fəaliyyətə başladı. O, hələ prezident səlahiyyətlərini həyata keçirdiyi vaxtda, Milli Məclisin sədri kimi, təcili tədbirlər görülməsi üçün 26 iyul 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurasına müraciət etdi. 1994-cü il 24 fevralda Milli Məclis hər il fevralın 26-sının "Xocalı Soyqırımı Günü" kimi yad olunması barədə qərar qəbul etdi. 1995-ci il 24 fevralda isə, Milli Məclis dünya parlamentlərinə və beynəlxalq təşkilatlara Xocalı soyqırımının tanınması ilə bağlı müraciət etdi. Azərbaycanın həm daxili, həm də xarici siyasətində, diplomatik münasibətlərin qurulmasında Xocalı soyqırımına münasibət mühüm bir yer tutdu. Ulu öndərin müəyyən etdiyi bu xətt artıq beynəlxalq aləmdə nüfuzlu bir siyasətçi kimi tanınan, hörmətli Prezidentimiz İlham Əliyevin fəaliyyətində də diqqət mərkəzindədir.

Heydər Əliyev Fondunun bu sahədəki xidmətləri – xüsusən "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının uğurları barədə də danışmamaq mümkün deyil. 2008-ci il mayın 8-də Şuşanın işğalının ildönümü günü Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlayan "Xocalıya ədalət!" kampaniyası hazırda 80-dən çox ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilir. Görülən məqsədyönlü tədbirlər nəticəsində dünyanın 10-dan çöx ölkəsinin parlamenti, eləcə də ABŞ ştatlarının bir çoxu bu qətliamı "Xocalı soyqırımı" kimi qəbul etmişdir.

Bəli, tariximizin belə bir qanlı səhifəsi vardır. Amma, təəssüf ki, bu vəhşiliyi görüb xalqımızın halına yananlar, bizə kömək edənlərin sayı heç də insanlıq adına layiq səviyyədə deyil. Ölkəmizin xarici siyasətində bu istiqamətdə geniş fəaliyyət gös-

tərilsə də, hələlik Xocalıda baş verən vəhşilikləri tam səviyyədə qətliam kimi qəbul edən dövlətlər arzu olunan sayda deyil. Elə bu faktın özü də yer üzündəki o ikili, çoxüzlü siyasətin nəticəsidir. Bu vəziyyətin yaranması xalqımızı ayıq olmağa, Vətənimizin belə faciələrlə bir daha üzləşməməsi üçün sıx birləşməyə, dövlətçiliyimizə sadiq olmağa səsləyir.

## Xocalı soyqırımı canlı tarix və qadın hüquqları mətnində

1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırım oldu. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı faciəsi tarixdə bizə məlum olan Xatın faciəsi ilə eyni səviyyədə durur. Ulu öndər Heydər Əliyev haqlı olaraq qeyd etmişdir ki, "xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, vətəninə sədaqətliliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamı və ən qanlı səhifəsidir. Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzaqgörən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda

mübarizə əzmini qırmaq idi. Ancaq mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar. J.P.Sartr məntiqi ilə desək, "bu anlar sözsüz ki, (soyqırım və s. – H.Q.) çaşdırıcı və qorxulu təsir bağışlayır".

Cinayətkar erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər şəhid, 487 nəfər əlil olmuş, 1275 nəfər dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir (onları da şəhidlər sırasına daxil etsək, 613 yox, 763 nəfər soyqırıma məruz qalmışlar). Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuşlar, əlillərin 76 nəfəri yetkinlik dövrünə çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. 200 nəfərin ayaqları soyuqdan qanqren olmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdılar.

Qeyd edək ki, bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, baş dəriləri soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yırtılmışdı. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdir. Həyatdan məhrum edilmiş azərbaycanlıların yeganə günahı onların azərbaycanlı olmaları idi. "İnsan Hüquqları Ümumi Bəyyanaməsi"nin 2-ci maddəsinə əsasən isə hər bir şəxs

irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq bütün hüquq və azadlıqlara malik olmalıdır. Lakin yuxarıda göstərilənlər insan hüquq və azadlıqlarının pozulmasının adi halı deyildi. Əsrin əvvəllərindən başlayaraq plana uyğun surətdə azərbaycanlılara qarşı həyata keçirilən "etnik təmizləmə", soyqırım siyasətinin təzahürü idi. Təhlilimizdə canlı tarix aspektindən hadisənin məhz şahidlərinin fikirlərinə nəzər yetirək.

Səriyyə Talıbova adlı qadın göstərmişdir ki, erməni döyüşçüsünün qəbri üstündə 4 nəfər mesxet türkünün və 3 azərbaycanlının başını kəsmişlər. Valideynlərinin yanında uşaqlara işgəncə verilmiş və onları öldürmüşlər.

Xocalıdan olan digər bir qadın Sənubər Ələkbərova Naxçıvanik kəndində qadın, uşaq və qoca meyitlərindən yaranmış təpəni heç vaxt unutmayacağını bildirib. Həmin kənddə ermənilərin qurduğu pusquya düşdükdən sonra onun əri, iki qızı – Sevinc və Hicran öldürülmüş, özü isə yaralanmışdır. Orada 200 nəfər azərbaycanlı girov götürülmüşdür.

Digər biri Cəmil Məmmədov da girov düşmüş azərbaycanlılardan olmuşdur. Onun dırnaqları çıxarılmış, təpiklə sifətinə xəsarət yetirilmiş, nəvəsi ondan alınıb götürülmüş, anası və qızı xəbərsiz itkin düşmüşdür. Uşaqların zorla bir qrupdan alınıb başqa bir qrupa verilməsi də soyqırımı cinayətinin obyektiv cəhətini təşkil edən əlamətlərdəndir.

Maraqlı bir məqama diqqət yetirək. Belə ki, Xocalı soyqırımı hadisəsindən sonra cinayətin baş verdiyi yerdə olmuş fransız jurnalisti Can Yunet demişdir: "Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm. Ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları

ötüb keçiblər”.

Bəs KİV nə yazır, nə əks etdirdi?

“İzvestiya” qəzetinin müxbiri V.Bulıx göstərmişdir ki, Xocalı hadisələri zamanı gözləri oyulmuş, qulaqları kəsilmiş, sümükləri çıxarılmış, başları kəsilmiş meyitlərin, o cümlədən qadın meyitlərinin şahidi olmuşdur.

Və yaxud Moskva “Memorial” hüquq-mühafizə mərkəzinin Xocalı şəhərinin işğalı zamanı insan hüquqlarının kütləvi pozulması faktları barədə məlumatında göstərilir: “Qaçanlar ermənilərin pusqusuna düşmüş və güllələbaran edilmişlər. Dörd gün ərzində Ağdama 200 meyit gətirilmiş, onlarca meyitdə təhqirə məruz qalma əlamətləri olmuşdur. Dörd meyitin başının dərisinin soyulduğu və bir meyitin başının kəsildiyi qeydə alınmışdır.

Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) dövlət məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertlərin rəyi ilə müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin - qəlpə yararları səbəb olmuş, 10 nəfər küt alətlə vurulmaqla öldürülmüşdür.

Soyqırımın hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyada göstərilir ki, soyqırım hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlərdən ibarətdir:

- bu cür qrup üzvlərinin öldürülməsi;
- belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
- hər hansı bir qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;

- bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;

- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Aparılmış tədqiqatlar onu deməyə əsas verir ki, Xocalı soyqırımı nəticəsində insan hüquqları, o cümlədən qadın hüquqları kobud şəkildə pozulmuşdur. Belə ki, şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuşlar, şikəstlərin 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. Şəhid olanların yalnız 335 nəfəri dəfn olunmuşdur. Qadın və uşaq da daxil olmaqla 200 nəfərin ayaqları soyuqdan qanqrena olmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdılar.

Bu cinayətdə 56 nəfər, o cümlədən qadınlar xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, başlarının dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yırtılmışdı. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdir. "İnsan Hüquqları Ümumi Bəyyanəməsinin 2-ci maddəsində öz əksini tapmış qadın hüquqları kobud şəkildə pozulmuşdur. Qadınların yanında uşaqlara işgəncə verilmiş və onları öldürmüşlər. Naxçıvanik kəndində qadın, uşaq və qoca meyitlərindən ibarət təpə yaranmışdır. Hətta alman faşistləri qadın və uşaqlara qarşı belə qəddarlıq etməmişlər.

Xocalı hadisələri zamanı bir sıra qadınların gözləri oyulmuş, qulaqları kəsilmiş, sümükləri çıxarılmış, başları kəsilmişdir.

Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə, o cümlədən qadın və uşaqlara qarşı hərəkətləri Cenevrə Konvensiyasına, həmçinin Ümumdünya İnsan Hüquqları Ümumi

Bəyannaməsinin (BMT-nin Baş Assambleyası 10.12.1948-ci ildə qəbul etmişdir) aşağıdakı maddələrinə kobud qaydada ziddir:

✓ Hər bir şəxs dilindən, ... dinindən, ... milliyyətindən və digər səbəbdən, fərq qoyulmadan bu Bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır.

✓ Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.

✓ İnsan ləyaqətini alçaldan, insaniyyətlikdən kənar və qəddar hərəkətlər qadağandır.

✓ Özbaşına həbslər, saxlanılmalar və ya qovulmalar qadağandır.

✓ Hər bir insanın əmlaka malik olma hüququ vardır və insanın əmlakdan özbaşına məhrum edilməsi qadağandır.

# II FƏSİL
# 44 GÜNLÜK MÜHARİBƏDƏ ZƏFƏR BİZİMDİR REALLIĞI

## Qarabağın işğaldan azadlığı

Atəşkəs rejiminin Ermənistan tərəfindən yenidən pozulması nəticəsində sentyabr ayının 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri yenidən sərhədlərimiz boyu Silahlı Qüvvələrin mövqelərini və dinc əhalinin yaşadığı yaşayış məntəqələrini müxtəlif növ silahlardan intensiv atəşə tutmuşlar. Nəticədə, çox sayda dinc əhalinin evləri dağıdılmış, təsərrüfatlarına ciddi ziyan dəymiş, mülki şəxslər arasında həlak olanlar və yaralananlar olmuşdur. Düşmənə cavab olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin əmri ilə ordumuz bütün təmas xətti boyu əks hücuma keçmişdir, düşmənin müdafiə xətti, hərbi texnika və canlı qüvvəsi məhv edilmiş Füzuli və Cəbrayıl istiqamətində 7 kənd, bir çox yüksəkliklər və Murovdağ zirvəsi düşmən işğalından azad edilmişdir. Məlumata görə düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriyası, yaylım atəşli raket sistemləri, minaatan, 30 ədəd hava hücumundan müdafiə vasitələri, komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası və 1 ədəd “S-300” zenit-raket kompleksi ordumuzun əsgərləri tərəfindən məhv edilmişdir.

Döyüşlər başlayan ilk gündən xalq daim ətrafında sıx birləşdiyi, etimad göstərdiyi Prezident İlham Əliyevə, müzəffər ordumuza dəstək nümayiş etdirmişdir. On minlərlə Vətən oğlu şanlı qələbələr yazan ordumuza qatılmaq, torpaqlarımızı işğaldan azad etmək üçün könüllü olaraq hərbi qurumlara müraciət

etmişdir. Heç şübhəsiz ki, ordumuzun bu parlaq qələbələri, ən mükəmməl səviyyədə təcəssüm etdirilən xalq və dövlət vəhdətinin ərsəyə gəlməsinin əsas səbəbi, Cənab Prezident İlham Əliyevin uzun illər ərzində yürütdüyü ordu quruculuğu, daxili və xarici siyasətdə atılan uğurlu addımları təşkil edir.

Prezident İlham Əliyevin yürütdüyü güclü xarici siyasətin nümunəsidir ki, ölkəmizi bu çətin günlərdə bir çox xarici dövlətlər dəstəkləyərək dövlətimizin ərazi bütövlüyünü tanıdıqlarını bildirirlər, Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozmasını, dinc əhalimizin məskunlaşdığı əraziləri atəşə tutmasını qınadıqlarını, Azərbaycan Ordusunun düşmənə qarşı əks hücumlarını qətiyyətlə dəstəklədiklərini, xalqımızın haqq işi uğrunda mübarizəsinə həmrəy olduqlarını ifadə edirlər.

Qızğın döyüşlərdə Ermənistanın hücumları nəticəsində ölən və yaralanan mülki və hərbi qulluqçularımız olmuşdu. Lakin dövlətimizin qayğısı nəticəsində yaralı əsgərlərimiz xüsusi rejimli xəstəxanalarda müalicə olunur və bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. “Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istəyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar” bu fikirləri Cənab İlham Əliyev yaralı hərbçilərlə görüşdə səsləndirmişdir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 55 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almış, 19 nəfər isə həlak olmuş, 175 yaşayış evinə,

həmçinin, 41 mülki obyektə, o cümlədən Tərtər şəhərində Xalça-toxuculuq fabrikinə, Ağdam rayonu, Təzəkənd kəndində inşa edilmiş modul tipli məktəb binasına, Tərtər rayonu, Şıxarx qəsəbəsi 1 saylı tam orta məktəbin binasına, Tərtər şəhəri 2 saylı məktəb-liseyin binasına, Tərtər rayonunun Azad Qaraqoyunlu kəndi ərazisində yerləşən "MKT İstehsal Kommersiya" MMC-nin Pambıq zavoduna, Tərtər rayonu Qapanlı kəndində tibb məntəqəsinə külli miqdarda ziyan vurulmuş, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşmüş, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olmuşdur.

Eyni zamanda bu çətin, şərəfli günlərdə cəbhədən gələn xoş xəbərlər hər bir Azərbaycan vətəndaşında torpaqlarımızın tezliklə işğaldan azad olunacağına olan inamını daha da qüvvətləndirir. Bu günlərdə sarsılmaz xalq-ordu birliyi, həmrəyliyi nümayiş etdirən vətəndaşlarımız cəsur oğullarını Azərbaycan Ordusu sıralarına təntənə ilə yola salmaqdadır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" Sərəncamının icrasına uyğun olaraq Respublikanın şəhər və rayonlarında qismən səfərbərlik üzrə hərbi xidmətə çağırılan vətəndaşlarımız Xidmətin yerli struktur bölmələrinə böyük ruh yüksəkliyi ilə gəlirlər. Hərbi vəzifəlilər cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatı həyata keçirərək düşmənə sarsıdıcı zərbələr vuran Azərbaycan Ordusu sıralarına qələbə əhval ruhiyyəsi ilə yola düşürlər. İnsanların izdihamla, sevgi ilə bu tədbirlərdə iştirakı xalqımızın Ordumuza və Ali Baş Komandana böyük inamının göstəricisidir.

Beynəlxalq mübahisələri sülh yolu ilə, heç bir təhdidsiz və zor işlətmədən həlli müasir beynəlxalq hüququn mühüm prinsiplərindən birinə çevrilmişdir. Beynəlxalq mübahisələrin həlli üçün

müharibə və digər zor vasitələrinə müraciət etmək isə hüquqazidd hərəkətdir.

BMT Nizamnaməsinə əsasən, təşkilatın üzvü olan dövlətlər öz aralarında baş verən böyük və kiçik beynəlxalq mübahisə və münaqişələri beynəlxalq sülh, təhlükəsizlik və ədalət üçün qorxu törətmədən, tərəflərin və üçüncü dövlətlərin tələb və mənafelərini obyektiv surətdə nəzərə almaq əsasında, yalnız sülh yolu ilə həll etməlidirlər. Hazırda bütün dövlətlərin icbari vəzifəsinə çevrilmiş bu prinsip 1970-ci ildə BMT Baş Məclisinin qəbul etdiyi "Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə"də əksini tapmışdır.

BMT-nin Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi, lakin bu günə kimi həllini tapmayan qətnamələri:

*Qətnamə 822.* Kəlbəcərin işğalından sonra qəbul edilmişdir. Qətnamə bölgədəki hərbi əməliyyatlara son verməyə, erməni qoşunlarının Kəlbəcərdən və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi. 30 aprel, 1993;

*Qətnamə 853.* Bu qətnamə bölgədəki hərbi əməliyyatlara son verməyi, erməni qoşunlarının Ağdamı və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi. Qətnamə, həmçinin 822 saylı qətnaməyə də əməl edilməsini tələb edirdi. 29 iyul, 1993;

*Qətnamə 874.* Qətnamə atəşkəs imzalanmasını, hərbi əməliyyatları dayandıraraq erməni qoşunlarının son dövrlərdə işğal etdiyi Füzuli (23 avqust 1993), Cəbrayıl (26 avqust 1993), Qubadlı (30 sentyabr) və digər ərazlərdən geri çəkilməsini tələb edirdi. Qətnamədə həmçinin əvvəlki 822 və 853 saylı qətnamələrə əməl edilməsi tələbi də öz əksini tapmışdı. 14 oktyabr, 1993;

*Qətnamə 884.* Tərəflər arasında yenidən hərbi əməliyyatların bərpası ilə nəticələnən atəşkəs pozulmaları qınanılır, Ermənistan Respublikasından ermənilərin qondarma respublika üzərindəki bütün təsir vasitələrindən istifadə etməsi istənilirdi. Qətnamədə hərbi əməliyyatların dərhal dayandırılması tələb edilir, son dövrdə işğal edilmiş Zəngilan rayonu da daxil olmaqla, digər rayonlardan erməni silahlı dəstələrinin çıxması tələb edilirdi. Sonda isə əvvəl qəbul edilmiş 822, 853, 874 saylı qətnamələrə əməl edilməsi tələb edilirdi. 12 noyabr, 1993.

1949-cu ildə İsveçrənin Cenevrə şəhərində keçirilən konfransda IV Cenevre Konvensiyası qəbul edilib ki, həmin konvensiya qanunlarından bəziləri silahlı münaqişələr zamanı yaralı, xəstə hərbiçilərin vəziyyətini yaxşılaşdırmaq ilə bağlıdı.

Həmçinin konvensiyalardan biri də müharibə zamanı mülki şəxslərin müdafiəsi ilə bağlıdı. Cenevrə Konvensiyasının 18-ci maddəsində qeyd olunur ki, heç bir halda münaqişə tərəfləri mülki insanların toplandığı yerə mərmi atmamalı, artilleriya atəşinə tutmamalıdır. Təcavüzkar Ermənistan bütün beynəlxaq hüquq norma və prinsiplərinə əməl etməyərək Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozur, dinc əhaliyə, mülki obyektlərə və təsərrüfatlara atəş açmaqla külli miqdarda ziyan vurmaqda davam edir. Onların hədəf kimi seçdiyi ərazilər əsasən əhalinin sıx yerləşdiyi ərazilərdir (rayon və kənd mərkəzləri, xəstəxanalar, məktəb və uşaq bağçaları və s.)

Ermənistanın 1987-1988-ci illərdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe və atdığı hər bir addım bu dinc vasitələri kobudcasına pozmağa, beynəlxalq hüquqla qadağan edilmiş zor tətbiq etməyə əsaslanır. Ermənistan tərəfi indiyə kimi münaqişənin dinc vasitələrlə həlli istiqamətində heç bir real addım atmamış, bu istiqamətdə görüntü, imitasiya

yaratmağa çalışmışdır. Halbuki BMT Nizamnaməsinin 38-ci maddəsinə əsasən, hər hansı münaqişədə qarşıduran tərəflər mübahisəni danışıqlar, vasitəçilik, barışdırma, arbitraj, məhkəmə əməliyyatları və s. müraciət yolu ilə və ya özlərinin seçdikləri başqa dinc vasitələrlə həll etməlidirlər. Hazırki vəziyyət də bunun bariz göstəricisidir. Eyni zamanda Ermənistan tərəfi Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tblisi-Ceyhan neft kəmərini hədəfə almaqla kəmərin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endiriblər, lakin ordumuzun qətiyyətli tədbirləri nəticəsində həmin terror cəhdinin qarşısı alınıb. Eyni zamanda Erməni hərbçilərin Mingəçevir Su Elektrik Stansiyasına da atəş açması uğursuzluqla nəticələnmiş və ordumuz tərəfindən dəf edilmişdir. Bütün bunlar beynəlxalq cinayət əməli sayılır.

İnanırıq ki, bu haqq işimizdə Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə döyüşən güclü ordumuz qısa zamanda üçrəngli bayrağımızı işğal altındakı şəhər və kəndlərimizdə dalğalandıracaq.

Bu müqəddəs amala çatmaq üçün cəsur əsgər və zabitlərimizə inanır, yaralanan hərbi qulluqçulara şəfa diləyir və şəhid olan vətən oğullarına Allahdan rəhmət diləyirik.

Prezident İlham Əliyevin səsləndirdiyi “Zəfər bizimdir, biz qələbə çalacağıq!” sözlərinə olan inamla zəfər bizim oldu.

## Azərbaycanın “Dəmir Yumruğ”u erməni faşizmini məhv etdi

Uzun illər ərzində beynəlxalq vasitəçilər, demək olar, bütün aparıcı beynəlxalq təşkilatlar deyirdilər ki, “Dağlıq Qarabağ” münaqişəsinin hərbi həlli yoxdur. Lakin Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev isə dəfələrlə demişdi ki,

əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, biz bu məsələni hərbi yolla həll edəcəyik və belə də oldu. 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Ordusu növbəti erməni təxribatına cavab olaraq hərbi əməliyyatlara başladı və bununla da özünün tarixi Zəfər yoluna qədəm qoydu. Ermənilərin 5 ilə işğal etdikləri və 30 il ərzində hərbi-mühəndis istehkamları ilə möhkəmləndirdikləri müdafiə xətlərini Azərbaycan Ordusu cəmi 44 günə dəf etdi. Qısa müddət ərzində əldə olunmuş tarixi Qələbə möhtərəm Prezidentimizin güclü iradəsini, xalqımızın böyük əzmini və Azərbaycan dövlətinin, ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Savaş meydanında əldə olunmuş qələbədən sonra məsələ siyasi yolla həll olundu və tarixi ədalət bərpa edildi. Bu gün artıq qalib Azərbaycan var, işğaldan azad edilmiş torpaqlarımız var, yox olan isə "Dağlıq Qarabağ" adında ərazi vahidi və onun ətrafında süni şəkildə yaradılmış münaqişədir.

Azərbaycan Ordusu Vətən müharibəsinin ilk günündən ardıcıl qələbələr qazanması danılmaz faktdır. Bununla belə məhz Şuşanın azad olunması müharibənin başa çatmasını şərtləndirən əsas zərbə oldu: "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hər zaman deyirdi ki, Azərbaycanın qüdrətli ordusu var və bu ordu torpaqlarımızı işğaldan azad etməyə hər an hazırdır. Əlbəttə ki, dövlət başçımızın bu əminliyi son 17 ildə həyata keçirdiyi möhtəşəm hazırlıq işlərinin nəticələrinə əsaslanırdı. Bu gün biz birmənalı olaraq deyə bilərik ki, 2003-cü ildən Vətən müharibəsinə başlandığı günə qədər keçən dövr ölkəmiz üçün öz ərazi bütövlüyünü bərpa etməyə bir hazırlıq dövrü olub. Ölkə Prezidenti cənab İlham Əliyev 17 il ərzində daim deyirdi ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik. Həmin illər ərzində dövlətimizin başçısı səbr və əzmkarlıqla, müd-

rikcəsinə Qələbəmizi təmin edəcək şəraiti yaratmaq məqsədilə düşünülmüş siyasət yürüdüb, zəruri addımlar atıb. Bütün bu tədbirlər öz nəticəsini verdi. Azərbaycan güclü iqtisadiyyata və qüdrətli orduya sahib olan dövlətə çevrildi. Əlbəttə ki, Ermənistanın bizim qarşımızda heç bir şansı yox idi. Bu ölkə üçün ən əlverişli variant Azərbaycan Prezidentinin tövsiyyələrini eşidib öz işğalçı qüvvələrini ərazilərimizdən çıxarmaq idi. Lakin xarici havadarlarına güvənən Ermənistan bunu etmədi və sonda rüsvayçı məğlubiyyətin acısını çəkməli oldu. Qeyd etmək lazımdır ki, Vətən müharibəsinin gedişində ordumuz bir çox əhəmiyyətli qələbələr qazansa da məhz Şuşanın işğaldan azad olunması hərbi əməliyyatların başa çatmasını şərtləndirən əsas zərbə rolunu oynadı. Bu zərbədən dərhal sonra Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən daha 72 yaşayış məntəqəsi və strateji əhəmiyyətli yüksəkliklər ildırım sürətilə azad olundu. Bundan cəmi bir gün sonra Müzəffər Ordumuzun qarşısında duruş gətirə bilməyən Ermənitan təslim oldu. Noyabr ayının 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə birdəfəlik son qoyuldu. Azərbaycanın maraqlarına tam cavab verən bu sənəd faktiki olaraq Ermənistanın kapitulyasiya aktı oldu. Bu sənədin imzalandığı an hələ də işğal altında olan digər rayonlarımız – Ağdam, Laçın, Kəlbəcər rayonları artıq Üçtərəfli Bəyannamənin şərtlərinə görə qan tökülmədən özümüzə qaytarıldı.”

Belə ki, Ermənistanın törətdiyi hərbi cinayətləri artıq bir çox beynəlxalq qurum və təşkilatların nümayəndələri, o cümlədən media təmsilçiləri işğaldan azad edilmiş ərazilərə etdikləri səfərləri zamanı işğalçı erməni ordusunun, Ermənistan hökumə-

tinin ağır hərbi cinayətlər törətməsinə dair danılmaz dəlillər əldə ediblər. Vətən müharibəsinin gedişi zamanı beynəlxalq ictimaiyyət dəfələrlə erməni barbarlığının şahidi oldu. Təkcə Gəncə şəhərinə ballistik raketlərin atılması barbarlığın, hərbi cinayətkarlığın ən böyük göstəricisidir. Çünki bu, gecə vaxtı insanların yatdığı zaman hədəflənmiş hücum idi. Rəsmi İrəvan hərbi cinayətkardır. Azərbaycan Ordusunun zəfər yürüşü qarşısında tab gətirə bilməyən düşmən təxribatlara əl ataraq dinc mülki şəxsləri hədəfə almaqla müharibə cinayətləri törətmişdir. Azərbaycanın şəhərləri ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutulmuşdur. Müharibə dövründə namərd atəşlər nəticəsində 100-ə yaxın mülki şəxs, onların arasında uşaqlar, qadınlar həlak olmuşlar. 400-dən çox mülki şəxs yaralanmış, 5 mindən çox ev dağıdılmış, ziyan çəkmişdir. Ağdam, Bərdə, Füzuli, Gəncə, Goranboy, Naftalan, Mingəçevir və Tərtər rayonlarında şəhər və kəndlərin raket atəşinə tutulması müharibə cinayətidir. Həmçinin basdırılmış minaların xəritələrinin Azərbaycana təqdim olunmaması rəsmi İrəvanın hərbi cinayətkar olmasının növbəti sübutudur. Basdırılmış yüz minlərlə mina bərpa işlərini əsaslı şəkildə ləngidir və mülki əhalinin həyatı üçün təhdid törədir. Müharibə başa çatandan bu günədək 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək həlak olmuş və ya öz sağlamlığını itirmişdir. Obyektiv həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün çalışan jurnalistlərin sülh dövründə öz peşə vəzifələrinin icrası zamanı həlak olması faktı dünya jurnalistləri tərəfindən qınanılmalıdır. Beynəlxalq ictimaiyyətin susması və bu cür insidentlər ilə bağlı rəsmi bəyanat və ya qətnamələrin qəbul olunmaması "ikili standartlar" siyasətinin təzahürüdür. Hər bir mina partlayışı atəşkəsin və sülhün pozulması kimi qiymətləndirilə bilər. Dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar Ermənistanı minala-

rın xəritələrini vermədiyinə görə qınamalı və rəsmi İrəvan bütün bu cinayətlərə görə beynəlxalq müstəvidə hüquqi məsuliyyət daşımalıdır.

Azərbaycanın Vətən müharibəsində qələbəsini təmin edən ən vacib amillərdən biri bu gün ölkəmizdə mövcud olan xalq-iqtidar birliyidir: “Heç şübhəsiz Azərbaycanın Vətən müharibəsində qələbəsini təmin edən ən vacib amillərdən biri də bu gün ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi, milli həmrəyliyimiz, xalqın öz Prezidentinə olan sonsuz inamı və bu zəmində müharibənin ilk günlərindən müşahidə etdiyimiz böyük ruh yüksəkliyi oldu. Əlbəttə ki, 50 siyasi partiyanın Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşib, birgə dəstək bəyanatı imzalamaları möhtəşəm siyasi həmrəylik nümayişi idi. Siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin əsil təcəssümü idi. Müharibədən əvvəlki dövrə təsadüf edən son bir neçə ay ərzində siyasi dialoqun bərqərar olunması, etibarlı münasibətlərin formalaşması və siyasi partiyaların fəaliyyətinə dövlət tərəfindən göstərilən dəstək məhz bu şəkildə öz nəticələrini göstərdi. Azərbaycanın “Dəmir Yumruğ”u erməni faşizminin belini qırdı. Vətən müharibəsi Azərbaycanın tarixi Qələbəsilə başa çatdı.”

## Kaş o gün mən də Ağdamda olaydım

Məlum olduğu kimi, Azərbayan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva noyabrın 23-də işğaldan yenicə azad olunmuş, mənim doğma yurdum Ağdam rayonuna səfər etmişlər. Kaş həmin gün mən də Ağdamda olaydım, sevimli Prezidentimiz, müzəffər Ali Baş Komandanımızla görüşüb sonsuz minnətdarlığımı, bütün ağdamlıların ürək sözlərini

ona çatdıraydım... Dövlət başçımız Azərbaycan xalqının xoş gələcəyi naminə elə titanik fəaliyyət göstərib, milli tariximizə elə səhifələr yazıb ki, hamı bu xidmətləri layiqincə qiymətləndirərək öz minnətdarlıq ifadələrini dilə gətirmək istəyir.

Bir həqiqətdir ki, ölkə əhalisinin hamısı onunla şəxsən görüşmək arzusunu dilə gətirir. Yüzlərlə siyasətçi, məmur, alim, yaradıcı ziyalı, sadə vətəndaş tanıyıram ki, öz söhbətinə "mən cənab Prezidentlə görüşə bilsəm, deyəcəm ki...." sözləri ilə başlayır. Lap elə mən də...

Arzu edərdim ki, noyabrın 23-də Ağdamda yazılan tariximizin canlı şahidi olaydım. Belə bir xoşbəxtlik mənə nəsib olsaydı, sevimli Prezidentimə deyərdim:

– Möhtərəm cənab Prezident! Siz artıq bütün dünyanın tanıdığı, dəyər verdiyi böyük tarixi şəxsiyyətsiniz! Siz Azərbaycan tarixinin böyük xilaskar sərkərdələrindən birisiniz. Siz Qarabağı xalqımıza qaytarmaqla bütün Azərbaycanı, onun gələcəyini xilas etdiniz! Bu gün bütün Azərbaycan xalqı, türk dünyası Sizinlə, qazandığınız möhtəşəm Qələbə ilə qürur duyur. Dünyanın harasında yaşamasından asılı olmayaraq, soydaşlarımızın hamısı fərəh içindədir. Bu fərəh ölkəmizdə böyük bir intibah dövrünün başlanğıcıdır.

Artıq neçə gündür ki, Azərbaycanın ən böyük rayonlarından olan Ağdamın üzərinə, sanki qeyri-adi bir gün işığı səpələnib. Otuz ilədək düşmən əlində qalan Ağdam bu gün bayram ovqatındadır. Bütün Ağdam camaatı bu bayram içində Sizdən danışır, Sizinlə fəxr edir, Sizə dualar edir. Bu günlər ərzində mən yüzlərlə ağdamlı ilə söhbət etmişəm. Onların hamısının qəlbində Siz özünüzə çox yüksək bir taxt qurmusunuz. Ağdamın yaşlısı da, cavanı da sevinc içində, böyük arzular qoynundadır. Cavanlar qurub-yaratmaq eşqiylə vaxt itirmədən Ağdam şəhərinin,

kəndlərimizin görkəmini tezliklə dəyişməyə, yenidən canlandırmağa, onu dünyanın ən gözəl məkanına çevirməyə tələsirlər. Yaşlılar onlara hər cür dəstək olmağa hazırdırlar.

Doğma yurdun bir ovuc torpağına həsrət qalan ağdamlılar indi Sizin sayənizdə bütün Ağdama sahibdirlər. Bir neçə yaşlı adamdan bu sözü eşitməyim məni çox kövrəldib: "Allaha şükürlər olsun, daha arxayınam ki, öləndə öz kəndimizdə, ata-babamın yanında dəfn olunacağam". İnanıram ki, bu torpaqda uyuyanların da ruhuna bir rahatlıq gəlib. Artıq onların vandallar qarşısında müdafiəsiz qalan, dağıdılan məzarları da öz doğmaları tərəfindən ağırlanıb, əzizlənəcək, gül-çiçəyə qərq ediləcək. İndi bütün Ağdam şəhidlərinin ruhu sevinir. Ağdamın uğrunda canını fəda edən qəhrəman igidlərin də ruhu rahatlıq tapıb. Onların yolunda şəhid olduqları bu torpaq artıq xilas olunmuşdur. Şəhidlərin qanı yerdə qalmadı! İnanıram ki, uzun illər boyu əsirlikdə qalan bütün torpaqlarımız kimi, Ağdamın da üzərində qəmli-qəmli dolaşan nalələr yoxa çıxdı, doğma yurdun çiçəklənməsi üçün dualara çevrildi...

Əziz Prezidentimiz! Bütün ağdamlılar Ağdam şəhərinin, kəndlərinin quruculuğu yolunda əllərindən gələni edəcəklər! Ağdamın adı yenidən bütün dünyada bir abad, xoşbəxt şəhər kimi tanınacaq. Ağdamlıların canında muğam ruhu var. Ağdamlılar həm də muğamdan doğulurlar. Muğam müqəddəs bir musiqidir. Qeyb aləminin yer üzündəki sədalarıdır. Ağdamın indiki libasını dəyişib gözəlləşməsinə, həm də muğam ruhu yardımçı olacaq, müqəddəs varlıqlar kömək edəcək. Ağdam həm də böyük, dünya şöhrətli alimlər, öz işinin mahir bilicisi olan mütəxəssislər, əməksevər, vətənpərvər insanlar diyarıdır. Ağdam təhsili hər zaman öz uğurları ilə ölkəmizdə məşhur olub. Buranın münbit torpağı hər cür nemətlər yetirir. Bu, böyük potensial, in-

şallah, tez bir zamanda Sizin arzu etdiyiniz kimi, xariqələr yaradacaqdır. Yüksələn Ağdamın hər bir uğuru Sizin adınızla bağlı olacaqdır.

Əziz Prezidentimiz! Biz ağdamlıların Sizə deyiləsi sözümüz bu yazdıqlarımdan qat-qat çoxdur! Təkcə bizim yox, bütün Azərbaycanın, türk dünyasının qəlbi Sizə alqışlarla, dualarla doludur. Mən isə qeydlərimi dahi Hüseyn Cavidin bu məşhur misraları ilə bitirmək istəyirəm:

***Kəssə hər kim tökülən qan izini,***
***Qurtaran dahi odur Yer üzünü.***

Siz öz müdrikliyiniz, zəkanız, savadınız, təcrübənizlə hər gün tökülən qanların izini kəsdiniz. Torpaqlarımızın böyük bir hissəsini isə qan tökülmədən aldınız! Ona görə Sizin dahiliyinizi həm də böyük Hüseyn Cavidin misraları təsdiq edir. İndi bunu xalqımız, bütün bəşər övladı təsdiq edir. Siz dünyanın ən böyük mükafatını – xalq məhəbbətini qazandınız! Bütün başqa hər cür böyük mükafatları almağa da layiqsiniz! Yüz yaşayın! Sağlam olun, uğurla, fərəhlə yaşayın!

## Azərbaycan tarixində dönüş yaradan möhtəşəm Zəfər bayramı

Tarixin olduqca parlaq səhifələrini yazmış, dünya şöhrətli böyük dahilər, tarixi şəxsiyyətlər yetirmiş xalqımızın başı üstündə son iki yüz ildə xeyli xeyli qara buludlar dolanmışdır. Torpaqlarımızın bir çox hissələri əlimizdən çıxmış, xalqımızın istedadlı, qabiliyyətli, cəsur insanlarının başına min cür oyunlar açılmışdır. Bütün bu müddət ərzində vətənimizə hərisliklə baxan düşmənlər ermənilərdən bir vasitə kimi istifadə edərək, onları

alət edərək öz çirkin niyyətlərini həyata keçirmək, sərvətlərimizə sahib olmaq üçün müxtəlif yollara əl atmışlar. Sovet rejimi laxlamağa başlayandan – 1987-ci ildən isə həmin qüvvələr Azərbaycanı tamamilə ələ keçirmək üçün yeni planlar qurdular. Erməniləri yenə bir alət olaraq hərəkətə gətirdilər. Onlar seperatçı şüarlarla fəallaşdırıldı.

XX əsrdən başlayaraq Ermənistan adlandırılan ərazidə əsrlər boyu yaşayan azərbaycanlılara qarşı qeyri-insani təzyiqlər başladı. Xeyli insan vəhşicəsinə öldürüldü. Qalanlar kütləvi şəkildə, son nəfərə qədər öz ata-baba torpaqlarından sıxışdırılıb çıxarıldı. Öz torpaqlarının müdafiəsinə başlayan Azərbaycanın paytaxtı Bakı şəhərində 1990-cı ildə qanlı yanvar faciəsi baş verdi. Xalq böyük bir faciə, psixoloji gərginlik içərisində yaşamağa məcbur oldu. Min illər boyu yaşadığı vətən torpaqlarının qalan hissəsinin də itirilməsi təhlükəsi yarandı. Azğın bir tulaya dönmüş məkirli qonşular fürsətdən istifadə edərək bir vaxtlar onlara bağışlanmış torpaqlarını daha da genişləndirmək üçün tarixdə görünməmiş vasitələrə əl atdılar. Qadınlardan, körpələrdən, yaşlı insanlardan ibarət minlərlə insanı əsir götürdülər. Onların başına tarixində görünməmiş müsibətlər açıldı, işgəncələr verildi. Onların dəriləri soyulur, dırnaqları çəkilir, qarınları deşilir, orqanları hissə-hissə kəsilirdi. Valideynlərinin gözləri qarşısında övladlarına, övladların gözləri qarşısında valideynlərinə işgəncə verilir, təhqir edilirdilər. Sağ qalanları isə ən ağır şəraitdə saxlanılırdı.

Xalqımızın hər bir nümayəndəsi, dost ölkələrdəki insanlar bu dəhşətli hadisələrə son qoymaq üçün əlindən gələni edirdilər. Amma, ötən əsrin doxsanıncı illərində yer üzü hələ özünün etinasızlıq, Azərbaycana qarşı ögeylik dövrünü yaşayırdı. Kimlərsə müsəlman, kimlərsə türklər yaşayan ölkə kimi burada baş verən-

lərə əhəmiyyət vermirdi. Böyük güclər öz planlarını həyata keçirmək üçün yeni ssenarilər düşünürdü. Vətənimiz tarixi bir faciənin ucrumları qarşısında idi. Minlərlə fədakar, vətənpərvər insanlarımız döyüşlərə atılır, bu ucruma düşməmizin qarşısını almamız üçün özlərini qurban verirdilər. Yaşından, peşəsindən, vəzifəsindən asılı olmayaraq hər kəs nəsə etmək istəyirdi. Amma yağı düşmən çox arxalı idi. Ümidlə baxdığımız bütün güc mərkəzləri, beynəlxalq təşkilatlar Azərbaycanda baş verənləri seyr edir, üzdə ermənilər tənqid edir, arxada onlara kömək edirdilər. Mənasız müzakirələr aparılır, görüşlər təşkil edilir, qurumlar yaradılır və bununla vaxt uzadılırdı. Azərbaycan xalqını öz faciəsi ilə barışdırmaq ümidi ilə hərdən bir yeni mahna axtarılırdı. Daha dəhşətli hadisələrə rəvac verilirdi. 1991-ci ildə Azərbaycanın dövlət rəhbərlərinin böyük bir hissəsi Qarakənd üzərində vertolyotda məhv edildi. 1992-ci ildə tarixin dəhşətli bir hadisəsi – Xocalı qətliamı baş verdi. Xəstə insanları yataqda, anaları körpələrinin gözü qarşısında güllələdilər. Şaxtalı qarlı havada ayaqyalın, yüngül paltarda qaçan insanların dalınca düşüb öldürdülər, əsir götürdülər. Ətraf kəndlər içərisində böyük qorxu yaratmaq məqsədilə meyitlərin belə başına min oyun açdılar – onları bir daha güllələdilər, başlarını əzdilər, dərilərini soydular... Amma dəhşət nə qədər çox olsa da düşmən arzusuna çata bilmədi. Xalqımızın iradəsi, milli ruhu buna imkan vermədi.

Xalqımıza bu amansız döyüşdə böyük mətanətlə vuruşmağa, özünü müdafiə etməyə inam verən həm də bütün dünyada mahir bir siyasətçi, iradəli bir insan, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Xalqın böyük əksəriyyəti ona inanırdı. Təəssüf ki, həmin dövrlər onun özünə qarşı da mənfur planlar qurulurdu. Bu planlar xalqımıza qarşı qurulan işğalçı siyasətlərin tərkib hissələrindən biri idi. Onun 1990-cı il yanvar hadisələri zamanı

Moskvada, Azərbaycanın səfirliyində xalqı başına yığaraq bütün dünya ictimaiyyətinə səslənməsi düşməni karıxdırdı və ona qarşı olan manelər daha da artdı. Bütün bu məkrli manelərə baxmayaraq bu böyük siyasətçi Azərbaycana qayıda bildi. Amma Moskvanın qorxusundan onu ölkənin paytaxtına – Bakıya buraxmadılar. Paytaxta məskunlaşaraq düşmənlə mübarizə aparmasına, xalqına kömək etməsinə imkan vermədilər. O doğulduğu torpağa, Naxçıvana getməyə məcbur oldu.

Dahi Heydər Əliyevin ən böyük üstünlüklərindən biri bu idi ki, o dünyada gedən proseslərin mahiyyətini çox gözəl başa düşürdü. Hansı siyasi axının hansı istıqamətdə, hansı güclə axdığını hər kəsdən yaxşı hiss edirdi. Hansı vacib işlərin görülməsinə nə qədər ehtiyac olduğunu bilirdi. Amma bir müddət ona öz xalqını müdafiə etmək üçün imkan verilmədi.

1993-cü ilin may-iyun ayılarında Azərbaycanda ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Düşmən Azərbaycanın parcalanması üçün böyük bir oyun oynayırdı. Öz ssenarisini həyata keçirirdi. Həmin vaxt, iyun ayının 15-də Heydər Əliyev xalqın arzusu, xalqın tələbi, Azərbaycanın o vaxtkı rəhbərliyinin dəvəti ilə paytaxta döndü. Milli Məclisin sədri seçildi. İndi həmin tarix qurtuluş günü kimi qeyd olunur. O tarix həqiqətən də qurtluş günüdür. Həmin gün Azərbaycan məkrli düşmənlərin caynağından qurtuldu. O düşmənlər başa düşdü ki, onlar artıq Azərbaycan rəhbərliyinə istədikləri kimi təzyiq edib onları öz istədikləri kimi yönləndirə bilməyəcəklər. Qarşılarında dövrünün böyük, qüdrətli, ağıllı, vətənpərvər siyasətçisi Heydər Əliyev dayanıb. Ölkə əhalisi də bunu başa düşürdü. Hər kəsdə ölkənin sabahına, qələbəyə inam hissi xeyli artdı. İndiki zəfər bayramımıza gələn yollarda ilk addımlar atılmağa başlandı.

Ulu öndərimiz Milli Məclisin sədri seçilcək, 70 yaşı olma-

sına baxmayaraq böyük bir enerji, qüdrətli bir iradə ilə fəaliyyətə başladı. Əvvəlcə bizə qarşı bir məkrli oyun olaraq qurulmuş müharibəni dayandırdı. O gözəl bilirdi ki, müharibə ölkədə qarışıqlıq, xaos yaradır, torpaqlarımız əldən gedir. Belə bir vəziyyətdə xilasedici tədbirlər görmək mümkün deyildir. Ölkədə əmin-amanlıq yaradıldı. Hava bir az qaralcaq eşiyə çıxmağa qorxan əhali öz ölkəsində özünü sərbəst hiss etməyə başladı. Bununla da zəfər yolunda yeni addımlar atıldı.

Xarici ölkələrlə, güc mərkəzləri ilə mühüm, əhəmiyyətli əlaqələr yaradıldı. Ulu öndərimiz əlində xəritə bütün güc mərkəzlərini gəzməyə, tarixi həqiqətləri onlara çatdırmağa başladı. Ölkənin özünü toparlaması, ayağa qalxması üçün zəruri olan iqtisadi resurslarımız hərəkətə gətirildi. 1994-cü ildə, sentyabrın 20-də, əsrin müqaviləsi adlanan neft müqaviləsi imzalandı. Azərbaycan ordusu yenidən qurulmağa başlandı. Bununla da bu zəfər bayramımıza gələn yollarda bir qədər də inamla irəliləməyə başladıq.

2003-cü ildə xalqımız zəngin Heydər Əliyev məktəbini keçmiş, onun tərbiyəsi ilə formalaşmış, bir savadlı diplomat kimi yetişmiş, ağlı, zəkası, davranışı ilə seçilən İlham Əliyevi özünə rəhbər seçdi. Heydər Əliyevin çox uğurlu davamçısı olan İlham Əliyevin hakimiyyətə gəlməsi Heydər Əliyev xəttinin uğurla davam etməsinə kömək etdi. O ölkənin taleyi üçün əhəmiyyətli olan hansı işin harada yarımcıq qaldığını, ölkənin dostunun da, düşmənin də kim olduğunu çox yaxşı bilirdi. Onun hakimiyyəti dövründə Heydər Əliyevin özülünü qoyduğu işlər bəhrə verməyə başladı. Artıq ölkənin düşünülmüş xarici siyasəti, stabil inkişaf edən iqtisadiyyatı, müasir tələblərə görə formalaşmış ordusu vardı. Neft sahəsi böyük gəlirlər verməyə başlamışdı.

Neftdən gələn gəlirlər ölkənin abadlıq işləri ilə yanaşı, ilk növbədə hərbi potensialımızın güclənməsinə yönəldildi. Xeyli

gənc hərbçilərimiz qardaş Türkiyədə təhsil almağa göndərildi. Qardaş Türkiyə ilə iqtisadiyyatla bərabər hərbi, mənəvi əlaqələrimiz daha da gücləndi. Digər dost ölkələrlə də əlaqələrimizə xüsusi diqqət yetirildi. Düşmən mövqeli olanları neytrallaşdırmaq sahəsində uğurlu tədbirlər görüldü. Ölkəmiz ətrafında qurulan informasiya blokadaları dağıdıldı. Beynəlxalq aləmdə Azərbaycanda baş verən proseslərin əsil mahiyyəti barədə məlumatlar xeyli artdı. Dövlətimizin rəhbəri artıq müasir dövrün görkəmli siyasətçisi kimi tanınmağa başladı. Ölkədəki daxili qüvvələr, əhalinin əksər hissəsi onun ətrafında birləşdi. Bununla da bu günkü zəfər bayramımıza gələn addımlar daha da sürətləndi.

30 ilə yaxın bir dövrdə baş verənlər onu göstərdi ki, böyük xarici dövlətlərin bir çoxu, beynəlxalq təşkilatlar, siyasi xadimlər üzdə, beynəlxalq qanunlara uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıdıqları halda, arxada bizim əleyhimizə olan işlər aparırlar. Hər bir vəchlə vaxtı uzadaraq Azərbaycan xalqını məğlubuyyətlə barışdırmağa çalışırlar. Ona görə də son illər Azərbaycan prezidenti, Ali Baş komandanımız tez-tez belə çirkin – ikili siyasəti dəfələrlə tənqid edir, onları haqqın, ədalətin, beynəlxalq qanunların yanında olmağa çağırırdı.

Artıq məlum olmağa başlandı ki, torpaqlarımızı yalnız müharibə yolu ilə geri qaytara bilərik. Dünyada gedən proseslərin mahiyyətini dərindən başa düşən müdrik prezidentimiz İlham Əliyev bu barədə açıq danışmağa, müharibədən başqa ayrı bir yol qalmadığını tez-tez səsləndirməyə başladı. Düşmənin Qarabağdakı ucuz siyasi şoularına üzdə təmkinlə dözən rəhbərimiz, arxada ciddi şəkildə taleyüklü müharibəmiz üçün lazımi hazırlıqlar gördü.

Azğınlaşmış, şirnikmiş düşmənsə tez-tez özünün yeni torpaqlarımızın işğalını həyata keçirəcəkləri barədə sərsəmləməyə

başladı. Bizi Bakıya qədər gələcəkləri, hətta Bakını da tutacaqları ilə hədələdi. 2020-ci ilin iyul ayında olduqca strateji əhəmiyyət daşıyan, neft kəmərlərinin keçdiyi Tovuz rayonuna hücum etdi. Qısa müddətli döyüşlər zamanı çox böyük nüfuza malik olan general Polad Həşimov şəhid oldu. Onun xəyanətkarcasına vurulması Azərbaycan əhalisi arasında böyük bir həyacan yaratdı və böyük əksəriyyət cəbhədə vuruşmaq üçün müraciət etdi. Sentyabrın 27-də düşmən sərhədlərimizi bir daha pozmağa cəhd edəndə Ali Baş Komandanımız müharibəyə başlama əmrini verdi. Uzun illər düşmənə nifrətlə bu günü gözləyən müzəffər ordumuz döyüşlərə başladı. Təkcə ordumuz yox, bütün ölkə səfərbər oldu. Arxa cəbhədə də hər kəs əlindən gələni etməyə başladı. Xüsusilə döyüş bölgələrinə yaxın olan əhali ordumuza hər cür kömək etmək üçün böyük fədakarlıq etdi.

Müharibənin 44 gündə möhtəşəm qələbəmizlə başa çatmasında xalqımızın öz rəhbərinə inamı, sevgisi böyük rol oynadı. Onun bütün müharibə dövründə, demək olar ki, hər gün xarici jurnalistlərə verdiyi müsahibələr böyük uğur qazanmamızda əvəzsiz rol oynadı. Bu müsahibələr onu öz xalqına, həm də ümumiyyətlə bütün dünya ictimaiyyətinə, güc mərkəzlərinə daha yaxşı tanıtdı. Bu müsahibələrlə yanaşı onun rəşadətli bir sərkərdə kimi mübarizəyə başçılıq etməsi də göz qabağında idi. Müharibənin dayandırılmasını tələb edənlər qarşısında nümayiş etdirdiyi böyük iradə, beynəlxalq təşkilatlarda əleyhimizə qərarlar qəbul edilməsinin, düşmənə silah daşınmasının qarşısını almaq üçün göstərdiyi ağıllı fəaliyyət onun nüfuzunu daha da artırdı. Onun bu fəaliyyəti ordumuzu daha da ruhlandırdı, daha möhtəşəm qələbələr çalmamıza kömək etdi. Demək olar ki, hər gün yeni bir ərazilərimizi düşməndən təmizlədik. Ali baş komandan hər gün bu barədə öz xalqına sevinclə məlumat verdi. Şuşa

qalamız böyük rəşadətlə alındıqda isə o Ulu Öndərimizin məzarı üzərinə gedib, raport verdi, xalqımızın sevincini ona da çatdırdı.

Bu qələbəmiz təkcə torpaqlarımızı bizə qaytarmadı. Həm də xalqımızı bütün dünyaya yenidən tanıtdı. Hər kəs xalqımızın öz torpaqları yolunda öz zəkası, iradəsi ilə hansı məhəbbətlə vuruşduğunun şahidi oldu. Şuşa qalasının alınması hərb tarixində misli görünməmiş bir hadisə oldu. Xalqımız həm öz torpaqlarını qaytardı, həm də öz nüfuzunu, özünə, sabahına inamını.

İki yüz ildə lik dəfə itirilmiş torpaqlarımızı böyük qəhrəmanlıqla geri aldıq. Bu zəfər bayramı tarixi inkişafımızda, yüksəlişimizdə yeni mərhələnin uğurlu başlanğıcıdır.

## Qarabağda Zəfər uğurları müdrik siyasətin bəhrəsidir

Uzun illərdir həsrətlə gözlədiyimiz zaman – doğma torpaqlarımızı fitnəkar düşmənlərdən təmizləmə günlərimiz gəldi. Xoşbəxtik ki, bu günləri görürük. İndi hansı azərbaycanlını, Azərbaycanı doğma bilən xalqların nümayəndələrini dindirsən Qarabağdan, Qarabağ uğrunda gedən rəşadətli mübarizəmizdən danışır. Hamının üzündə bir fərəh hissi var. Möhtərəm prezidentimiz İlham Əliyevin dediyi kimi, "İnsanlar qələbələrimizi eşitdikcə sevincdən ağlayır". Bəli, prezidentimiz doğru deyir, bu göz yaşları artıq 90-cı illərdəki kədər, qəm, məyusluq dolu göz yaşı deyil. İndiki göz yaşları qürurla, qayğı ilə, şadlıqla, ümidlə dolu göz yaşlarıdır. Bu göz yaşları yeni başlayan gözəl bir günün sübh üzündə, çiçəklər üstündəki şehə bənzəyir. Əziz prezidentimiz hər dəfə doğma torpaqlarımızın azad olunduğunu elan etdikcə hər kəsin qəlbində sabaha inam, vətənimizin yüksəlişi uğrunda mübarizəyə, böyük quruculuq işləri aparmağa həvəs, arzu boy verir. İnşallah, tezliklə hamımızın gözlədiyi yekun qələbəmiz də elan ediləcək! Buna hər kəs inanır!

2020-ci il 27 sentyabrda apadığımız müqəddəs müharibəyə 30 ildən artıq bir yol gəlmişik. Hələ 1987-ci ildə mənfur Aqanbekyanın Fransanın “Humanite” qəzetinə Dağlıq Qarabağla bağlı verdiyi müsahibədən, Raisa Qorbaçovanın Dağlıq Qarabağı ermənilərə hədiyyə verməsinə söz verməsi müqabilində aldığı rüşvətdən, M.Qorbaçovun kəkələyə-kəkələyə Qarabağ problemindən danışmasından, xalqımızın Azadlıq Meydanındakı haraylarından, 20 Yanvar qırğınından, beynəlxalq aləmin laqeydliyindən, ikiüzlü siyasətindən, özümüzün haqqın, ədalətin qüdrətinə olan inamımızdan başlayır bu müharibəmiz. Bu müharibə xalqımızın tale məsələsidir.

Biz 30 ildən artıq bir zamanda dözdük. Dünyanın güc mərkəzlərindən öz haqlı tələblərimizə dəstək gözlədik… Onlarsa hər dinəndə demokratiyadan, beynəlxalq hüquqdan, düzlükdən danışa-danışa başımızın altına yastıq qoyub bizi yuxulatmaq, torpaqlarımızı hiylə yolu ilə əlimizdən alıb ermənilərə bağışlamaq yolları axtardılar. Hər dəfə Qarabağ probleminin ədalətlə həll olunması tərəfdarı olduqlarından danışdılar. Amma, bu “ədalətli həll” dedikdə nəyi nəzərdə tutduqlarını demədilər. Bu ötən illər göstərdi ki, onların əksəriyyəti “ədalətli həll” deyə-deyə ədalətsiz həll haqqında düşünüblər. Çox təəssüf! Məncə elə yer üzünü indi bu qədər problemlərə salan bu cür siyasətçilərin fəaliyyətidir. Məhz elə bu cür siyasətçilərin Qarabağ probleminə, ümumiyyətlə yer üzündə bir çox bəlalara səbəb olan fəaliyyətini dərindən təhlil edən prezidentimiz artıq uzun illərdir ki, onların ikiüzlü, çoxüzlü siyasətindən danışır. Onları belə riyakarlığa son qoymağa çağırır.

Biz çox gözlədik! Haqqın-ədalətin qalib gələcəyi günü gözlədik. Amma gözləməklə yanaşı ağıllı siyasət qurmağa, iqtisadiyyatımızı, ordumuzu daha qüdrətli şəkildə təşkil etməyə, xalqımı-

zın rifah halını yüksəltməyə, sabaha, qələbə çalacağımıza inamı möhkəmləndirməyə çalışdıq. Xalq öz prezidentinə inandı və onun ətrafında hər zaman sıx birləşdi. Provakasiyalara uymadı.

İndi dünyanın hər yanında çoxları Ermənistanı Azərbaycanla müqayisə edirlər. Azərbaycanın iqtisadi, hərbi üstünlüyündən danışırlar. Azərbaycanın əsas üstünlüklərindən biri isə onun prezidentinin şəxsi keyfiyyətləridir. Ulu tarixə malik, türk, islam mədəniyyətinin yaradıcılarından olan, bu mədəniyyətlərin potensialından güc alan xalqımızın ləyaqətli yetirməsi olan prezidentimizin şəxsi keyfiyyətləri bizə bir çox dolanbaclardan təhlükəsiz keçməyə kömək oldu. Məhz onun analitik təhlilləri hesabına biz möhtərəm Heydər Əliyevin başladığı siyasəti uğurla davam etdirdik, xarici siyasətimizi uğurla qura bildik və Qarabağ həqiqətlərini dünyaya çatdıra bildik. Bununla da torpaqlarımız uğrunda müqəddəs müharibəmizin başlamasına şərait yarada bildik.

Dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitunda (MDBMİ) təhsil alan, orada dərs deyən, dünyanın ən təcrübəli siyasətçilərindən biri olan Heydər Əliyev məktəbini keçən prezidentimiz üstünlüyümüzü təmin edən çox mühüm potensialımızdır. Onun hər dəfə erməni rəhbərləri ilə bir məclisdə olması, eyni zamanda çıxış etmələri dünya ictimaiyyətinin gözündə ermənilərə kəskin zərbələr vurur. Bizim ciddi, ağıllı prezidentimizin yanında erməni rəhbərləri bir kütbeyin, təlxək sifətində görünür.

Onun indiki qüdrətli çıxışları göstərir ki, bu uzun illər o, Qarabağın taleyini ən çox düşünənlərdən biri olub. Aydındır ki, öz çiynində necə bir məsuliyyət olduğunun fərqində olaraq bu ağrılara qatlanmaq daha çətindir və daha böyük iradə tələb edir. Erməni cinayətkarlar Qarabağda at oynatdıqca, meydan suladıq-

ca onun hansı əzablar çəkdiyi indiki savadlı, qətiyyətli, diplomatik çıxışlarından da aydın görünür. Onun hansı ağrılar çəkdiyi erməni Paşinyanın dağın başında uşaq-muşaq qarşısında ədabazlıqla "Qarabağ Ermənistanındır" Nöqtə!" sərsəmləməsinə cavab olaraq, olduqca yüksək bir tribunadan beynəlxalq ictimaiyyət qarşısında "Qarabağ Azərbaycanındır! Nida!" haykırtısı ilə cavabından da görünürdü. Təlxək Paşinyan müqəddəs torpağımızda yallı gedəndə, kabab çəkəndə, yeni yaşayış məskənləri salanda, qondarma prezident Şuşada andiçmə mərasimi keçirəndə çoxları cənab Prezidentimizi qınayırdı ki, nədən onların cavabını vermir. O isə müdrikcəsinə susurdu. İndi artıq hər kəsə məlumdur ki, o susa-susa dərin təhlillər aparır, bu iblis balalarının layiqli cavablarını vermək üçün daha uğurlu tədbirlər haqda düşünürmüş. Bu susma diplomatik bir susma imiş. Yüngüllüyə, bambılılığa qarşı müdriklik imiş.

Bizim indiki qələbələrimizin əsas səbəblərindən biri də xalqımızın Prezidentimizə olan inamı, etibarıdır. Öz vətəni uğrunda qurban getməyə hazır olan xalqımız, gənclərimiz prezidentimizə inanaraq silaha sarılmışlar. Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik edilməsi haqqında" Sərancamı əhali arasında bir canlanma yaratdı. Qocalı, cavanlı hər kəs orduya yazılmaq üçün müraciət etdi.

Bu gün torpaqlarımız hissə-hissə azad olduqca ölkənin bütün əhalisi sevinir. Amma qarabağlıların sevincində bir ayrı məqam da var. Yaşlı qarabağlılar öz uşaqlıq, gənclik dövrlərinin keçdiyi, ata-babalarının qəbri uyuduğu torpaq həsrəti ilə 30 ildir ki, yol gözləyirlər. Qarabağlıların o torpaqlar yadına gəlməyən yeni nəsli isə, hər zaman evdəki yaşlıların söhbətindən, ağrılarından, göz yaşlarından tanıdıqları əfsanəvi ata-baba yurdlarını nəhayət

ki, görəcəklərinə görə sevinirlər. Mən özüm də bir qarabağlı olaraq belə bir sevinc içərisindəyəm. 30 ildən artıq sərbəst gəzib dolaşdığım, ruhuma, qanıma işləyən o torpaqlar üçün çox darıxmışam. İndidən o doğma torpaqlara ayaq basacağım, o əziz yerlərin yaralarına dava-dərman qoya biləcəyim günləri gözləyirəm.

Ali Baş Komandan, prezident İlham Əliyevin apardığı siyasətin nəticəsidir ki, artıq bir çox dövlətlər, siyasi xadimlər bizim haqq işimizi dəstəkləyir. Bizim ədalətli olduğumuzu qəbul edirlər. Hörmətli prezidentimiz yaralı hərbçilərlə görüşdə dedi: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar."

Dünyanın bir sıra siyasətçiləri, ölkə başçıları, beynəlxalq təşkilatlar müharibəni dayandırmağın, atəşkəsin zərurətindən danışırdı. Prezident İ.Əliyev onlara çox məntiqli bir cavab verir. Deyir ki, biz də atəşkəs tərəfdarıyıq, amma bir şərtlə: Təminat verin, konkret qrafik göstərin ki, işğalçılar bizim doğma ata-baba torpağımızdan nə vaxt çıxacaqlar. Beynəlxalq hüquqa nə vaxt əməl edəcəklər. BMT – nin qətnamələrinə nə vaxt əməl edəcəklər? Bu məntiqə cavab gücü olmayanların özünü ciddi adam sayması qeyri məntiqidir.

Həm Azərbaycan, həm də daima sədaqətli qardaş dəstəyi verən, uzun illər bizə güclü ordu yaratmaqda kömək edən Türkiyə təkcə Qarabağ uğrunda mübarizə aparmır. Həm də bütün yer üzündə haqqın-ədalətin bərpası, haqq işi uğrunda mübarzə aparır. Biz Haqq yolundayıq! İblis xislətlilərlə mübarizə aparırıq. Biz bu gün elə həm də Beynəlxalq qurumların, ilk növbədə

BMT – nin hüquqlarını, onun şərəfini qoruyuruq. Hər kəsə məlumdur ki, 30 ilə yaxındır ki, BMT Qarabağın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz olaraq azad olunması ilə bağlı 4 qətnamə qəbul edib. Ermənilər bu qətnamələrə əməl etməməklə eyni zamanda BMT – nin nüfuzuna zərbə vururlar. Bizim mübarizəmiz həm də bu nüfuzun qorunmasına xidmət edir.

## Yeni Ağdamda bizi işıqlı gələcək gözləyir

2021-ci ildə 28 May – Müstəqillik Günündə yeni Ağdamın ilk təməl daşını öz əlləri ilə qoyan cənab Prezident İlham Əliyev həm də bizlərə, Ağdam ictimaiyyətinin nümayəndələrinə, bütün qarabağlılara dedi ki, "Mən söz vermişəm və artıq bunu icra edirəm – Qarabağı cənnətə döndərəcəm!" Bəlkə də həyatımda bir daha yaşamayacağım ən xoşbəxt anları məhz həmin gün yaşadım. İllərlə həsrətini çəkdiyim, doğmalarımın məzarını belə ziyarət etməyə gedə bilmədiyim əziz torpağımdaydım.

İndi vətənimin havası ilə nəfəs alırdım, ən əsası, qədim Ağdamın yeni təməlinin qoyulduğu tarixi və qürurlu anlara şahidlik edirdim. Doğma Ağdamı mükəmməl diplomatik bacarığı ilə bir güllə atılmadan, bir itki belə verilmədən xilas edən Müzəffər Ali Baş Komandan indi də ona yeni həyat bəxş edirdi.

Müstəqillik günümüzdə Ağdamın bərpasının başlanğıcını qoyan dövlət başçımız ən müasir Ağdamın qurulacağının və buranın tezliklə modern şəhərə çevriləcəyinin müjdəsini verdi, demək olar ki, Ağdamın Baş Planında yer alan bütün layihəri bir-bir bizimlə müzakirə etdi, fikirlərimizi dinlədi. Həmin zaman möhtərəm Prezident layihənin icraçılarına tapşırıq verdi ki, Ağdam üçün elə ağaclar, güllər seçsinlər ki, burada bitsin. Onda mən də söylədim ki, cənab Prezident, Ağdamda nə əksən bitər, subtropik bitkilərin hamısı Ağdamda bitir. Ağdamın torpağı çox münbitdir.

Yeni Ağdam 100 min əhalilik möhtəşəm bir şəhər olacaq. İşğaldan əvvəl şəhərin 600-700 hektar ərazisi var idisə, indi 1700 hektar olması planlaşdırılır. Parklar, meşələr salınacaq, kanal çəkiləcək. Evlərin hər biri gözəl layihələr əsasında tikiləcək. Köhnə abidələrin hamısı bərpa olunacaq, Fərhadın heykəli, Cümə məscidi, Çörək muzeyi və digərləri. Onu da deyim ki, Ağdamın işğal və qələbə tarixi iki muzeydə yaşadılacaq, "İşğal" və "Zəfər" muzeyləri yaradılacaq.

Həmin günü mənim üçün əlamətdar edən daha bir möhtəşəm məqam da yaşandı. Ağdamda vaxtilə təhsil aldığım və erməni vandalları tərəfindən dağıdılmış qədim 1 saylı orta məktəbin yenidən təməli qoyuldu. Dövlət başçımız bu tarixi məktəbin həm keçmiş, həm də gələcək şagirdlərinin qəlbinə fərəh və sevinc bəxş etdi.

Görüş zamanı cənab Prezident söylədi ki, biz elə bir şəhər yaradacağıq, elə bir Ağdam quracağıq ki, bu, bütün dünya üçün örnək olacaqdır. Ağdamdakı həmin tarixi görüşün üzərindən bir il keçib. İndi dövlət başçımızın yeni Ağdamla bağlı planlaşdırdığı layihələr bir-bir gerçəkləşdirilir. Mənfur ermənilərin daşı daş üstündə qoymadığı və görənlərinin dəhşətə gələrək "Qafqazın Xirosiması" adlandırdığı Ağdam gündən-günə dirçəlir. Rayonun bərpası ilə bağlı kompleks tədbirlər görülür, Böyük qayıdışa möhtəşəm hazırlıq işləri aparılır.

190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrinin təməl daşı da bu ilin fevralında möhtərəm Prezident tərəfindən qoyulub. Həmçinin Ağdamda iki yarımstansiyanın - "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının açılışı olub ki, onların fəaliyyəti nəticəsində gələcəkdə bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Şəhərdə təqribən 2 ildən sonra fəaliyyətə

başlayacaq müasir mehmanxananın təməli qoyulub, təqribən il-yarıma - iki ilə inşa ediləcək altı evdən ibarət yaşayış kompleksinin inşası nəzərdə tutulub, 210 çarpayılıq Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulub və rayon sakinlərinə tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradılıb.

Ağdama qaz xəttinin çəkilişi layihəsi işlənilir, içməli suyun gətirilməsi və digər əhəmiyyətli işlər də tezliklə reallaşdırılacaq. Mühüm məsələlərdən biri də Ağdamın yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Cənab Prezidentin göstərişi ilə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunur. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək. Bununla həm də Ağdama başqa ölkələrdən gəlmək daha da asanlaşacaq.

Bütün bu sadalanan işlər onu göstərir ki, Azərbaycan dövləti tarixi zəfərdən dərhal sonra daha bir tarixi uğuru reallaşdırır və bütün maliyyə, texniki imkanlarını, kadr potensialını səfərbər edərək, işğaldan azad etdiyi torpaqlarını sürətlə dirçəldir, o ərazilərdə əbədi həyatın var olması üçün mühüm işlər görür. Doğma şəhərimizin ruhu da özünə qaytarılır. Ağdamın mənəvi rəmzi hesab olunan Cümə məscidi Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə bərpa edilir.

Ümumiyyətlə, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu işğaldan azad olunan bütün ərazilərimizdə tarixi, mədəni, dini irsimizin bərpası yönündə müstəsna işlər həyata keçirir.

Ağdam sözün əsl mənasında uğurlu gələcəyə yol alıb. Görülən möhtəşəm işləri Ağdama səfər edən vətəndaşlarımız, o cümlədən də biz ağdamlılar görür və tezliklə doğma şəhərimizə qovuşacağımızın sevincini, xoşbəxtliyini yaşayırıq.

Buna görə biz Ulu Öndər siyasətinin layiqli davamçısı cənab Prezident İlham Əliyevə minnətdarıq. Müzəffər Ali Baş Komandanımız doğma Qarabağımızı işğaldan azad edərək talandan, tapdaqdan qurtardığı kimi, indi də viran qoyulmuş yurdlarımızı dünyada görünməmiş bir sürətlə bərpa edir.

Biz illərlə foto və videokadrlarda mənfur düşmən tərəfindən viranəyə çevrilən, bircə həyat nişanəsi belə qalmayan Ağdama ürək ağrısı ilə baxmışıq. Dağıdılan evlərimizi, küçələrimizi, hər birimizin əzizlərinin, yaxınlarının uyuduğu şumlanan qəbiristanlıqlarımızı acı gözyaşları içərisində izləmişik. Ömrümüzün ən gözəl çağlarının keçdiyi yurd yerlərimizə bir daha qayıda bilməyəcəyimizin qorxusunu yaşamışıq. Amma budur, bütün bu dəhşətli hadisələr keçmişdə qalıb.

Ağdam azaddır. Bu gün Ağdam quruculuq-bərpa meydanına çevrilib. Evləri, küçələri, məhəllələri yenidən qurulur. Bağlar, bağçalar salınır... Ağdam çiçəklənir, gülüstanlığa çevrilir...

Prezident İlham Əliyevin artıq başdan yaratdığı yeni Ağdama dönəcəyimiz xoşbəxt günlər isə çox yaxındadır.

## "Dəmir Yumruğ"un bərpa etdiyi ədalət

Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük müharibə torpaqlarımızın azad olunması ilə nəticələndi. Döyüş hazırlığı yüksək olan ordumuz Ermənistanı məğlub edərək diz çökdürdü. Bu savaş Azərbaycan xalqının haqq işi idi. Bu, erməni təcavüzünün qurbanı olan vətəndaşlarımızın qanının yerdə qalmamasının, düşməndən alınan intiqamın təntənəsi idi.

Ermənilərin türklərə, o cümlədən azərbaycanlılara qarşı yönələn təcavüzünün ikiəsrlik tarixi var. Ermənilərin XIX əsrdən başlayaraq köçürüldükləri Azərbaycan torpaqlarında qaldırdıqları ərazi iddiaları həmişə insanlıq əleyhinə cinayətlərlə mü-

şayiət olunub. Onların Azərbaycan xalqına qarşı törətdiyi Xocalı, Qaradağlı, Başlıbel faciəsi cəmi 30 il əvvəl insanlıq tarixinə qanla yazılan bir soyqırımı cinayətləridir.

Bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanısa da, bu torpaqlar işğal olunmuşdu və 30 ilə yaxın müddətdə Qərb siyasi dairələri beynəlxalq hüququn normalarının pozulduğunu görməzliyə vurmuşdu. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Amma ATƏT-in artıq arxivə atılmış Minsk qrupu heç vaxt Ermənistana təzyiq göstərmədi. Minsk qrupunun keçirdiyi görüş və monitorinqlərin səmərəsizliyi, düşməni işğal etdiyi torpaqlardan öz qoşunlarını çəkməyə sövq etdirmək imkanlarına malik olmaması  nəticə etibarilə təcavüzkarın dəyirmanına su tökürdü. Bu da istər-istəməz Minsk qrupuna qarşı inamsızlığa gətirib çıxarmışdı. Hətta torpaqlarımızın ilhaqı üçün 30 ilə yaxın danışıqlar dövründə Azərbaycana təzyiqlər də oldu, respublikamızı özünün milli maraqlarının ziddinə olan kompromislərə getməsinə cəhdlər göstərildi.

Əlbəttə, vəziyyət belə davam edə bilməzdi. 2016-cı ilin Aprel döyüşləri, Cəbrayıl və Tərtər istiqamətində əldə olunan zəfər, Cocuq Mərcanlı kəndinin, Lələtəpə və digər strateji yüksəkliklərin azad olunması, əlverişli döyüş mövqelərininin ələ keçirilməs 44 günlük müharibənin qığılcımları idi.

2019-cu il oktyabrın 3-də Soçi şəhərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI iclasının plenar iclasında Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi “Qarabağ Azərbaycandır!” sözləri bir daha təsdiq edirdi ki, torpaqlarımızın azad olunacağı tarix uzaqda deyil.

2020-ci ilin yayında ermənilər hərbi-siyasi təxribatlarını daha da artırdılar. İşğal etdikləri torpaqlarımızda qüvvələrini dö-

yüş hazırlığı vəziyyətinə gətirdi, Şuşada qondarma rejim üçün hansısa mərasimlər keçirdi, habelə xarici ölkələrdən gətirdikləri erməniləri Qarabağa və Şərqi Zəngəzura yerləşdirirdilər. Artıq bütün bunlar göstərirdi ki, Ermənistan sülh istəmir. 2020-ci ilin iyul ayında Ermənistanın dövlət sərhədinin Tovuz rayonunda törətdiyi hərbi təxribat isə artıq danışıqlar prosesini tam dayandırmış, müharibənin qaçılmazlığını gündəmə gətirmişdi.

Ermənistanın 2020-ci il sentyabrın 27-də cəbhə xəttində törətdiyi növbəti hərbi təxribatdan sonra Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri düşmənin döyüş meydanında darmadağın edilməsi ilə nəticələndi. Həmin tarixdən başlanan Vətən müharibəsi cəmi 44 günə Azərbaycanın qələbəsi ilə başa çatdı. Bu savaşda ərazi bütöülüyünü bərpa etməklə Azərbaycan beynəlxalq konvensiyalarla təsbit olunmuş hüquqlarını güc yolu ilə təmin etməyin yeni nümunəsini yaratdı.

Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi cavab tədbirləri, yüksək peşəkarlıqla düşünülmüş hərbi əməliyyatları hərb tarixində hər zaman xatırlanacaq hadisələr kimi qalacaq. Ermənilərin qürrələndikləri Ohanyan səddinin elə ilk həmlədə keçilməsi sıradan bir əməliyyat hesab oluna bilməz. İlk dəqiqələrdən düşməni geri oturdan bölmələrimiz bütün hərbi əməliyyatları qələbə ilə başa vurdular. Bir-birinin ardınca şəhər və kəndlərimizi işğaldan azad etdilər.

Döyüş meydanında məğlubiyyətə düçar olan Ermənistan rəhbərliyinin müharibənin getmədiyi yaşayış məskənlərini raket qurğularından istifadə etməklə hədəf seçməsi isə insanlıq əlyhinə cinayət idi. Gəncə, Bərdə, Tətər kimi şəhər və rayonlara atılan raketlər mülki vətəndaşlarımızın həlak olması ilə nəticələndi. Ermənistan dövlətinin bu cinayət əməlləri 12 avqust 1949-cu il Cenevrə Konvensiyasının və onun Əlavə Protokollarının, 27 yanvar 1977-ci il terrorçuluqla mübarizə üzrə Avropa Konvensi-

yasının və 1946-cı il BMT Nizamnaməsinin tələblərinin kobud şəkildə pozulması deməkdir.

Vətən müharibəsində tarixi qələbənin qazanılmasında hərbçilərimizin yüksək vətənpərvərlik hisslərinə, döyüş əzminə malik olmaları böyük rol oynadı. Döyüşlər başa çatandan sonra Ermənistan mənbələri etiraf etdilər ki, Azərbaycan Ordusunun gücü qarşısında erməni əsgərlər duruş gətirə bilməyib cəbhənin bütün istiqamətlərində qaçıblar, kütləvi şəkildə fərarilik ediblər. Bəli, Azərbaycan əsgəri düşmənin üzərinə ölümdən belə çəkinmədən hünərlə, cəsarətlə yürüdü. Bu yolda şəhidlik zirvəsinə də ucaldı.

Şəhidlərimizin əziz xatirələri daim uca tutulacaq, onların ailə üzvləri həmişə yüksək dövlət qayğısı ilə əhatə olunacaqlar. Onu da qeyd edək ki, Şuşanın azad edilməsi xəbərini də Ali Baş Komandan məhz Şəhidlər xiyabanından xalqımıza çatdırmışdı.

Vətən müharibəsinin 44 günü ərzində isə Azərbaycan xalqı bir daha öz rəhbərinin vətənpərvərliyinin, qətiyyətinin, yenilməzliyinin şahidi oldu. Məhz bu amillər xalqımızı tarixdə görünməmiş dərəcədə bir amal uğrunda həmrəy etdi. Məhz İlham Əliyevin torpaqlarımızın azadlığı uğrunda qətiyyətli addımları, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi əzmi hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha sıx birləşdirdi.

Vətən müharibəsindəki qələbə Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasına səbəb oldu. İndi Qarabağda və ona yaxın ərazilərdə infrastruktur layihələr həyata keçirilir, yollar çəkilir, beynəlxalq hava limanları tikilərək istifadəyə verilir, əhalinin tədricən öz doğma yurd-yuvalarına qayıdışı üçün ciddi addımlar atılır. Zəngilan rayonunda “ağıllı kənd” layihəsi əsasında inşa olunan Ağalı kəndinə ilk sakinlərin köçürülməsi, orada yaşayacaq insanlar üçün yaradılan şərait Azərbaycanın iqtisadi qüdrətindən xəbər verir.

Hazırda azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri geniş miqyas alıb. Bu gün bütün dünya Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işlərinin fonunda Azərbaycan təkbaşına, yalnız öz daxili imkanları hesabına necə nəhəng layihələr həyata keçirdiyini görür. Dövlətimizin maliyyə imkanları yüksəldikcə bu istiqamətdə ayrılan vəsaitlərin həcmi də artacaq, işğaldan azad olunan bölgələrimizin bərpası prosesi ən yüksək səviyyədə başa çatdırılacaq.

# III FƏSİL
# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN MEMARIDIR

## Heydər Əliyev Müasir Azərbaycan xalqının xilaskarı və dövlətinin qurucusudur

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan – Heydər Əliyevdir.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi.

Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

İyunun 15-də Heydər Əliyev Milli Məclisin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”, – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: “Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il “olum, ya ölüm” ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir. Milli

Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ulu Öndərin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləm-

də Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlandı. Odur ki, Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu

gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.

Bu il Azərbaycan müstəqilliyinin 31-ci ilini yaşayır. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Məhz bu kursla əzmlə irəliləməyin nəticəsidir ki, Azərbaycan bu gün öz gücünə ərazi bütövlüyünü bərpa edərək, Cənubi Qafqazda yeni reallıqların müəllifi kimi çıxış edir. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir.

## Heydər Əliyev siyasi kursu Azərbaycanın davamlı inkişafının başlıca amilidir

Azərbaycan xalqı hər il olduğu kimi, bu il də dekabr ayının 12-də Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini sonsuz ehtiramla yad edəcək. Artıq ikinci ildir ki, Azərbaycan xalqı öz Ümummilli Liderinin anım gününü ölkəsinin ərazi bütövlüyünü

bərpa etmiş xalq olaraq qeyd edir. Ötən il Ölkə Preidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı Ulu Öndərin müqəddəs vəsiyyətinə əməl etdi və öz torpaqlarını işğaldan azad edərək, Heydər Əliyev ideyalarının təntənəsini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan xalqı ötən əsrin 90-cı illərinin əvvəlində Ulu Öndərin qətiyyəti və dərin zəkası ilə siyasi böhrandan necə xilas olmuşdusa, bu gün də məhz Ümummilli Liderimizin siyası kursunu və inkişaf strategiyasını inamla davam etdirən möhtərəm Ölkə Prezidenti cənab İlham Əliyev gərgin səyləri və yenilməz iradəsi sayəsində 30 illik erməni işğalına son qoydu. Bu tarixi hadisə bir daha göstərdi ki, Heydər Əliyevin dövlətçilik məktəbi hər zaman öz aktuallığını qoruyub saxlayır və ölkəmizin daha da qüdrətlənməsi işinə misilsiz töhfələr verməkdə davam edir.

Ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın müasir tarixinin bütün mərhələləri, məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin uzaqgörənliyi sayəsində Azərbaycanın milli-mənəvi irsinin qorunması da, respublikanın iqtisadiyyatının qurulması da, hərbi kadrlar yetişdirən hərbi liseyin yaradılması da məhz müstəqil Azərbaycanın bugünkü inkişafı üçün nəzərdə tutulmuş addımlar idi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan bütün sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyub, sözün əsl mənasında, öz intibah dövrünü yaşayıb. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər hələ sovet dönəmində respublikanın istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayırıb və bununla da respublika iqtisadiyyatının əsaslı şəkildə müstəqilləşdirilməsinə, sənaye potensialının gücləndirilməsinə nail olub. Məhz həmin illərdə Heydər Əliyevin qətiyyəti, iradəsi və

təşəbbüskarlığı sayəsində keçmiş sovetlər ittifaqının bir çox qabaqcıl texnologiyalara əsaslanan sənaye istehsal müəssisələri Azərbaycanda inşa olunub. Ulu Öndər bu məsələdə daim qətiyyətli mövqe tutub, keçmiş ittifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış edib, prinsipiallıq göstərib. Neft sənayesinin iqtisadi inkişafdakı rolunu böyük uzaqgörənliklə nəzərə alan Ulu Öndər Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsinə nail olub. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanıb, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulub.

Əgər 1969-cu ildə Heydər Əliyevin respublikada hakimiyyətə birinci gəlişi Azərbaycana dirçəliş və çiçəklənmə gətirdisə, 1993-cü ildə Ulu Öndərin ikinci dəfə qayıdışı dövlətimizi yox olmaq təhlükəsindən qurtardı. Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" - prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri ölkə iqtisadiyyatını böhrandan qurtarıb inkişaf yoluna çıxarmaq idi. Azərbaycanın yeni neft strategiyası bu baxımdan atılmış ilk və həyati əhəmiyyətli addım olmuşdur. "Əsrin müqaviləsi"nin imzalanması nəticəsində Ümummilli Lider Heydər Əliyev nəinki neft strategiyasının təməlini qoydu, bu müqavilənin reallaşması eyni zamanda, yeni neft erasının başlanğıcı oldu. Beləliklə, Heydər Əliyev dünyanın diqqətini Cənubi Qafqaz regionuna cəlb etdi, Azərbaycanın iqtisadi cəhətdən dünya birliyinə inteqrasiyasının təməlini qoydu. 1993-2003-cü illərdə ölkədə həyata keçirilən iqtisadi siyasət müstəqillik amilinin əyani şəkildə bərqərar olmasını təmin etdi.

Həmçinin Ümummilli lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. Ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi. Azərbaycan Respublikasının qanunvericilik aktlarında əks olunan, onun ayrılmaz komponenti olan təqsirsizlik prezumpsiyası təmin edildi. Bundan savayı, Konstitusiya Məhkəməsi, üçpilləli məhkəmə sistemi, yeni məhkəmə korpusu yaradıldı, məhkəmələrin müstəqilliyi və prosedur qaydalarının şəffaflaşması təmin edildi, on minlərlə insana amnistiya tətbiq edildi və böyük sayda məhkum bağışlandı, senzura ləğv edildi, KİV-in azadlığı və QHT-lərin sərbəst fəaliyyəti təmin edildi.

Müstəqil milli dövlətçiliyimizin memarı, Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, siyasi irsi Azərbaycanın ən yeni tarixinin ən mühüm və şərəfli səhifələrini təşkil edir. Çünki, xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik, hüquqi əsaslar üzərində bərqərar olunmasına Ulu Öndər Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur.

2003-cü ildən Azərbaycan xalqının istəyi və iradəsilə ölkədə hakimiyyətə gəlmiş Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirmiş, bununla da bütün bu illər ərzində ölkəmizin uğurlu inkişafını şərtləndirmişdir. 2003-2020-ci illər Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm mərhələ olmuşdur. Ən əsası da budur ki, bu illər ərzində Azərbaycan istər siyasi, istər iqtisadi sahədə böyük uğurlara imza atmaqla öz ərazilərini işğaldan azad etmək üçün gərəkən hazırlıqları həyata keçirmişdir. Nəhayət ötən ilin sentyabr ayının 27-dən etibarən Azərbaycan ordusu erməni təxribatlarına son qoymaq və

torpaqlarını işğaldan azad etmək məqsədilə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında hərbi əməliyyatlara başlamışdır. Nəticədə 44 gün davam edən Vətən müharibəsi ölkəmizin tarixi Qələbəsilə başa çatmışdır. Azərbaycan öz torpaqlarını 30 il davam edən işğaldan azad edərək, tarixi ədaləti bərpa etmişdir. Bu tarixi Zəfər Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən Heydər Əliyev siyasi kursunun növbəti təntənəsidir.

Ümummilli Liderin həyat yolu hər bir azərbaycanlı üçün bir örnəkdir. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi daim Azərbaycan xalqının qəlbində yaşayacaq.

## Milli mövcudluğumuzun qarantı Dövlət müstəqilliyimizdir

Hər bir xalq üçün ən əziz bayramlardan biri onun müstəqil dövlətinin yarandığı gündür. Bizim xalqımız üçün də belə mötəbər tarix 28 Maydır – 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olmuş Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. 23 aydan sonra onun hakimiyyətinə son qoyulsa da, Azərbaycan xalqı üçün hər zaman əziz bir gün olaraq qalmış, sovet rejimi dövründə əsasən gizli, xaricdə isə aşkar şəkildə qeyd edilmişdir. 1991-ci ildə dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra xalqımız öz ölkəmizdə də bu əziz günü sevinc içində, iftixarla yenidən arzu olunan səviyyədə qeyd etməyə başlamışdır. 28 May indi dünyada böyük nüfuzu olan, gündən-günə tərəqqi edən Vətənimizin, dövlətimizin və xalqımızın rəsmi bayramıdır – Müstəqillik Günümüzdür.

Bu tarixi gün sadəcə müstəqil dövlətimizin elan edildiyi gün deyildir, xalqımızın tarixində çox mühüm bir mütərəqqi dövrün başlanğıcıdır. XIX əsrin sonlarında, XX əsrin əvvəllərində

Vətənimizdə gedən çox böyük mütərəqqi proseslərin yekunudur. Həmin dövrdə Şimali Azərbaycanda milli, siyasi şüur sürətlə oyanır, türkçülük, müasirlik axtarışı, islami dəyərlər ahəngdar şəkildə inkişaf edirdi. Azərbaycan türkləri arasından H.B.Zərdabi, Mirzə Kazım bəy, M.Ə.Rəsulzadə, F.Xoyski, Ə.Topçubaşov, N.Yusifbəyli, X.Sultanov, C.Hacınski, X.Rəfili, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Hadi, H.Cavid, Ü.Hacıbəyli və başqaları kimi siyasətçilər, maarifpərvər ziyalılar, dəyərli qələm sahibləri yetişmişdi. Azərbaycan xalqına dayaq olan belə dəyərli insanların hesabına o zaman Vətənimizi həris düşmən caynaqlarından qoruya və öz müstəqil dövlətimizi yarada bildik.

Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu xeyli inkişaf etdirdi. İnsanlarda özünə inam, mübarizlik hissləri yarandı. M.Ə.Rəsulzadənin sözləri ilə desək, xalqımız bir daha enməyəcək bayrağını yüksəltdi, azadlığın dadını bildi. Bu qısa dövr ərzində Azərbaycanın ilk demokratik parlamenti, hökuməti, dövlət aparatı yarandı, konkret sərhədləri müəyyənləşdi, ordusu təşkil olundu, dövlət atributları – bayrağı, gerbi, himni təsdiq edildi. Əhalinin maariflənməsi, mədəniyyətinin inkişaf etməsi, sosial problemlərinin həlli üçün mühüm işlər görüldü. İlk Universitet təsis olundu, təhsil milliləşdi. Ölkədə ən müasir tələblərə uyğun, insanların bərabərliyi prinsipləri əsasında, bütün ölkə vətəndaşlarına eyni hüquqlar verən, dini, irqi, milli, sinfi bərabərsizliyi ortadan götürən, bir sıra məsələlərdə Avropa ölkələrindən də qabağa gedən xalq hakimiyyəti formalaşdı.

Çox təəssüf ki, 1920-ci ilin 28 aprelində o vaxtkı müstəqil dövlətimizin fəaliyyəti bolşeviklər tərəfindən dayandırıldı. Amma həmin dövlətin yaratdığı əhval-ruhiyyə, müstəqillik arzusu xalqımızın qəlbində daima yaşadı. Sovet rejimi dəfələrlə milli

ruhumuzu qırmağa çalışsa da buna nail ola bilmədi. Məhz buna görə də ötən əsrin sonlarına yaxın Qarabağı itirmək təhlükəsi ölkəmizin bütün əhalisinin ayağa qalxmasına, sıx birləşməsinə səbəb oldu. Xalqımızın iradəsi 1991-ci ildə dövlət müstəqilliyimizin yenidən bərpa olunmasına kömək etdi.

Müstəqillik qazansaq da, ilk illər mövcud olan bir çox problemlər yenə də təhlükələr yaratmağa başladı. Azərbaycanda marağı olan xarici qüvvələr öz niyyətlərini həyata keçirmək üçün məkrli planlar qurmağa və bu zaman yerli əhalidən də istifadə etməyə çalışırdı. Məhz 1993-cü ilin iyun ayında müdrik, müasir dünya siyasətində ən tanınmış insanlardan biri olan Ümummilli Liderimiz, dahi Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması ilə Vətənimizin başı üstündə dolanan qara buludlar yox oldu. Əvvəllər Azərbaycanın rəhbər işçilərindən, jurnalistlərindən, alimlərindən, din xadimlərindən, müxtəlif sahənin nümayəndələrindən istifadə etməyə çalışan kənar qüvvələr artıq başa düşdülər ki, onların qarşısında olduqca ağıllı, təcrübəli bir siyasətçi və onun rəhbərlik etdiyi bir ölkə dayanmışdır. Ona görə də öz qara niyyətlərinin puç olduğunu başa düşdülər. Məhz buna görə də Ulu Öndərin hakimiyyətə gəlməsi ölkəmizin, xalqımızın Qurtuluş Günü kimi qeyd edilir. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə müstəqilliyimizi bir daha itirmək təhlükəsi tamamilə sovuşdu. Ulu Öndər dərhal dövlətçiliyimizin qorunması, ölkənin ictimai-siyasi həyatında mövcud olan gərginliyin ortadan götürülməsi üçün qətiyyətli tədbirlər gördü. Ölkənin iqtisadi, hərbi gücünün artırılması, intensiv, əlverişli xarici əlaqələrin qurulması üçün mühüm addımlar atıldı.

Ulu Öndərin hakimiyyətə gəldiyi vaxtdan etibarən Azərbaycanın dövlət müstəqilliyi günü-gündən möhkəmlənməyə, inkişaf etməyə, yeni uğurlar, nailiyyətlər qazanmağa başladı. Onun ha-

kimiyyətə gəlməsi ilə vətəndaş müharibəsinin qarşısı alındı, Vətənimiz bir daha parçalanmaq təhlükəsindən qurtardı. 1994-cü ildə dünyanın bir sıra qabaqcıl neft şirkətləri ilə bağlanmış, böyük iqtisadi, siyasi, diplomatik əhəmiyyəti olan, geosiyasi vəziyyətə təsir edən "Əsrin müqaviləsi" müstəqilliyimizin möhkəmlənməsində mühüm rol oynadı. 1996-cı ildən başlayaraq Azərbaycan iqtisadiyyatında sabit, sürətli inkişaf mərhələsi başlandı. Azərbaycan müstəqil bir dövlət kimi qəbul etdiyi öz Konstitsiyası əsasında hüquqi, demokratik, müasir tipli bir dövlət quraraq, get-gedə dünyanın ən qabaqcıl ölkələri sırasına daxil oldu.

2003-cü ildən ölkəmizə rəhbərlik edən, artıq öz müdrikliyi, cəsarəti, diplomatik bacarığı, iradəsi ilə beynəlxalq aləmdə böyük nüfuza malik olan, Ulu Öndərimizin siyasətini, müəyyən etdiyi strategiyaları uğurla davam etdirən İlham Əliyev müstəqilliyimizin möhkəmlənməsi üçün olduqca əhəmiyyətli, konstruktiv fəaliyyət göstərir. Ölkəmizdə başdan-başa böyük quruculuq işləri gedir. Geniş islahatlar aparılır. Vətənimizin hər tərəfində – şəhər, qəsəbələrdən tutmuş, ən ucqar kəndlərə qədər xeyli mühüm, ciddi, müsbət dəyişikliklər baş verməkdədir. Ölkənin problemləri sürətlə həll olunur, neqativ hallar ortadan götürülür. Dünyanın qabaqcıl universitetlərində təhsil alan gənclərimiz də cəlb olunmaqla ölkədə güclü kadr potensialı formalaşır.

Dövlət müstəqilliyimizi bərpa etdiyimiz vaxtdan ölkəmizin, xalqımızın ən böyük problemi Qarabağ problemi, Ermənistan – Azərbaycan münqaişəsi idi. Sevimli Prezidentimizin yürütdüyü, inkişaf etdirdiyi siyasət, həyata keçirdiyi tətbirlər, nəhayət ki, 2020-ci ildə, noyabr ayında öz bəhrəsini verdi. Həmin il sentyabrın 27-də başlanan Vətən müharibəsində biz azğın düşmənə layiq olduğu cəzanı verdik. Müdrik liderlik, təşkilatçılıq, "dəmir yumruq", möhkəm iradə, cəsarət, ağıllı diplomatiya öz bəhrəsini verdi.

Düşmən ordusunu darmadağın etdik və onun diz çökərək torpaqlarımızın böyük bir hissəsindən rədd olub getməsinə nail olduq. Öz havadarları hesabına hələ də problemlər yaradan düşmənə müstəqil dövlətimizin qüdrəti ilə tam qələbə çalmağımıza indi artıq heç kim şübhə etmir.

Müstəqilliyimizin ən böyük uğurlarından biri qardaş, Azərbaycana rəğbəti olan dost dövlətlərlə, xüsusi ilə türk dünyası ilə sıx qarşılıqlı əlaqələr qurmağımızdır. Bu əlaqələr bizə öz tariximizi daha yaxşı, doğru-dürüst öyrənməyə, indiki şəraitdə bir-birimizə hərtərəfli dəstək göstərməyimizə imkan verir. 44 günlük tarixi, şanlı müharibədə biz bunun bəhrəsini daha aydın gördük. Bu Vətən müharibəsində Türkiyə, Pakistan, İsrail, İngiltərə və digər dövlətlərin öz qardaş, dost köməyi məhz müstəqill dövlətimizin yaratdığı imkanlar hesabına mümkün oldu. XX əsrdə torpaqlarımız dəfələrlə əlimizdən alınanda, xalqımız öz dədə-baba yurdundan dəfələrlə deportasiya olunanda müstəqil dövlət deyildik. Ona görə də qəvi düşmən öz istədiyini edirdi. Artıq uzun illərdir ki, “bir millət, iki dövlət” prinsipi ilə yanaşdığımız Türkiyə ilə xeyirdə-şərdə bir-birimizin yanındayıq.

Müstəqilliyimiz, eyni zamanda, elmimizin də inkişaf istiqamətlərini müəyyənləşdirməkdə, öz tariximizi etibarlı mənbələrdən daha düzgün öyrənməyə, mədəniyyət sistemimizi arzu edilən şəkildə formalaşdırmağa, ölkəmizin tərəqqisi üçün vacib olan elm sahələrini uğurla inkişaf etdirməyə böyük imkanlar yaratmışdır. Dövlətimiz inkişaf etdikcə, bu imkanlardan daha səmərəli istifadə edirik. Azərbaycan Milli Elmlər Akademyası indi get-gedə ölkəmizin tərəqqisi üçün elmi bazanın yaradılması sahəsində aparıcı rol oynamağa çalışır. Son dövrlər bununla bağlı mühüm işlər görülməkdə, ciddi elmi təminatlı konsepsiyalar hazırlamaqdadır. AMEA-nın arzu etdiyimiz şəkildə, müstəqil döv-

lətimizin möhkəmlənməsi sahəsində daha əhatəli işlər görə bilməsi üçün Azad Həmkarlar İttifaqının da qarşısında olduqca mühüm vəzifələr dayanır. Kollektivimiz bu vəzifələrin uğurla yerinə yetirilməsi üçün əlindən gələni edir.

## 28 May Azərbaycan tarixinin şanlı səhifəsidir

Azərbaycan xalqının tarixi olduqca qədimdir. Hətta minilliklərin o üzündə belə indi yaşadığımız torpaqlarda ulu babalarımızın yaşamasını təsdiq edən xeyli tarixi faktlar, sübutlar var. Son minillikdəki tariximizə aid xeyli yazılı mənbələrimiz də var. Bu dövr ərzində bizim Xaqani, Nizami, Sührəverdi, Nəsimi, Füzuli, Tusi və başqaları kimi dünya elminin, ədəbiyyatının zirvələri olan şəxsiyyətlərimiz yetişmişdir. Belə böyük dühalar xalqımızın potensialından, dünya xalqları arasındakı yerindən, mənəvi zənginliyindən xəbər verir.

Təbii ki, tarixi köklərimiz bütün türk dünyası ilə bağlıdır. Amma Azərbaycanın ayrıca bir dövlət kimi formalaşmasında, inkişaf etməsində Şah İsmayıl, Nadir şah dövrünün ayrıca, fövqəladə bir rolu var. Bu dövrlər ərzində xalq öz dövlətçilik qüdrətini də ortaya qoydu. Bizim bir çox xalqların həsəd apara biləcəyi, örnək ala biləcəyi tariximiz var. Amma təəsüf ki, XIX əsrdə Azərbaycanın tarixi ciddi təzyiqlərə məruz qaldı və biz XX əsrin əvvəllərində arzu olunmaz bir vəziyyətə düşmüşdük. Artıq Azərbaycan xalqı bir necə yerə parçalanmışdı. Öz torpaqlarımızda bizə qənim kimi bir erməni bəlası yetişdirlib inkişaf etdirilirdi. Xalq başdan başa bir cəhalət içində idi. Mərkəzi, mühüm şəhərlərimizdən biri olan Bakı şəhəri tamamilə başqa millətlərin xeyli çoxluq təşkil etdiyi bir məskənə çevrilmişdi. Bakı nefti, təkrarsız gözəl təbiətimiz, münbit torpaqlarımız bir çox xarici dövlətləri Bakı uğrunda mübarizəyə cəlb etmişdi. Azərbaycanı əldə etmək,

bölüşdürmək üçün müxtəlif planlar qurulurdu. Rusiyada gedən siyasi proseslər, Rusiya dövlətinin zəifləməsi ilə yaranan xaotik vəziyyət Azərbaycan uğrunda mübarizə aparanları daha da şirnikləndirirdi. Azərbaycanın başının üstünü çox qorxulu qara buludlar almışdı. Amma çox yaxşı ki, Azərbaycanda o zaman sayca az olsa da, xeyli qeyrətli, qüdrətli, müasir dövrün gedişatını dərindən təhlil edə bilən, siyasi proseslərdə düzgün mövqe tuta bilən insanlarımız da var idi. M.F.Axundov, H.B.Zərdabi ənənələri işığında formalaşan bu yeni nəslin Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Sabir, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, H.Cavid, C.Cabbarlı kimi nümayəndələri ilə yanaşı, M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Ə.Topçubaşov və onlarla başqaları kimi xeyli siyasi hazırlıqlı, təfəkkürlü gəncləri də yetişmişdi.

Bu insanlarımızın yetişməsində həmin dövrün mühiti, Rusiyada, Avropada gedən proseslərlə yanaşı Azərbaycan xalqının öz mədəniyyətinin potensialı da böyük rol oynadı. Onların dini məktəblərdə, mədrəsələrdə aldıqları ciddi təhsil, yiyələndikləri həqiqi islami dəyərlərlə yanaşı, o dövrdə yayılan türkçülük, müasirlik dəyərləri, bu üç dəyərlər sisteminin ahəngdar olaraq birləşməsi həmin gənclərin vətənpərvərliyinin, milli iradələrinin, qabaqcıl dünyagörüşlərinin formalaşmasına kömək etdi. Belə bir nəslin yetişməsi, o zaman gedən proseslər XX əsrin əvvəlini tariximizin ən şanlı, qiymətli dövrlərindən biri kimi adlandırmağa əsas verir. Məhz həmin gənclərin hesabına o dövrdə xalqımız başsız, sahibsiz qalmadı. Məhz onların hesabına 1918-ci ilin, 28 may tarixində 114 min kvadrat km. ərazisi olan Azərbaycan Xalq Cumhuriyyəti quruldu. Bu ərazinin tərkibində indiki qondarma Qarabağ problemi yox idi.

Beləliklə, Zaqafqaziya seymi dağılandan sonra azərbaycanlılar, gürcülər və ermənilər öz müstəqilliyini elan etdilər. Amma o

dövrün siyasətini formalaşdıran güc mərkəzlərinin gürcülərə, ermənilərə olan münasibəti ilə azərbaycanlılara olan münasibəti eyni deyildi. Belə bir tarixi şəraitdə, öz müstəqilliyini elan edə bilmək, dərhal böyük quruculuq işlərinə başlamaq, beynəlxalq münasibətlər qurmaq böyük zəka və iradə tələb edirdi. Həmin insanların həyatı, fəaliyyəti barədə toplanan məlumatları öyrəndicə onların öz şəxsi həyatlarını xalq işinə qurban verdiklərinin şahidi oluruq.

Rusiyada 1917-ci ilin fevralında baş vermiş inqilab nəticəsində-Çar hakimiyyəti, İmperiya devriləndən sonra ölkədə böyük bir xaos yarandı. Həmin dövr olduqca həlledici bir dövr idi. İndiyə qədər İmperiyanın tərkibində, çarizimin məhdudiyyətləri içində yaşayan xalqların hamısı öz talelərini müəyyənləşdirmək üçün yollar axtarırdılar. Bu dövr həlledici bir dövr idi, səhv atılan hər bir addımın ağır nəticələri ola bilərdi. Ona görə də həmin dövrdə xalqımızın belə layiqli nümayəndələrinin olması Azərbaycanın gələcək taleyində çox mühüm rol oynadı. 28 mayda elan edilən Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk dünyəvi demokratik bir dövlət idi. Məmməd Əmin Rəsulzadənin ideoloqu olduğu, əsasını qoyduğu bu dövlət türk və islam dünyasında ilk parlament respublikası, ilk demokratik, hüquqi və dünyəvi bir dövlət idi. Ən mühümü isə o idi ki, bu dövləti idarə etmək üçün yüksək səviyyəli kadrlar var idi. Azərbaycanın müxtəlif bölgələrində doğulub boya-başa çatmış bu kadrlar hamısı gənc, savadlı, yüksək intellektli və ilk növbədə xalqını, millətini sevən, öz həyatlarını xalqın yolunda qurban verməyə hazır olan insanlar idi. Böyük liderlik keyfiyyəti olan Məmməd Əmin Rəsulzadə, öz intellekti, mənəvi zənginliyi, analitik təfəkkürü, iradəliliyi ilə seçilirdi. Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı olan Fətəli xan Xoyski Rusiya İmperiyası II Dövlət dumasının deputatı, Zaqafqaziya Komissarlığı nəzdində Xalq Maarif

Komissarı, Zaqafqaziya Demokratik Federativ Respublikasında Əadliyyə Naziri (1918) olmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Sədri (1918-1920) olmuş Əlimərdan bəy Topçubaşov təcrübəli diplomat, hüquqşünas idi. Çar Rusiyasında Birinci Dövlət Dumasının (1905), Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü olmuşdu. Hökumətin tərkibinə daxil olan Xosrov bəy Sultanov, Məmmədhəsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınski və və başqa məmurlar, parlament üzvləri o dövrün çox qabaqcıl ziyaıları idi.

Onlar qısa bir zamanda, milli ordu, milli pul, milli bank, universitet, bir çox demokratik təsisatlar yaratdılar. İqtisadiyyatın yüksəlişi üçün mühüm tədbirlər həyata keçirdilər. Ciddi beynəlxalq əlaqələr qurdular, Azərbaycanın bütün dünyada rəsmən tanınmasını təmin etdilər. Azad seçkilər keçirilməsinə nail oldular. İlk dəfə qadınların seçim hüququnu tanıyan və qadın–kişi bərabərliyini təmin edən qərarlar qəbul etdilər. Azərbaycanın üç rəngli bayrağını və gerbini, himnini qəbul etdilər.

Təəssüf ki, o zaman qazanılan müstəqilliyin ömrü cəmi 23 ay oldu. Amma bu qısa zaman da xalqın taleyində çox böyük rol oynadı. Şimali Azərbaycanda hüdudları məlum olan bir dövlət müəyyənləşdi. Əhalidə böyük ruh yüksəkliyi yarandı. İnsanlarda milli şüur inkişaf etdi. Bu doğma dövlət devrilsə belə, insanların şüurunda müstəqillik bir reallıq kimi formalaşdı. Əgər ərazisi 114 min kv. km. olan Azərbaycan Xalq Cümhuriyyəti olmasaydı, 1920-ci ildə bolşeviklər Azərbaycanı işğal edəndə onun başına nə oyunlar açacaqdılar, bunu təsəvvür etmək belə ürək ağrıdır.

1991-ci ildə SSRİ süqut etdiyi zaman artıq insanların şüurunda yaxın zamanlarda mövcud olmuş müstəqil bir dövlət obrazı

yaşayırdı. Bu obraz insanlara müstəqillik yolunda daha konkret inamlı addımlar atmağa kömək etdi. 1988-ci ildə Sovet rejimi tərəfindən edilən haqsızlıqlara qarşı xalqı meydanlara tökən, bununla da SSRİ-nin bünövrəsinin laxlamasında mühüm rol oynayan mübarizə aparmasında da həmin obraz mühüm rol oynadı.

Azərbaycanın Ulu Öndəri Heydər Əliyev 28 mayda elan olunmuş müstəqil dövlətimizə olduqca yüksək qiymət verirdi. Həmin dövlətin üç rəngli bayrağını ölkəmizdə ilk dəfə rəsmi olaraq Naxçıvanda qaldıran dahi liderimiz bununla da özünün Azərbaycan Xalq Cümhuriyyətinə olan rəğbətini də nümayiş etdirdi. Azərbaycanın prezidenti olduğu dövrdə də həmin müstəqil dövlətimizin qəbul etdiyi dövlət atributlarının – bayrağın, gerbin, himnin eyni ilə qalmasının tərəfdarı oldu. Hər il 28 may gününün müqəddəs bir gün kimi qeyd olunması rəsmi olaraq davam etdi. O dövrdə xalqımızın müstəqqiliyi uğrunda çalışmış bütün siyasi liderlərin hər biri indi də dərin hörmətlə xatırlanır, yad edilir. Onların adları fəxr ilə çəkilir, müxtəlif ünvanlara verilir.

Ölkəmizin prezidenti, xalqın böyük ehtiramını qazanmış cənab İlham Əliyev də Ulu Öndər Heydər Əliyevin həm də bu ənənələrini davam etdirir. O, 16 may 2017-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərancam imzaladı. Prezidentimizin 2018-ci il 10 yanvar tarixindəki digər sərəncamı ilə 2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edildi. Bu sərancamlara uyğun olaraq yerinə yetirilən möhtəşəm tədbirlər insanların milli şüurunun, vətənpərvərlik hisslərinin daha da yüksəlməsinə səbəb oldu.

## Azadlığın və müstəqilliyin şərəfli yolu

Azərbaycan dövləti və xalqı həmişə azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmışdır. Lakin XX əsrin əvvəllərində ermənilər tərəfindən onları dəstəkləyən regional və beynəlxalq güclərin dəstəyi ilə Azərbaycan xalqına qarşı irqi, dini ayrı-seçkilik siyasəti yürüdülmüş, torpaqlarımız işğal edilmiş, soydaşlarımız tarixi Azərbaycan torpaqlarından köçürülmüş, türk-müsəlman xalqlarına qarşı etnik təmizləmə aparılmış və soyqırımı həyata keçirilmişdir.

Ötən əsrin sonlarında başlayan milli ədavətin ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. 1988-ci ilin yanvarında Qafan və Mehridən ilk qaçqınlar Azərbaycana pənah gətirdilər. 1988-ci il fevralın 19-da İrəvanda "Ermənistan türklərdən təmizlənməli!", "Ermənistanda yalnız ermənilər yaşamalıdır" kimi mənfur şüarlarla mitinqlər keçirilirdi. Elə həmin gün Bakıda da bu təxribatlara etiraz olaraq kütləvi mitinq təşkil olundu. 1988-1989-cu illərdə Ermənistan ərazisində azərbaycanlılara qarşı son etnik təmizləmə həyata keçirildi. Beləliklə, Ermənistandakı 185 Azərbaycan kəndindən 230 min azərbaycanlı zorla qovuldu.

Deportasiya zamanı 255 nəfər öldürüldü, 1200 adam yaralandı, 31 min ev, 165 kolxoz və sovxozun əmlakı talan edildi. Bu olaylara Moskva göz yumur, M.Qorbaçov məkrli bəyanatlar verir, Azərbaycanın o zamankı rəhbərləri isə səriştəsiz mövqe nümayiş etdirirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcədə zəiflədi.

1990-cı ilin yanvarın ortalarında SSRİ Müdafiə və Daxili İşlər Nazirliklərinin və digər xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək,

şəhərin Qala və Nasosnu (indiki Z.Tağıyev qəsəbəsi) aerodromlarında, Respublika stadionunda, Salyan kazarmasında yerləşdirilmişdi. Azərbaycana göndərilən SSRİ ordu hissələrinin tərkibinə Stavropol, Rostov və Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi. 15 yanvar 1990-cı ildə M.Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamış, həmin fərmanın 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla, hər cür lazımi tədbirlər görmək təklif edilmişdi.

1990-cı il yanvarın 18-də paytaxt Bakıda və Azərbaycanın digər on bir rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan olundu. Bu tətillərdə tələb edilirdi ki, Ermənistan öz ərazi iddialarına son qoysun və Bakı ətrafında cəmləşən qoşunlar Dağlıq Qarabağa, Ermənistanla sərhədyanı rayonlara göndərilsin. Hakimiyyət orqanlarına xəbərdarlıq edilirdi ki, qadağan saatının qoyulması ağır nəticələr verə bilər.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti yuxarıda qeyd olunan fərmanın ziddinə olaraq 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən, yanvarın 19-dan 20-nə keçən gecədən etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərmanı imzalamaqla keçmiş SSRİ-nin rəhbəri M.Qorbaçov İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdu.

Yanvarın 19-da SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-nın rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində televiziyanın enerji bloku partladılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə

rəsmi məlumat çatdırılmasın. Həmin gecə Bakıda 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən, Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Yanvar hadisələri zamanı Bakıya yeridilən hərbi qruplaşmanın tərkibinə 76, 104, 106-cı qvardiya hava-desant diviziyalarının üç polku, 295-ci motoatıcı diviziya, xüsusi təyinatlı 22-ci briqada, Qara dəniz donanması dəniz piyadalarının 882-ci batalyonu, DTK-nın 7-ci idarəsinin xüsusi təyinatlı "Alfa" qrupu və digər hərbi hissələr daxil idi.

Fövqəladə vəziyyətin yanvarın 19-dan 20-nə keçən gecə tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də Respublika radiosu ilə çatdırıldı. Halbuki SSRİ rəhbəri Mixail Qorbaçovun 15 müttəfiq respublikadan biri olan Azərbaycana ezam etdiyi yüksəkvəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq.

Qanlı Yanvar faciəsində sovet qoşunlarının respublikamıza qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, onlardan 112 nəfəri SSRİ-nin müxtəlif şəhərlərinə aparılaraq həbsxanalarda saxlanılmışdı. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları dağıdılmış, alovlandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Dövlət, ictimai və şəxsi əmlaka həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vurulmuşdu.

20 Yanvar faciəsindən sonrakı günlərdə dəfn mərasimi və daha sonra 23 yanvarda Azadlıq meydanında böyük mitinq ol-

muşdu. Mitinqdə Salyan kazarmasında sovet ordusuna qarşı vuruşanların sayı barədə məlumat verilmişdi: 274 azərbaycanlı, 64 gürcü, 52 çeçen, 27 ləzgi, 30 özbək, 5 rus.

Qara Yanvar faciəsinin indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb.

20 Yanvar faciəsinə ilk etirazı Heydər Əliyev bildirmişdi. Belə ağır, çətin günlərdə dünyanın susduğu bir zamanda bu sükutu da ilk pozan Ulu Öndər Heydər Əliyevin haqq, ədalət tələb edən möhtəşəm və cəsarətli səsi olmuşdu. Heydər Əliyev hadisənin səhəri günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəlmişdi. Qeyd edək ki, həmin ərəfədə cənab İlham Əliyev də onunla birlikdə mətbuat konfransında iştirak etmişdi. Ulu Öndər bu mətbuat konfransında həm Azərbaycan xalqına başsağlığı vermiş, həm də bütün dünyaya bu faciə haqqında bəyanat vermişdi.

"The Guardian" qəzeti 22 yanvar 1990-cı ildə yazırdı: "Yanvarın 20-də və 21-də təşkil edilən yürüşlər, 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqdan-açığa meydan oxumaqdır. Şəhidlər xiyabanında keçirilən dəfn mərasimi "Moskva" mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş xüsusi nəzarətçilər və snayperlər tərəfindən diqqətlə izlənilirdi. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasiminin keçirilməsinə nail oldular".

Bu dəhşətli hərbi əməliyyatı 70 illik imperiya əsarətindən qurtulmaq üçün ayağa qalxmış Azərbaycan xalqının coşqun mübarizə əzminin imperiyanın qəlbində yaratdığı qorxu xofunun nəticəsi kimi də izah etmək olar. Ordunun şəhərə hücumu zamanı günahsız insanların vəhşicəsinə güllələnməsi, tankların adamları

öz tırtılları altında əzib keçməsi, qışın soyuq, şaxtalı gecəsində tonqallar ətrafında qızınan dinc azərbaycanlıların üzərinə hücuma keçərək cəsədlərini tanınmaz hala salması bütün dünya ictimaiyyəti tərəfindən daim nifrət və qəzəblə qarşılanıb pislənməlidir.

## Heydər Əliyevin hüquqi islahatlar kursu müasir dövrün tələblərinə uyğun olaraq davam etdirilir

Azərbaycan xalqı hər il olduğu kimi, bu il də may ayının 10-da Ulu Öndər Heydər Əliyevin doğum gününü dərin hörmət və ehtiramla qeyd edir. Lakin məhz bu il, Ümummilli Liderimizin anadan olmasının 99-ci ildönümü günü tarixin yaddaşında məxsusi bir gün olaraq qalacaq. Çünki bu il Azərbaycan ilk dəfə olaraq öz xilaskar övladının doğum gününü artıq özünün ərazi bütövlüyünü bərpa etmiş vəziyyətdə qeyd edir. Ötən il Ölkə Preidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı Ulu Öndərin müqəddəs vəsiyyətinə əməl etdi və öz torpaqlarını işğaldan azad edərək, Heydər Əliyev ideyalarının təntənəsini bütün dünyaya nümayiş etdirdi.

Birmənalı olaraq demək lazımdır ki, Azərbaycan xalqı ötən əsrin 90-cı illərinin əvvəlində Ulu Öndərin qətiyyəti və dərin zəkası ilə siyasi böhrandan necə xilas olmuşdusa, bu gün də məhz ümummilli liderimizin siyası kursunu və inkişaf strategiyasını inamla davam etdirən möhtərəm Ölkə Prezidenti cənab İlham Əliyevin gərgin səyləri və yenilməz iradəsi sayəsində 30 illik erməni işğalına son qoydu. Bu tarixi hadisə bir daha göstərdi ki, Heydər Əliyevin dövlətçilik məktəbi hər zaman olduğu kimi bu gün də aktuallığını qoruyub saxlayır və ölkəmizin daha da qüdrətlənməsi işinə öz misilsiz töhfələrini verməkdə davam edir.

Müstəqil milli dövlətçiliyimizin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, siyasi irsi Azər-

baycanın ən yeni tarixinin ən mühüm və şərəfli səhifələrini təşkil edir. Çünki, xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik, hüquqi əsaslar üzərində bərqərar olunmasına Ulu Öndər Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur. Dünya təcrübəsi göstərir ki, dövlətin davamlı inkişafı üçün möhkəm hüquqi bazanın yaradılması, ədliyyə və məhkəmə-hüquq sisteminin formalaşdırılması vacib şərtdir. Məhz bu səbəbdən də hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə artıq müstəqil dövlətimizin möhkəm bünövrəsini qoyan Ulu Öndər respublikanın ədliyyə sistemində də mühüm islahatlar həyata keçirmişdir. Qeyd edək ki, ölkəmizdə Ədliyyə Nazirliyi Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün formalaşdırılıb, noyabr ayının 22-də isə nazirliyin əsasnaməsi təsdiq edilib. Lakin sovetlər dövründə qurum repressiyalara məruz qalıb, nazirlik dəfələrlə ləğv edilərək yenidən yaradılıb, ədliyyə sisteminin inkişafına ciddi əngəllər törədilib. Ölkəmizdə Ədliyyə Nazirliyinin yenidən dövlət strukturu kimi təşəkkül tapması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sovetlər birliyində Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ilə ədliyyə sistemində ilk növbədə milli kadr hazırlığına xüsusi diqqət yetirilib, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər görülüb. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilib, 1972-ci ildə Nazirliyin əsasnaməsi təsdiq edilib, ədliyyə sisteminin fəaliyyətini tənzimləyən mühüm normativ sənədlər qəbul olunub, bu sahənin gələcək inkişafı üçün hərtərəfli zəmin yaranıb. Belə bir qərarın qəbul edilməsi təkcə həmin dövr üçün deyil, eyni zamanda da gələcək müstəqil Azərbaycanda hüquqi bazanın formalaşdırılması baxımından böyük əhəmiyyət kəsb edirdi. Təsadüfi deyildir ki, nazirliyin yenidən təsis olunması ilə bağlı imzalanmış həmin qərarın surəti Ədliyyə

tarixi muzeyində qiymətli eksponat kimi saxlanılır.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövr Azərbaycan ədliyyəsinin inkişafında əsaslı dönüş mərhələsi kimi xarakterizə olunur. Ulu Öndərin gərgin səyləri nəticəsində ölkədə qısa bir müddət ərzində dayanıqlı ictimai-siyasi sabitlik bərqərar olunduqdan sonra Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu, demokratik dəyərlərə uyğun hazırlanmış yeni Konstitusiya 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Məhz bu Konstitusiya əsasında Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməli qoyulmuş, hüquq islahatlarının aparılmasına başlanılmışdır. Ulu Öndər həmin dövrdə yeni yaradılmış Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək qısa müddət ərzində hüquq sisteminin əsasını təşkil edən mühüm qanun və məcəllələrin qəbul edilməsinə nail olmuşdur.

1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının inkişafına daim qayğılı münasibət göstərilmiş, Ədliyyə Nazirliyinin fəaliyyət dairəsi genişlənmiş, cəmiyyətdəki rolu və əhəmiyyəti artmış, ədliyyə fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparılmış, yeni qurumlar yaradılmış, onların işinin təşkili üzrə zəruri tədbirlər görülmüşdür. Ölkəmizdə insan hüquqları və xalqın mənafeyinə hər zaman ümdə vəzifə kimi yanaşılıb. Ulu Öndər Heydər Əliyevin imzaladığı 1998-ci il 22 fevral tarixli "İnsan hüquq və azadlıqlarının müdafiəsinə dair" Fərmanı və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunması barədə 1998-ci il 18 iyun tarixli Sərəncamı mühüm qanunvericilik və institusional islahatlara təkan vermiş, ölkəmizdə insan hüquqlarının təmi-

ni sahəsində effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasını şərtləndirdi. Nəticədə 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmişdir. Ombudsman aparatı fəaliyyətə başladıqdan sonra Ədliyyə Nazirliyi tərəfindən həmin qurumla əlaqələr qurularaq səmərəli əməkdaşlıq yaradılmış, bu sahədə çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Ədliyyə sisteminin inkişafına Ulu Öndər Heydər Əliyev daim xüsusi diqqət və qayğı göstərib. Azərbaycan ədliyyəsinin yaranma gününün peşə bayramı kimi təsis edilməsi də bu qayğı və diqqətin daha bir təzahürüdür. Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədilə Ümummilli Lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün – 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunub.

Ulu Öndərin hüquqi islahatlar kursunu müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf və davam etdirilməsi bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçımızın son dövrlərdə imzaladığı məqsədyönlü fərman və sərəncamlar, qəbul etdiyi praqmatik qərarlar, həyata keçirdiyi əsaslı islahatlar sayəsində hazırda ölkəmizdə dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların müasirləşdirilməsi və təkmilləşdirilməsi işi davamlı prosesə çevrilib. Təsadüfi deyil ki, bu gün Azərbaycan bir çox göstəricilər üzrə təkcə MDB məkanında deyil, eləcə də bütün dünyada nümunə göstərilir. Heç bir şübhə yoxdur ki, Azərbaycanın bütün bugünkü uğur və nailiyyətlərinin əsasında Ulu Öndər Heydər Əliyevin effektiv dövlətçilik strategiyası və uzaqgörən siyasi kursu durur.

# IV FƏSİL
# AZƏRBAYCAN ELMİ: TARİX VƏ MÜASİRLİK

## Azərbaycan elminin bayraqdarı: yenilənən və inkişaf edən Azərbaycan Milli Elmlər Akademiyası – 75

Çoxəsrlik dövlətçilik ənənəsinə sahib olan Azərbaycan xalqı bugün malik olduğu müstəqil və demokratik Azərbaycan Respublikası ilə tarixinin ən güclü dönəmini yaşamaqdadır. Cənab prezident İlham Əliyevin yürütdüyü müdrik, peşəkar və uzaqgörən siyasəti nəticəsində Azərbaycan regional lider dövlətdən dünyəvi güc mərkəzindən birinə çevrilmişdir. Öz fəaliyyətində milli və dövlətçilik maraqlarmı hər zaman və hər şeydən üstün tutan cənab Prezidentin rəhbərliyi ilə Respublikanm bütün sferalarmda dinamik, dayanıqlı və nümunəvi inkişaf yaşanmaqdadır. Bugün Respublikamızda elə bir sahə yoxdur ki, cənab İlham Əliyev onun inkişafma, daha da güclənməsinə şəxsən nəzarət etməsin, diqqət və qayğısını əsirgəməsin. Lakin bu da bir həqiqətdir ki, cənab Prezidentin məxsusi diqqət göstərdiyi, şəxsi nəzaərtdə saxladığı sahələrdən birini də ölkəmizin elmi potensialı, onun inkişafı təşkil edir. Belə ki, ölkə elminin malik olduğu potensial qoruyub saxlamaq, onu inkişaf etdirmək, dünya elminə daha sürətli inteqrasiyasmı təmin etmək istiqamətində qəti və məhsuldar addımlar atılır. Bircə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycan az sayda dövlətin sahib olduğu kosmik təsisata malikdir və bu iş hər il daha da güclənir, olkənin ümumi inkişafına öz töhfəsini verir. Cənab Prezident elmi ictimaiyyət nümayəndələri ilə görüşlərində dəfələrlə vurğulamışdır ki, müasir dövrdə hər bir dövlətin gələcəyi, iqtisadi, siyasi və hərbi qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır. Bu səbəbdən elmi inkişaf ölkə rəhbərinin fəaliyyətinin siyasi kursunun əsas prioritet-

lərindən birini təşkil edir.

Cənab İlham Əliyevin elmimizə olan diqqət və qayğısından ən çox öz nəsibini alan qurumlardan biri də Azərbaycan Milli Elmlər Akademiyasıdır. Öz gərgin və məhsuldar ictimai-siyasi fəaliyyətində cənab Prezident hər zaman AMEA-ya xüsusi münasibət göstərmişdir. Cənab İlham Əliyevin Azərbaycanda "Elm Günü"nü məhz AMEA-mn yarandığı gündə – 27 martda qeyd edilməsi ilə bağlı 2016-cı ildə imzaladığı sərəncamı cənab prezidentin bu elm məbədgahına olan münasibətinin, inam və ümidinin bariz nümunəsidir. O, mütəmadi olaraq Akademiya əməkdaşlarının sosial rifahını, iş şəraitlərini daha da yaxşılaşdırmaq, elmi müəssisələrin maddi-texniki bazasının dünya standartlarının tələblərinə cavab verməlləri istiqamətində sərəncamlar imzalayır, göstəriş və tapşırıqlar verir. Cənab Prezidentin AMEA-nın illik hesabat iclaslarmda şəxsən iştirak etməsi, burada səsləndirilən fikirlərə akademik səviyyədə münasibət bildirməsi, akademiyanın fəaliyyət və inkişaf perspektivləri istiqamətində tələb və təkliflər irəli sürməsi isə dünya praktikasında çox az rastlanan nadir bir hadisədir.

Son dövrlər cənab Prezidentin AMEA ilə bağlı həyata keçirdiyi fəaliyyətlərindən biri də Akademiya nəzdində Yüksək Texnologiyalar Parkmın yaradılması oldu. Bu Parkın təsis edilməsi Azərbaycan elminin innovativ inkişaf imkanlarının daha da genişləndirilməsi, dünya elminə inteqrasiya istiqamətində böyük əhəmiyyət kəsb edir. Bu səbəbdəndir ki, Parka dövlət tərəfmdən mütəmadi dəstək verilir, vergi güzəştləri edilir. Bugün burada tətbiqi tədqiqatlar üçün münbit şərait yaradılmışdır. Yüksək Texnologiyalar Parkı Akademiya üçün əsas prioritet istiqamətlərdən birini təşkil edir.

Cənab İlham Əliyevin elmə, ümumən Akademiyaya olan

diqqət və qayğısı hər zaman bu qurumım əməkdaşları, çoxminlik elmi ictimaiyyət tərəfmdən yüksək qiymətləndirilib. Akademiya rəhbərliyi və əməkdaşları ölkə rəhbərinin etimadını, dövlət qarşısında öhdəliklərini doğrultmağa çalışır. Son aylar bu elm məbədində iri miqyaslı yenilənmə işləri və islahatlar həyata keçirilir. Son bir-neçə ayda Akademiyanm fəaliyyətinin dövrün tələblərinə cavab verməsi, fəaliyyət imkanlarınm daha da genişləndirilməsi istiqamətində davamlı olaraq ciddi kadr-struktur islahatları həyata keçirilir. Eyni zamanda, cənab Prezidentin göstərişi əsasında "AMEA-mn 2020-2025 ci illər üçün inkişaf proqramı" işlənərək hazırlanmışdır. Bu proqram prioritetlərinin müəyyən edilməsi, struktur islahatlarm äparılması və idarəetmənin təkmilləşdirilməsi, elmi infrastrukturun modernləşdirilməsi, elmin nailiyyətlərinin təkmilləşdirilməsi və s. kimi önəmli məsələləri əhatə edir. Elm, təhsil və iqtisadiyyatın inteqrasiyasının gücləndirilməsi, innovasiya fəaliyyətinin genişləndirilməsi və elmi nəticələrin tətbiqi, azərbaycançlıq ideologiyasının əsaslarının işlənib hazırlanmasmda elmin dəstəyinin təmin edilməsi də proqramda yer alan mühüm müddəalardır. Çox vacib işlərdən biri də, Akademiyanm fəaliyyətini tənzimləyən əsas normativ-hüquqi sənəd olan AMEA-nın Nizamnaməsində dəyişikliklərin edilib qəbul olunmasıdır. Belə ki, müstəqillik illərində AMEA-nın ilk Nizamnaməsi 2003-cü ildə xalqımızm Ümummilli Lideri Heydər Əliyev tərəfindən təsdiq edilmiş, daha sonra 2014-cü ildə yenidən işlənərək qəbul olunmuşdur. Lakin, 2016-cı ildə "Elm haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar, eləcə də Akademiyanın fəaliyyətinin təkmilləşdirilməsindən irəli gələrək Nizamnaməyə bir sıra dəyişikliklərin edilməsi zərurəti yaranmışdı. Qəbul edilən dəyişikliklər əsas etibarilə AMEA-nın strukturunun optimallaşdırılması və idarəet-

mənin təkmilləşdirilməsi məslələrini geniş şəkildə əhatə edir. Burada Akademiyanın daha çevik və effektiv idarə edilməsi üçün yeni mexanizmlər, müasir tələblərə cavab verən hüquqi meyar və prinsiplər yer alır. Qısa müddətdə AMEA-da həyata keçirilən uğurlu layihələrdən biri də müasir dövr üçün əhəmiyyətli olan, cənab İlham Əliyevin "Azərbaycan Respublikasında elmi və elmi-pedoqoji kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən hazırlanan "Elmi kadrlar" Milli İnformasiya Sistemini qeyd etmək olar. Bu Sistem vasitəsi ilə Akademiyada elmi fəaliyyətin mövcud potensiala uyğun monitorinqi və proqnozlaşdırılması, analitik və statistik təhlillərin aparılması, elektron hesabat formalarının hazırlanması, elmi informasiyanın əlçatanlığının təmin edilməsi və s. kimi məsələlər daha çevik və optimal surətdə həyata keçiriləcəkdir.

AMEA qarşısında qoyulan ümdə vəzifələrdən biri də mötəbər beynəlxalq elmi qurumlarla qarşılıqlı əlaqələrin qurulmasıdır. Bu isə öz növbəsində Akademiyanın beynəlxalq arenada mövqelərinin güclənməsinə, dünya elminə inteqrasiyanın daha effektli və sürətli keçidinə səbəb olacaqdır. Buna uyğun olaraq AMEA rəhbərliyi Fransanın Strasburq Universitetinin rəhbərliyi ilə Bakıda görüş keçirmiş, qarşılıqlı əməkdaşlığa dair sazişin imzalanmasına razılıq əldə edilmişdir. Eyni zamanda Bakıya gəlmiş Birləşmiş Nüvə Texnologiyaları İnstitutunun rəhbərliyi ilə müzakirələr aparılmış, hər iki qurumun arasmda qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Bugün Azərbaycan Milli Elmlər Akademiyası öz işində cənab İlham Əliyevin fərman və sərəncamlarını, dövlət proqramlarını əsas tutur. Bunun nəticəsidir ki, Akademiya ölkəmizin ümumi inkişafına, cənab İlham Əliyevin dövlətçilik siyasətinə öz töh-

fələrini verməkdədir. Belə ki, AMEA alimləri tərəfindən yerli xammal əsasmında kimyəvi tərkibə malik olmayan gübrə istehsalı, daha keyfiyyətli və səmərəli işıq lampaları, dronların elektron sxemi qurulur, Naftalan yağı alınır, nəqliyyatda istifadə olunan ekoloji təmiz məhsullar əldə edilir. Ölkənin bank-maliyyə bazarının tənzimlənməsi ilə bağlı bank sektoru nümayəndələri ilə birgə layihələr həyata keçirilir. Əhalinin sosial müdafiəsinin daha səmərəli təşkili üçün Əmək və Əhalinin Sosial Müdafıəsi Nazirliyi ilə birgə işlər icra olunur. Son dövrdə fundamental tədqiqatlar iqtisadiyyat sahəsində uğurla tətbiq olunur. Bütün bu uğurlara baxmayaraq, yüksək inkişaf və yeniləşmə dövrünü yaşayan Respublikanın ümumi işinə yeni töhfələr vermək, cənab Prezidentin etimadını, Akademiya rəhbərinin tələblərini doğrultmaq üçün AMEA-nın qarşısında tamamilə yeni vəzifələr qoyur. Bu vəzifələr eyni zamanda, dünya elminin inkişaf meyllərindən, eləcə də ölkənin strateji inkişaf istiqamətlərindən irəli gəlir. Cənab Prezident dəfələrlə vurğulamışdır ki, hal-hazırda qarşımızda duran ən vacib vəzifələrdən biri də qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Bu vəzifənin həllində isə bütün dövlət və özəl sektorun, müvafıq qurumlarm öz payı var. Bu baxımdan, qeyri-neft sektorunun inkişaf etdirilməsi elmi nəticələrin kommersiyalaşdırılması və innovasiya fəaliyyətinin gücləndirilməsini labüd edir. Akademiyanın idarə edilməsində, fəaliyyət mahiyyətində olan bu cür yanaşma nəinki AMEA, bütövlükdə Azərbaycan elmi üçün bir yenilikdir. Bu yeni metodun uğurlu tətbiqi isə bir sıra müsbət nəticələr vəd edir. Belə ki, Akademiyanın müvafiq elmi strukturlarının fundamental tətqiqatlarının özəl və ya dövbt strukturlarının iqtisadi layihələrində tətbiqi ilk öncə elmi inkişafın nəzəri aspektdən praktik səviyyəyə keçməsinə şərait yaradacaqdır. Digər tərəfdən kommersiya layihələrindən əldə olunan gəlir AMEA-nın maddi-texni-

ki bazasının daha da güclənməsinə, əməkdaşların maddi təminatlarının daha da yaxşılaşmasına səbəb olacaqdır. Bu isə öz növbəsində stimullaşdırıcı amil hesab olunur. Eyni zamanda, illərlə kabinetlərdə "tərki-dünya" halda tədqiqatlar aparan alimlər dövlətin və cəmiyətin sifarişləri, istək və tələbləri əsasında işlərini quracaq, fəaliyyəttarinin real faydalı iş əmsalı daha da yüksələcəkdir.

İlbəil daha da güclü olan, müasir dünyanın ən qabaqcıl tələblərinə cavab verən Respublikamızın elmimizin potensialından faydalanmaq imkanları çox genişdir. Ölkəmizdə gedən uğurlu inkişafa öz töhfəsini vermək isə hər bir elm adamının, xüsusən də AMEA əməkdaşının müqəddəs borcudur. Elmə olan dövlət qayğısı, ölkə rəhbərliyinin tələb və gözləntiləri elmi ictimaiyyətmiz qarşısında yeni üfüqlər açdığı kimi, həm də yeni məsuliyyətlər yaradır. Dünyanm ən müqəddəs peşələrindən olan alim adını şərəflə daşımaq isə bir başqa fəxarətdir. Əminik ki, hər yönü ilə irəliləyən və inkişaf edən AMEA-nın elmi ictimaiyyət Vətənin inkişafı yolunda qarşılarına qoyulan vətəndaşlıq və vəzifə borclarmın öhdəsindən əzmkarlıqla gələcək və daşıdıqları alim adının məsuliyyətini qürurla doğruldacaqlar!

## Ölkəmizin tərəqqisinin elmi təminatı dövlətimizin diqqət mərkəzindədir

XXI əsrin ikinci onilliyindən başlayaraq dövlətimiz ölkəmizdə elmin inkişafına xüsusi diqqət yetirir. Azərbaycan Milli Elmlər Akademyasında, universitetlərimizdə, digər qurumlarda elmin müxtəlif sahələrində mühüm nəticələr alınmaqda və müxtəlif sahələrdə uğurla tətbiq edilməkdədir. Ölkədə müasir elmin inkişafına böyük qayğı göstərən hörmətli prezidentimiz İlham Əliyev 2018-ci ilin aprel ayında hər il, 1945-ci ildə Azərbaycan Elmlər Akademyasının yarandığı 27 mart tarixinin Elm günü

kimi qeyd edilməsi haqda sərəncam imzalamışdır.

Həyatımızda elmin əhəmiyyəti ilbəil artır. Günü-gündən daha da mürəkkəbləşən cəmiyyətdə, ölkənin tərəqqisi üçün əhəmiyyətli olan hər bir sahədə elmin köməyindən istifadə etməyə daha böyük ehtiyac yaranır. Ona görə də dövlətimiz elmimizin müasir tələblər səviyyəsində inkişaf etməsinə xüsusi əhəmiyyət verir. Hələ orta əsrlərdə öz dahi alimləri ilə məşhur olan Azərbaycanda son yüz ildə də elm sürətlə inkişaf etmiş, ölkəmizin tərəqqisində mühüm rol oynamış, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır. Yusif Məmmədəliyev, Zahid Xəlilov, Həsən Abdullayev, Xudu Məmmədov, Murtuza Nağıyev, Azad Mirzəcənzadə, Rafiq Əliyev və onlarca digər alimlərimiz bütün dünyada tanınmış, dünya elminin inkişafında mühüm rol oynamışlar. Eyni zamanda ölkəmizdən kənarda yetişən Lütvi Zadə, Əli Cavan, Kərim Kərimov, Abbas Çayxorski, Fərman Salmanov, Cahangir Kərimov, Davud Paşayev, İqor Aşurbəyli və başqaları kimi digər məşhur alimlərimizin də fəaliyyətləri xalqımızın intellektual potensialının çox yüksək olduğunun göstəriciləridir. Sevindirici haldır ki, son onilliklərdə dünyanın bir çox elm mərkəzlərində, xalqımızın dünya şöhrətli, çoxsaylı yeni nəsl alimləri yetişmişdir. Onların ardınca yüzlərlə gənc alimlərimiz də yetişməkdədirlər.

Ulu Öndərimiz Heydər Əliyev ölkəmizdə elmin hərtərəfli olaraq inkişaf etməsinə hər zaman böyük diqqət vermişdir. Hələ sovet hakimiyyəti illərində məhz onun qayğısı, ciddi diqqəti nəticəsində ölkəmizdə elm sürətlə inkişaf etməyə başladı. Ən müasir elm sahələrinin, ölkəmiz üçün vacib olan elmi tədqiqatların Azərbaycanda uğurla aparılması ücün yeni elmi müəssələr yaradılır, minlərlə gəncimiz SSRİ – nin ən qabaqcıl universitetləridə təhsil almağa göndərilirdi. Dahi rəhbərimiz 1993-cü ildə ikinci

dəfə ölkəmizə rəhbərlik etməyə başlayanda da elmin inkişafını ən vacib məsələlərdən biri kimi diqqət mərkəzində saxlayırdı. O zamanlar Elmlər Akademiyamızın ləğv edilməsi ətrafında gedən söhbətlərə bir dəfəlik son qoyan müdrik rəhbərimiz ölkəmizin tərəqqisində bu qurumun daha da məhsuldar, milli maraqlarımıza uyğun şəkildə inkişaf etməsini istəyirdi. Məhz buna görə də onun 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademyasına Azərbaycan Milli Elmlər Akademyası adı verildi. Bu böyük şəxsiyyət AMEA ilə bağlı deyirdi: "Çoxəsirlik tariximizdə böyük elmimiz olubdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıb. Müstəqil Azərbaycanın Elmlər Akademyası bütün elmi potensialı özündə cəmləyərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir."

Möhtərəm prezidentimiz İlham Əliyev də Ulu Öndərin elm sahəsindəki siyasətini uğurla davam etdirir. Elmimizin inkişafı üçün vacib olan işlərin yerinə yetirilməsinə diqqət yetirir. Bunun nəticəsidir ki, 2016-cı ilin iyun ayında Azərbaycan respublikası Milli Məclisində "Elm haqqında" Qanun qəbul edildi. Prezidentimizin avqust ayındakı Fərmanı ilə bu qanun ölkədə geniş şəkildə tətbiq olunmağa başladı. İndi dövlətimiz istər AMEA-da, istərsə də başqa qurumlarda elm sahəsindəki vəziyyətə xüsusi diqqət yetirir.

Müstəqillik illərimizdə həm elmimizin müasir dövrün tələblərinə uyğun olan istiqamətdə inkişafı üçün elmi baza formalaşdırılır, həm inkişafımızın müxtəlif sahələrində elmin imkanlarından istifadə mexanizmləri qurulur, həm də potensialımızın daha çox açılması üçün imkanlar yaradılır. Ötən dövr ərzində AMEA-da da bir sıra islahatlar həyata keçirilmiş, struktur dəyişiklikləri edilmiş, yeni İnstitutlar yaradılmışdır. AMEA-nın ölkəmizin beynəlxalq aləmdə ciddi nüfuza malik olan Beyin Mər-

kəzinə çevrilməsi sahəsində fəaliyyəti Dövlətimiz tərəfindən bir vəzifə olaraq qarşıya qoyulmuşdur.

Bir çox mühüm uğurlarımızı qeyd etmək olar. Ölkə rəhbərliyinin İKT sahəsinin inkişafı ilə bağlı uzaqgörən siyasəti hesabına xeyli nəaliyyətlərimiz vardır. Ölkəmiz indi kosmos dövlətinə çevrilmişdir. Artıq kosmik orbitdə uğurla fəaliyyət göstərən peyklərimiz həm iqtisadiyyatımızın, həm müdafiə qüdrətimizn artmasında olduqca mühüm rol oynayır. Neft, geologiya elmləri uğurla inkişaf etməkdədir. Ölkəmizin tarixinin obyektiv şəkildə öyrənilməsi üçün olduqca ciddi işlər görülmüş, ortaya dəyərli əsərlər qoyulmuşdur. Folklorumuzun, yazılı ədəbiyyatımızın, tarixi bədii mənbələrimizin öyrənilməsi sahəsidə beynəlxalq səviyyədə elmi əhəmiyyət daşıyan xeyli tədqiqatlar aparılmış, əsərlər yaranmışdır. Milli fəlsəfi mənbələrimiz daha əhatəli öyrənilməyə başlanmışdır. Ölkəmizdə multikulturalizmlə bağlı beynəlxalq əhəmiyyətli elmi sistem formalaşmışdır. Təbiət elmləri sahəsində də bir xeyli uğurlu nəticələrimiz vardır.

Beynəlxalq elmi əlaqələr, elmi əməkdaşlıq sahəsində də xeyli uğurlarımız vardır. Alimlərimiz tez-tez müxtəlif beynəlxalq elmi məclislərdə iştirak edir, yüksək indeksli jurnallarda məqalələrlə çıxış edir, nüfuzlu elmi jurnalların redaksiya heyətlərinin üzvü, ekspertləri seçilirlər. Artıq AMEA-nın İnstitutları, Universitetlər, digər elmi qurumlar dünyanın qabaqcıl ölkələrinin elmi Mərkəzləri ilə sıx əlaqə yaradır, onlarla birlikdə aktual layihələr üzərində işləyirlər. Son illər AMEA-da və digər elm müəssisələrində ABŞ-ın, Almaniyanın, İtalyanın və digər qabaqcıl ölkələrin nüfuzlu elmi mərkəzləri ilə birlikdə laborotoriyalar, işçi qruplar yaradılmışdır. Azərbaycanda informasiya cəmiyyətinin formalaşması sahəsində mühüm işlər görülmüşdür. Bir çox başqa uğurlarımız barəsində də danışmaq olar. AMEA Azad Həmkar-

lar İttifaqı da Akademyamızda bu uğurların sayının, miqyasının artması üçün daimi olaraq ciddi tədbirlər həyata keçirir. AMEA əməkdaşlarının hüquqlarının, sağlamlığının qorunması, istirahətlərinin təşkili, sosial problemlərinin həllinə kömək və s. işlər diqqət mərkəzimizdədir və bu sahədə xeyli uğurlarımız vardır.

Müasir dövrün tələbləri, dövlətimizin həyata keçirdiyi siyasət, ölkə prezidentinin çağrışları elmimizin, alimlərimizin qarşısında olduqca ciddi, aktual vəzifələr qoyur.

Qeyd etmək lazımdır ki, "Elm günü" nün qeyd olunması bütün dünyada, qabaqcıl ölkələrdə də qeyd edilir. Bununla bağlı həm beynəlxalq səviyyədə, həm də bir çox ölkələrdə tədbirlər həyata keçirilir. Hər bir ölkədə elm günü elmlə bağlı müxtəlif hadisələrin tarixinə uyğun olaraq müxtəlif günlərdə qeyd edilir. Məsələn Rusiyada Elm günü Rusiya Elmlər Akademyasının yarandığı gündə - 8 fevralda qeyd edilir.

Hər ilin 10 noyabr tarixi BMT tərəfindən Beynəlxalq elm günü kimi qeyd edilir. Belə günlərdə elmin sülh, tərəqqi sahəsində, yer üzünün taleyində, cəmiyyətin, insanların həyatında mühüm rolu qeyd edilir. Elmlə cəmiyyət arasında əlaqələrin daha intensiv şəkildə yaradılması məsələləri müzakirə edilir.

Beynəlxalq elm gününün qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

-İnsanlar arasında, cəmiyyətdə dinc və davamlı inkişaf üçün elmin əhəmiyyəti, rolu barədə informasiyaların daha çox yayılması;

-Müxtəlif ölkələr arasında elmi nəaliyyətlər sahəsindəki təcrübənin bölüşdürülməsi üçün milli və beynəlxalq həmrəyliyin təşviq edilməsi;

-Elmin cəmiyyətin mənafeyi naminə istifadəsinə dair milli və beynəlxalq öhdəlikləri yeniləmək;

-Elmin üzləşdiyi problemlər barədə cəmiyyətdə məlumatlılığı artırmaq və elmə dəstəyin səviyyəsini yüksəltmək.

Ölkəmizdə elmin sürətlə, uğurla inkişaf etdirilməsi üçün böyük potensialımız vardır. Orta əsrlərdə bu sahədə göstərdiyimiz böyük nəaliyyətlər, son yüz ildə yetişən alimlərimiz bu potensialın zənginliyi barədə təsəvvür yaradır. Müasir dövrdə elmimizin inkişafı bu potensialın daha çox üzə çıxmasına kömək edəcəkdir. Azərbaycan alimləri öz uğurları ilə həm ölkəmizin, həm də bütün yer üzünün inkişafında mühüm rol oynayacaqdır.

Elm günümüz mübarək!

## Yeniləşən Azərbaycanda yeni elmi təfəkkürə ehtiyac var

Azərbaycan indi özünün yeni inkişaf mərhələsində inamla irəliləməkdədir. 44 gün ərzində mənfur düşmənlərin torpaqlarımızdan qovulması, min illərdir ki, ata-babalarımızın vətəni olan müqəddəs torpaqlarımızın qaytarılması ölkəmizdə böyük, mütərəqqi dəyişikliklərin getməsi üçün geniş imkanlar yaradıb. Həm beynəlxalq aləmdə xalqımızın nüfuzu xeyli artıb, həm də ölkə daxilində, bütün insanlarımızda bir ruh yüksəkliyi yaranıb, onlarda sabaha olan inamı xeyli artırıb. Əhali arasında son iki yüz il ərzində torpaqlarımızın daima əlimizdən alınması hesabına yaranmış məğlubolma sindromu tamamilə ortadan götürülüb və hər kəsdə özünü qalib xalqın nümayəndəsi ovqatı yaranıb.

Torpaqlarımızın düşmən caynağından azad olması bütün mənəvi, siyasi cəhətləri ilə yanaşı, həm də geniş iqtisadi, sosial imkanlar yaratmsı ilə də çox mühüm əhəmiyyət kəsb edir. Yaxın zamanlarda qaçqın, məcburi köçkün psixologiyası ilə çadırlarda, dar, rahatlığı olmayan mənzillərdə, iqtisadi çətinlik içində yaşayan insanlar indi öz geniş torpaq sahələrində yüksək əhval-ru-

hiyyə ilə fermerlik fəaliyyətinə başlayacaq, həm öz güzəranlarını xeyli yaxşılaşdıracaq, həm də ölkə iqtisadiyyatına mühüm töhvələr verəcəklər. Ölkə əhalisinin bir hissəsi bu ərazilərdə gedən tikinti, abadlıq, təsərrüfat işlərində yaxından iştirak edəcəklər, gedib o ərazilərdə məskunlaşacaqlar, torpaq sahibi olacaqlar. Ölkəmiz tamamilə yeni inkişaf, tərəqqi imkanları qazanmışdır.

Təəsüf ki, mənəviyyatı neqativ yüklənmiş düşmənlərimiz hələ də öz xislətlərinə uyğun revanşist planlar qurmaqda, "bəlkə də qaytardılar..." psixologiyası ilə yaşamaqda, ölkəmizə qarşı hər cür ikrah doğuran tədbirlər haqda düşünməkdədirlər. Bu işdə onlara, arxalarında duran qara qüvvələr də əllərindən gələn qədər kömək etməkdədir. Yəni bir tərəfdən ölkəmizin tərəqqisi üçün yeni prespektivlər açılması ilə yanaşı, ona qarşı olan arzuolunmaz qüvvələrin də fəallaşması dövrüdür. Ona görə də öz imkanlarımızı və bizə qarşı olan maneələrimizi nəzərə alaraq uğurlu inkişaf yolları axtarmaq günümüzün ən aktual məsələlərindən biridir. Bu yolda ölkənin hər vətəndaşının, hər bir təşkilatının öhdəsinə olduqca mühüm işlər düşür. Bu işlərin nədən ibarət olması artıq bir tarixi şəxsiyyət kimi həm beynəlxalq aləmdə, həm də ölkə daxilində böyük nüfuza malik olan, öz ağıllı, analitik təfəkkürü ilə dostların rəğbətini qazanmış, düşmənlərini daima narahat edən ölkə başçımız, möhtərəm İlham Əliyevin yürütdüyü siyasət hesabına konkretləşir, dəqiqləşir.

Məhz bu düşünülmüş siyasət hesabına ölkədə artıq bütün istiqamətlərdə mühüm dəyişikliklər baş verməkdədir. Ölkəmizdə yeni, müsbət bir siyasi iqlim yaranmışdır. Bu isə cənab Prezidentimizin qeyd etdiyi kimi, ikinci Qarabağ müharibəsində qazandığımız möhtəşəm qələbəni siyasi yollarla möhkəmlətmək imkanları yaradır. Son iki ildə ölkədə ciddi kadr islahatları aparılır, yeni gənc, beynəlxalq aləmdə baş verənlər barədə daha ətraflı,

dərin məlumatlara malik olan savadlı, bacarıqlı komanda formalaşır. Artıq əhali də müsbət dəyişiklikləri hiss etməkdədir. İndi korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi şəkildə aparılır. Bu neqativ hallara nəzarət xeyli güclənmişdir. Ölkədə gedən abadlıq işləri uğurla davam etməkdədir.

Bütün dünyanı bürümüş koronavirus bəlası təəsüf ki, ölkəmizdə də xeyli problemlər yaratdı. Amma bu sahədədə də olduqca mühüm işlər görüldü. İlk gündən koronavirusla bağlı vəziyyət, gedən proseslər tam nəzarətdədir. Dövlət təhlükənin qarşısını almaq üçün milyardlarla manat pul xərclədi və bu iş davam etməkdədir. Cənab Prezidentin qeyd etdiyi kimi “Azərbaycan bu sınaqdan şərəflə çıxır.” Covid – 19 koronavirusu ilə bağlı baş verənlər dünyanın bütün ölkələrinin iqtisadiyyatına ağır zərbələr vurdu. Azərbaycan ən az itki verənlər siyahısındadır. Hətta qeyri-neft sənayemizdə 11 faiz artım oldu. Kənd təsərrüfatımızda 2 faiz artım olub və bu artım yüksəlməkdədir. Orta əməkhaqqı, pensiya 13-14 faiz artıb. Dövlət öz valyuta fondunu qoruyub saxlaya bilib. Belə bir dövrdə bizim iqtisadiyyatımızdakı ümumi azalma cəmi 4 faiz olub. Azərbaycan əhalinin elektrik təchizatı səviyyəsinə görə dünyada ikinci yerdədir. Hökumətimiz islahatçılıq reytinqinə görə beşinci, uzun müddətli strategiyalarına görə 10-cu yerdədir. Dünya Bankının “Doing Business” proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir. Günü-gündən inkişaf etməkdə olan həm neft, həm də qeyri-neft sektorlarımızın potensialı hesabına, ən yaxın illərdə biz daha yüksək yerlərdə olacağıq.

Dünyanın belə bir mürəkkəb, ağır vəziyyətində ölkəmiz başdan başa yenilənir. Ənənəvi infrastruktur layihələri çox uğurla həyata keçməkdədir. Qazla, elektrik enerjisi ilə təmin olunma, avtomobil yollarının inşası, dəmir yol xətlərinin salınması, suvarma ilə bağlı layihələrin həyata keçirilməsi sahəsində mühüm

uğurlar qazanılmışdır. Prezidentimiz indi əsas diqqəti həm də işğaldan azad olunmuş torpaqlarımızın abadlaşdırılmasına yönəldib. Artıq görüləcək işlərin əsas istiqamətləri müəyyənləşmişdir. Abadlıq işlərinə başlanmışdır və günü-gündən uğurla genişlənməkdədir. Xalqımız tam əmindir ki, yaxın zamanlarda Qarabağ dünyanın ən gözəl, abad ərazilərindən biri olacaq. Füzuli rayonunda böyük, müasir tələblərə cavab verən beynəlxalq hava limanının tikintisi üçün ciddi hazırlıq işləri gedir. Eyni zamanda Kəlbəcər və Laçın rayonlarında da beynəlxalq hava limanları tikiləcəkdir. Bu o deməkdir ki, tezliklə Qarabağ artıq tamamilə başqa bir imiclə - sülh, əminamanlıq, abadlıq ünvanlı gözəl bir məkan kimi dünyanın diqqət mərkəzində olacaqdır. Şuşa şəhərinin adı ölkəmizin, dünyanın ən nüfuzlu, ən gözəl bir mədəniyyət mərkəzi kimi səslənəcəkdir. Burada xalqımızın mədəniyyəti ilə, dünya mədəniyyəti ilə bağlı beynəlxalq tədbirlər keçiriləcəkdir.

Azad etdiyimiz torpaqlarda böyük bir məsafədə sərhədlərimizin qurulması ilə bağlı olduqca mühüm işlərə başlanmışdır. İmkanları genişlənən aqrar sektorumuz sürətlə inkişaf edəcəkdir.

Prezident İlham Əliyevin azad olunmuş torpaqlara səfər etməsi, orada əsgərlərimizlə səmimi söhbətləri, uçurulmuş məscidlərin xarabalıqlarında dünya xalqlarına, dünya müsəlmanlarına müraciət etməsi, tezliklə abadlıq işlərindən danışması əhali arasında olduqca böyük ruh yüksəkliyi yaradır. Onun Mehriban xanımla birlikdə Xudafərin körpüsünü məhəbbətlə ziyarət etməsi xalqımızın tarixinə, mədəniyyətinə, taleyinə qarşı necə həssas olduğunu bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə indi müharibədə qazandığımız möhtəşəm qələbə beynəlxalq aləmdə aparılan işlərlə, qurulan əlaqələrlə, informasiya mübarizəsi ilə möhkəmləndirilir. Xarici ölkələrin diplomatları, siyasətçiləri, jurna-

listləri, beynəlxalq təşkilatların nümayəndələri Qarabağın xaraba qoyulmuş ərazilərinə dəvət olunur. Onlar öz gözləri ilə ermənili-yin mahiyyətini görür və öz təəssüratlarını bütün dünyaya yayır-lar. Hansı ölkədən asılı olmayaraq, ölkəmizə qarşı aparılan siya-sətin mahiyyəti haqqın, ədalətin meyarları ilə ifşa olunur.

Bütün məsələlərə dərindən nüfuz etməyi bacaran Prezident İlham Əliyev 2021-ci ili Nizami ili elan etmişdir. Bu, olduqca ağıllı bir addımdır. Bu bir tərəfdən Azərbaycanın hələ 9 əsrdən əvvəlki dövrünün intibahından, bu torpaqlarda kimlərin yaşama-sından, necə dahi şəxsiyyətlər yetirməsindən xəbər verir, digər tərəfdən yer üzünün bütün bəlalardan xilas olmasının yalnız müdrikliklə mümkün olduğu fikrini elan edir. Eyni zamanda xalqı-mızı öz tarixi keçmişini, milli mədəniyyətini, fəlsəfəsini, ədəbiyya-tını dərindən öyrənməyə səsləyir. Düşmənə öz yerini göstərir.

Dövlət başçısı fevral ayının 2-də “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqın-da sərəncam imzaladı. Müəyyən olunmuş bu prioritetlər növbəti on ildə ölkəmizdə tərəqqinin təmin olunmasında mühüm rol oy-nayacaqdır. Dövlətimizin qüdrətlənməsinə, xalqın rifahının yük-səlməsinə kömək edəcəkdir. Növbəti onillikdə ölkənin sosial-iq-tisadi inkişafını yüksək şəkildə təmin etmək üçün 5 əsas istiqa-mət Milli Prioritet olaraq müəyyənləşmişdir: 1) dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyat; 2) dinamik, inkuliziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3) rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4) işğaldan azad olmuş ərazilərə böyük qayıdış və 5) təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi olmaq.

Müasir dünyanın tələblərinə uyğun olan bu prioritetlərin yerinə yetirilməsi ölkəmizin sürətlə tərəqqi etməsində mühüm rol oynayacaqdır. Bu prioritetlərin həyata keçirilməsi üçün Prezi-dent Nazirlər Kabinetinə həvalə etmişdir ki, 9 ay ərzində "2021-

2025-ci illər üçün sosial-iqtisadi inkişaf strategiyaları" hazırlansın. Bu işdə aparıcı beynəlxalq təşkilatlar və ixtisaslaşmış konsaltinq şirkətləri ilə səmərəli əməkdaşlıq edilsin və müvafiq dövlət orqanları (qurumlarının), elmi təşkilatlar, mütəxəssislər və vətəndaş cəmiyyəti institutları bu işə cəlb olunsun. Göründüyü kimi, bu yolda hər bir kəsin öhdəsinə müəyyən işlər düşür. Təbii ki, azərbaycan alimlərinin, elmi təşkilatlarının, xüsusi ilə Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında konkret vəzifələr dayanır. Akademyada son dövrlər aparılan mühüm islahat işləri də dövlətimizin, Prezidentimizin müəyyən etdiyi prioritetlərin həyata keçirilməsi üçün əsaslı zəmin yaratmaqdadır. Koronavirusun yaratdığı ağır vəziyyətə baxmayaraq Akademya müharibədən sonrakı şəraitdə ölkəmizin, azad olunmuş torpaqlarımızın tərəqqisinə mühüm kömək edəcək mövzular üzərində işləməyi, bununla da hər bir sahədə inkişafın elmi təminatını möhkəmləndirməyi qarşısına məqsəd qoymuşdur. Bununla bağlı bütün İnstitutlarımızda ciddi işlər gedir. 2021-ci ildə hər bir İnstitutda elmi-tədqiqat mövzuları bu məqsədin reallaşmasına kömək edəcəkdir. Təbii ki, hər bir İnstitutun qarşısında öz profilinə görə konkret vəzifələr vardır. Məsələn, tarix, arxeologiya istiqamətli tədqiqatlar erməni həyasızlığını, saxtakarlığını ifşa edən, həqiqəti ortaya qoyan araşdırmalara, iqtisadi yönümlü araşdırmalar iqtisadiyyatımızın möhkəmlənməsinə, riyazi yönümlü araşdırmalar inkişafımızın səmərəli yollarını müəyyənləşdirməyə imkan verən riyazi modellərin qurulmasına, hüquq, fələsəfə yönlü tədqiqatlarımız hüquqi, fəlsəfi, sosioloji bazamızın möhkəmlənməsinə xidmət edən tədqiqatlara - bir sözlə, hər bir İnstitut özünün kömək edə biləcəyi sahələr üzrə araşdırma aparmağa başlamışdır.

Aparılan kadr islahatları da bu işlərin daha ciddi şəkildə, daha keyfiyyətli olaraq həyata keçirilməsinə xidmət edir.

AMEA-nın Azad Həmkarlar İttifaqı da öz öhdəsinə düşən işləri yüksək səviyyədə, ölkə Prezidentinin çağrışlarına uyğun olaraq həyata keçirməyə çalışır. Ötən ilin əvvəlindən koronavirusla bağlı baş verənlər Həmkarlar İttifaqının diqqət mərkəzində olmuşdur. Bu xəstəlik hələ ölkəmizdə yayılmağa başlamazdan əvvəl xeyli proflaktik tədbirlər görülmüşdür. Bütün İnstitutlarda infeksionist həkimlərin iştirakı ilə görüşlər, müzakirələr, maarifləndirici tədbirlər həyata keçirilmişdir. Xəstəlik ölkədə yayıldığı vaxtda Akademiyada bu prosesə nəzarət gücləndirlmiş, girişdə bütün əməkdaşların sağlamlıq durumu - temperaturu yoxlanmış, maska təminatı həyata keçirilmişdir. Yeməkxana və başqa obyektlər nəzarətə götürülmüşdür. Pandemiya dövründə aztəminatlı akademiya əməkdaşlarına ərzaq yardımları edilmişdir. Müharibədə iştirak edən əməkdaşların ailələri ilə əlaqə saxlanmış, onların bir sıra problemlərinin həll olunmasına yardım edilmişdir. Müharibədən qayıdan bir neçə əməkdaşımız ödənişsiz olaraq sanatoriyalara göndərilmişdir.

Azad Həmkarlar İttifaqının qarşısında duran əsas vəzifə yeniləşən, böyük quruculuq işləri aparan ölkəmizdə, Milli Elmlər Akademyası alimlərinin də bu çağrışlara cavab verən fəaliyyətə səfərbər edilməsi üçün əlindən gələni etməkdir.

## Azərbaycan Milli Elmlər Akademiyasında əməkdaşların sağlamlığının mühafizəsi ən ümdə vəzifələrdən biridir

Bütün sahələrdə davamlı inkişaf, dinamik uğurlar əldə edən Respublikamız tarixi inkişaf və yüksəliş dövrünü yaşamaqdadır. Uğurlarımızın baş memarı olan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin mükəmməl idarəçiliyi, düşünülmüş strateji daxili və xarici siyasi kursu ilə ölkəmiz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Bu, həyata keçirilən islahatlarda daha qaba-

rıq şəkildə özünü biruzə verməkdədir. Bu da bir faktdır ki, islahatların əsas məqsədini Azərbaycan vətəndaşının ümumi rifahının, maddi durumunun, sosial müdafiəsinin daha da yaxşılaşdırılması təşkil edir.

Hər bir Azərbaycan vətəndaşı həyata keçirilən bu sosial yönümlü islahatların bəhrəsini öz üzərində hiss etməkdədir. İslahatların əsas məqsədlərindən birini də dövlətin bütün sferalarında, idarə və müəssisələrdə stimullaşdırıcı inkişaf mexanizmlərinin uğurlu tətbiqi, yeni islahat reformalarına cavab vermək təşəbbüsləri təşkil edir. Bu baxımdan, Azərbaycan elminin bayraqdarı, ziyalı mühitimizin ocağı sayılan Azərbaycan Milli Elmlər Akademiyasının üzərinə yeni ciddi məqsəd və vəzifələr düşür. Cənab Prezidentin müasir tələblərə cavab verən çağırışları AMEA rəhbərliyi, çoxminlik kollektivi tərəfindən tam olaraq dəstəklənmiş və akademiyanın ümumi fəaliyyətində yeni iş prinsipləri, tendensiyalar işlənib hazırlanmışdır.

AMEA-da yenilənmə, kadr və struktur islahatları, əməkdaşların fəaliyyətininin stimullaşdırılmasına xidmət edən yeni fəaliyyət proqramı hazırlanaraq həyata keçirilməkdədir. Əməkdaşların sosial rifahının daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərilir və bu məsələ AMEA-nın bütün strukturları üçün prioritet tələb kimi qoyulub. Bu baxımdan, AMEA Azad Həmkarlar İttifaqının üzərinə xüsusi bir məsuliyyət düşür. Belə ki, çoxminlik akademiya kollektivinin sosial problemlərinin həlli, korporativ fəaliyyətlərinin təşkili daha çox Həmkarlar İtifaqının fəaliyyət çevrəsinə aid olan məsələlərdəndir.

Əməkdaşların sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində tələb və iş prinsipinə uyğun olaraq, AMEA Həmkarlar İttifaqı bir-sıra uğurlu tədbirlər həyata keçirmişdir. Xüsusən də əməkdaşların böyük əksəriyyətinin yaşlı insanlar olması-

nı, keçici virusların qış fəslində daha da aktivləşdiyini nəzərə alaraq 2020-ci ilin yanvar ayında Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə Respublikanın aparıcı klinikalarından olan Akademik Z.Əliyeva adına Milli Oftolmologiya Mərkəzi və "MedEra" hospitalının tibbi personalı akademiyaya dəvət edilmiş və yüksək ixtisaslı həkimlər qrupu yüzlərlə əməkdaşı təmənnasız olaraq tibbi müayinədən keçirmişlər. Belə ki, Akademik Z.Əliyeva adına Milli Oftolmologiya Mərkəzi Akademiya Şəhərciyinin həyatində öz səyyar avtobus-klinikasında ən müasir tibbi avadanlıqlardan istifadə etməklə əməkdaşların gözlərini müayinə etmişlər. Bundan bir-neçə gün sonra isə "MedEra" hospitalının həkim personalı yenə də ən müasir tibbi avadanlıqları ilə akademiyaya təşrif buyurmuş və əməkdaşların nevroloji, terapevtik və kardioloji müayinəsini həyata keçirmişlər. Bu sosial yönümlü aksiyanın keçirilməsinə səbəb olan digər önəmli bir amil isə Çin Xalq Respublikasında yaranan, dünyanın onlarla ölkəsinə "ayaq açan", 25 minə yaxın insanın yoluxduğu, 500-ə yaxın insanın həyatını itirdiyi "coronavirus 2019-n CoV" virusu ilə bağlıdır. Bu virus Respublikamız üçün real təhlükə yaratmasa da, önləyici tədbirlərin həyata keçirilməsi vacibdir. Bu virusun nə dərəcədə ciddi və təhlükəli olduğunu nəzərə alaraq Respublika Prezidenti cənab İlham Əliyev bu məqsədlə müşavirə keçirmiş və aidiyyatı təşkilatlara müvafiq tədbirlərin görülməsi üçün xüsusi tapşırıqlar vermişdir. Bunu nəzərə alan AMEA Azad Həmkarlar İttifaqının internet saytının (www.ameahemkarlar.az) "Əməyin Texniki Təhlükəsiszliyi və Sağlamlıq" bölməsində virusla bağlı geniş məlumat yerləşdirilmişdir. Burada "coronavirus 2019-n CoV" virusu, onun əlamətləri, yaranması və yayılması şəraiti, ilkin yardımın göstərilməsi, xəstəliyin məhdudlaşdırılması və s. ilə bağlı geniş mütəxəssis rəyi və məlumatlar yerləşdirilmişdir. Ey-

ni zamanda, AMEA-nın bütün İlk Həmkarlar təşkilatlarının sədrlərinə virusla bağlı yazılı məlumatlar göndərilmiş, əməkdaşlar arasında maarifləndirici tədbirlərin həyata keçirilməsinə tövsiyyə və göstərişlər verilmişdir. Artıq AMEA Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə AMEA-nın ilk təşkilatlarında koronovirusla bağlı maarifləndirici tədbirlər keçirilib və ərazilər üzrə Gigiyena və Epidemologiya Mərkəzlərinin dəvət olunmuş epidemoloqları koronavirus və ondan qorunma yolları haqqında tədbir iştirakçılarına məlumatlar veriblər.

O da qeyd edilməlidir ki, əməkdaşların sağlamlığının diqqət mərkəzində saxlanılması hər zaman AMEA Azad Həmkarlar İttifaqının fəaliyyətində əsas prioritet istiqamət təşkil etmişdir. Hər il yüzlərlə akademiya əməkdaşı təmannasız olaraq tibbi müayinəyə cəlb edilir. Eyni zamanda, akademiya əməkdaşları müalicə, istirahət məqsədi ilə Respublikamızın aparıcı sanatoriya, kurort mərkəzlərinə göndərilir. AMEA Həmkarlar İttifaqı əməkdaşların səhhəti, sağlamlığı, asudə vaxtlarının təşkili, sosial rifahlarının yaxşılaşdırılması istiqamətində öz fəaliyyətini günün tələbləri səviyyəsində daim diqqət mərkəzində saxlamaqdadır. Bu da Respublikamızda həyata keçirilən sosial yönümlü siyasətə, əməkdaşların fəaliyyətlərinin daha da stimullaşdılmasına öz töhfəsini verməkdədir.

## Novruz bayramı Azərbaycan xalqının milli-mədəni fəlsəfəsini əks etdirir

Novruz xalqımız tərəfindən minilliklər boyunca böyük məhəbbətlə qeyd olunan ən sevimli bayramımızdır. Qeyd etmək lazımdır ki, Novruz bayramını bir çox digər xalqların qeyd etdiyi başqa çoxsaylı məhsul bayramlarından fərqləndirən əsas cəhəti onun özündə tarixi etnoqrafiyanı, xalqın mifologiyasını və

milli-mədəni fəlsəfəsini ehtiva etməsidir. Novruz dərin fəlsəfəyə malik olan bayramdır.

Novruz bayramı sovetlər birliyi dövründə rəsmən qadağan edilsə də, Ümummilli Lider Heydər Əliyevin milli ənənə və dəyərlərə daxilən möhkəm bağlılığı bu bayramın xalq arasında sevilərək yaşadılmasını təmin etmiş, folklorşünaslıq və fəlsəfə sahəsində aparılan elmi tədqiqatlarda onun ideoloji-siyasi əhəmiyyəti hər zaman önə çəkilmişdir. Diqqətəlayiq haldır ki, ötən əsrin 70-ci illərində Novruz bayramı ilk dəfə olaraq məhz Ulu Öndərin xeyir-duası ilə rəsmən qeyd olunmuş, bayram şənliklərini əks etdirən reportajlar televiziya ilə yayımlanmışdır. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəldir, milli irsə, tarixə böyük məhəbbət yaradır, özünüdərki gücləndirirdi. Novruz adət-ənənələri o dövrdə çəkilmiş filmlərdə də özünə yer tapırdı. Hər dəfə "Dəli Kür" filmini seyr edəndə Novruzun necə təbliğ olunduğunu əyani şəkildə görürük. Məhz müdrik rəhbərin qayğısı ilə o illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır.

1991-ci ilin oktyabrında Azərbaycan özünün müstəqilliyini bərpa etsə də o dövrdə yaşanan ziddiyyətli, təlatümlü proses və faciələr Novruzun əsl xalq bayramı kimi yüksək-əhval ruhiyyədə keçirilməsinə imkan vermədi. Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə respublika rəhbərliyinə qayıdışından sonra Azərbaycanın qarşılaşdığı bir çox faciələr aradan qaldırıldı, vətəndaş qarşıdurmasının qarşısı alındı. İctimai-siyasi sabitlik təmin olunandan sonra maddi rifah halı ildən-ilə yaxşılaşan xalqımız Novruz bayramını yüksək əhval-ruhiyyədə qeyd etməyə başladı. Novruz dövlət səviyyəsində yüksək səviyyədə qeyd edilməklə yanaşı, dünya azərbaycanlılarının milli

bayramına, effektiv ideoloji-siyasi təsir amilinə çevrildi. Ulu Öndər 1994-cü ilin yazından başlayaraq hər il Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik etdi, ümumxalq şənliklərinə qatılaraq xalqımıza ikiqat sevinc yaşatdı, ölkə vətəndaşlarına Vətənin çiçəklənməsi naminə birlik, həmrəylik, saflıq və təmizlik arzuladı. Ulu Öndər Heydər Əliyev hələ 1998-ci ildə demişdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm." Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Ümummilli Liderin bu vəsiyyətini də yerinə yetirdi. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu doğma torpaqlarımızı işğaldan azad etdi və xalqımız bundan sonra həmin ərazilərdə Novruz bayramını min illiklər boyunca qeyd edəcək.

Heç şübhəsiz, Novruz bayramının UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs üzrə reprezentativ siyahısına daxil edilməsi çox böyük əhəmiyyət kəsb edir. Əlbəttə ki, ölkəmizin mədəniyyət tarixində mühüm əhəmiyyət kəsb edən bu hadisə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və ciddi səyləri, bu istiqamətdə apardığı gərgin fəaliyyəti nəticəsində baş verib. Qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın mədəniyyət, elm və təhsil, idman, yaradıcılıq istiqamətləri üzrə beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində böyük xidmətləri təqdirəlayiqdir. Ölkənin birinci xanımının 2004-cü ildən başlayan UNESCO-nun xoşməramlı səfiri kimi fəaliyyəti müddətində gö-

rülən işlər, Ümumdünya İrs, Qeyri-maddi mədəni irsin reprezentativ siyahısına daxil edilən, qoruma altına alınan mədəni irs nümunələrimiz, onun bu işə həssas münasibətinin parlaq ifadəsidir. 28 sentyabr - 2 oktyabr 2009-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan və başqa ölkələrin xalqlarının xüsusi təntənə ilə qeyd etdikləri Novruz çoxmillətli nominasiya kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına salınıb. Təkcə onu keçirən türk xalqlarının deyil, ümumilikdə bəşəriyyətin mənəvi dəyəri hesab edilən, İslamdan əvvəlki tarixi dövrə təsadüf olunan Novruz bayramı Azərbaycanla yanaşı bütün Şərqdə qeyd olunur. 23 fevral 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i "Beynəlxalq Novruz Günü" elan olunub. 28 noyabr - 2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyasında İraq, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstan da Novruz bayramı nominasiyasına qoşulub. Bu, bir daha sübut etdi ki, Azərbaycanın beynəlxalq təşəbbüslərini dəstəkləyən ölkələrin sayı daim artır.

Novruz bayramını Azərbaycan xalqının müqəddəs milli irs hesab edən Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: “Novruz bayramı Azərbaycan xalqının ən əziz və sevimli bayramlarından biridir. Əsrlər boyu xalqımız bu bayramı qeyd etmişdir. Ancaq müstəqillik dövründə bu bayram rəsmi şəkildə qeyd olunur. Azərbaycan xalqı Novruz bayramına ən hərarətli münasibət bəsləyir, o, bizim üçün ən başlıca, ən gözəl bayramdır... Ailə də-

yərləri, bizim milli-mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim milli mədəniyyətimiz, tariximiz - bütün bunlar Azərbaycan xalqını qorumuşdur. Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışdıq. Ancaq milli xüsusiyyətlərimizi itirməmişik. Assimilyasiyaya düçar olmamışıq, öz dilimizi, adət-ənənələrimizi, milli bayramlarımızı qoruyub saxlamışıq." Möhtərəm dövlət başçımız Novruz bayramını birmənalı şəkildə milli varlığın qorunma vasitəsi hesab edir. Məhz bu yanaşma müasir Azərbaycan dövlətinin artıq bütün dünyada böyük əks-səda verən mədəniyyət siyasətinin əsasını təşkil edir.

# V FƏSİL
# AZƏRBAYCAN VƏ DÜNYA

## Lider dövlətin imicinə zərbə vuran qərəzli addım

XXI əsrdə Amerika Birləşmiş Ştatları dünyanın ən qüdrətli, lider dövlətlərindən biri, birincisi sayılır. Ən azından ABŞ rəhbərləri bu iddiadadırlar. Dünya isə olduqca ağır bir vəziyyətdədir. Bir tərəfdən qlobal iqlim dəyişiklikləri, bir tərəfdən iqtisadi böhranlar, siyasi qarşıdurmalar, müxtəlif ölkələrdə gedən müharibələr, pandemiya, aclıq, işsizlik və bu kimi xeyli problemlər bütün yer üzündə olduqca gərgin, acınacaqlı bir vəziyyət yaradıb. İnsanlarda biri-birlərinə olan etimad, etibar, sevgi, sabaha inam azalıb. Belə bir vəziyyətdə həqiqətən də lider olan dövlətlərin əsas borcu yer üzünü bu bəlalardan qurtarmaq, qan burulğanlarını dayandırmaq, hüquqi, mənəvi azadlıqları təmin etmək, insanların güzəranını, əhval-ruhiyyələrini yaxşılaşdırmaq üçün yollar axtarmaqdır. Bəli, həqiqi mənada lider olan dövlətlər yer üzünə əmin-amanlıq, sülh gətirmək üçün əllərindən gələnləri etməlidirlər. İndi yer üzünün belə həqiqi lider dövlətlərə çox böyük ehtiyacı var.

Çox təəssüf ki, indiki zamanda özlərinə liderəm deyən dövlətlərin heç biri tarixin onların boyunlarına bir borc kimi qoyduğu bu vəzifələri yerinə yetirmir. Əksinə, onların fəaliyyəti yer üzündə gərginliyi, problemləri günü-gündən artırmaqda davam edir. Müdrik insanların, dini sistemlərin, nəzəriyyələrin insanlığın mahiyyəti, borcu barədə çağrışları qulaq ardına vurulur. Təəccüblü odur ki, sanki bu lider adlanan dövlətlərin başçıları qloballaşmanın mahiyyətini, tələblərini lazımınca dərk edə bilmirlər. Başa düşmək istəmirlər ki, müdrik insanların dediyi kimi, hamımız – bütün insanlar bir gəminin içərisindəyik. O gəmi batanda hamı batacaq. O gəmidə gərginliyin artması yeni-yeni

fəsadlar yaradır, gəminin dibinin deşilməsinə aparır. O gəminin xilası, insanlar arasında sevgi, məhəbbət, əmin-amanlıq, sülhdür.

Artıq yüz ilə yaxındır ki, Amerika özünü hər zaman yer üzünün xilaskarı rolunda təqdim etməkdədir. Haqdan, ədalətdən, demokratiyadan danışır. Özünü bu sahədə nümunəvi bir ölkə kimi göstərməyə çalışır. İlk baxışdan, uzaqdan bu, belə də görünür. Amma təəssüf ki, əməldə bu belə deyildir. SSRİ dağılandan sonra biz Amerikanı daha yaxından tanıdıq. Biz bu yaxınlığa çox böyük ümidlə baxırdıq. Bu yaxınlıqdan çox şey gözləyirdik. İlk növbədə özlərinin elan etdikləri haqq, ədalət, demokratiya gözləyirdik. Amma çox təəssüf ki, bunun əksini gördük. Sonrakı məlumatlardan aydın oldu ki, ABŞ 1990-cı ildə 20 yanvar qırğınlarının törədilməsində də maraqlı olub. Bu məsələ ilə bağlı başqa dövlətlə altdan-altdan danışıqlar aparıb. Torpaqlarımızı mənfur düşmənlər işğal edəndə də insanların böyük bir qismi ümidini Amerikaya bağlamışdı. Amma Amerika təəcüblü şəkildə susurdu. Haqqı-ədaləti müdafiə etmək əvəzinə işğalçını müdafiə edirdi. Üzdə üzümüzə gülümsəyib yenə də demokratiyadan, insan haqlarından danışa-danışa xalqın hüquqlarını qulaq ardına vururdu. Biz böyük arzularla demokratik dəyərlərdən bəhrələnmək istədiyimiz vaxtda, Amerikanın məyusedici addımlarının şahidi olurduq. 1992-ci ilin fevral ayının 26-da mənfur düşmən Xocalıda tarixin ən qanlı, ən qəddar soyqırımını həyata keçirdi. Yenə də gözlərimiz Amerikaya dikildi. Özünü demokratiyanın, insan haqlarının carçısı elan edən bu qüdrətli dövlətin bizi ciddi şəkildə dəstəkləyəcəyini düşündük. Əvəzində həmin ilin 24 oktyabrında ABŞ Konqresi postsovet ölkələrinin inkişafına yardım etmək üçün qəbul edilmiş "Azadlığa dəstək aktı"nın 907-ci maddəsinə etdiyi əlavə bizə ciddi mənəvi və maddi zərbə vurdu. Bu düzəlişlə torpaqlarımız işğal olunduğu halda tələb

olunurdu ki, işğalçıya heç bir müqavimət göstərməyək. Əks halda Azərbaycana dövlət səviyyəsində hər bir kömək qadağan edilirdi. Bu qadağa hesabına biz ölkənin inkişafına Amerikadan dövlət səviyyəsində kömək almayan yeganə postsovet respublika olduq.

Kimsə belə düşünməsin ki, bunları yazmaqla mən Amerika əleyihə təbliğat aparmaq istəyirəm. Əksinə, mənim hamı üçün məlum olan bu fikirlərim Amerikaya xoş münasibətdən, "uman yerdən küsərlər" deyimindən irəli gəlir. Mən yenə də Amerikaya böyük ümidlə baxır, onun nəhayət ki, öz adına layiq fəaliyyət göstərməsini arzu edirəm.

ABŞ dövləti Rusiya və Fransa dövləti ilə birlikdə ATƏT-in Minsk qrupunun həmsədridir. Bu qrup Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün yaradılıb. Həmin qrupun 30 ilə yaxın fəaliyyəti onu göstərdi ki, onlar ədalətli qərarlar qəbul etmək əvəzinə, Azərbaycanın başını qatmaqla məşğuldular. Nəticədə, Azərbaycanın tarixi torpaqları - bütün yaşayış məntəqələri yerlə-yeksan oldu, müqəddəs yerləri təhqir olundu. Həmsədrlər isə bu vəhşiliyi görə-görə hələ də susurlar. 44 günlük İkinci Qarabağ müharibəsində beynəlxalq hüquqlar əsasında öz işğal olunmuş torpaqlarımızı düşməndən azad etdiyimiz zaman biz yenə Amerikadan dəstək gözlədik. Yenə də ögey münasibət gördük. Düşmənin qadağan olunmuş silahlarla dinc əhalimizi qırmalarını da sakitliklə izlədilər.

Nəhayət, bu ilin 24 aprelindəki bu cılız addım. Hörmətli Prezidentimiz İlham Əliyevin dediyi kimi, yanlış və tarixi xəta olan bu "soyqırımının təsdiqi" dərin, acı təəssüf doğurur. Tək ona görə yox ki, bu, bizim, bütün türk dünyasının əleyhinədir. Bu addım ona görə belə acınacaqlıdır ki, bu fikri dünyanın ən nəhəng dövlətinin başçısı yalan danışdığını bilə-bilə səsləndirdi.

Axı bütün tarixi mənbələr təsdiq edir ki, bu "genosid məsələsi" siyasi bir oyundur. Qısa bir zamanda o vaxtın silahları, nəqliyyatı ilə 1,5 milyon adamı qırmaq, 3,5 milyon adamı ölkədən çıxarmaq qeyri-mümkündür. Buna aid heç bir tarixi sənəd yoxdur. Türkiyə öz arxivlərini hər kəsin üzünə açdığı halda, ermənilər öz arxivlərinə heç kimi yaxın buraxmaq istəmir. Hamı bilir ki, bir vaxtlar Türkiyədə hər sahədə, orduda da yüksək statuslara malik olan ermənilər XIX əsrin sonu - XX əsrin əvvəllərində öz yaşadıqları ölkəyə arxadan zərbə vurmağa, düşmənlərin maraqlarına uyğun fəaliyyət göstərməyə başladılar. Dövlət də bunun qarşısını almaq üçün hər bir dövlətdə olduğu kimi müəyyən tədbirlərə əl atdı. Amma gözləri qızmış ermənilər həm Türkiyədə, həm də Azərbaycanda çox sayda insan tələfatına səbəb olan qırğınlar törətdilər. Öz törətdikləri qırğınların adını çəkməyən ermənilər illər keçdikdən sonra öz havadarlarının, qulluq göstərdiklərinin köməyi ilə bir saxta soyqırımı əfsanəsi düzəltdilər. Bu əfsanənin zəhərini uda-uda son yüz ildə faşistlərdən daha çox faşist oldular. Bu isə müəyyən güc mərkəzlərinə onlardan alət kimi istifadə etmək imkanlarını xeyli artırdı.

"Erməni soyqırımı" məsələsinin nə qədər yalan, qondarma olduğunu Amerikanın tarixçiləri də çox gözəl bilirlər və bu haqda dövlətə dəfələrlə məlumat da vermişlər. Bunu C.Baydenin sələfləri də yaxşı bilirdilər. Ona görə "soyqırımı" ifadəsini dilə gətirmirdilər. Təbii ki, Bayden özü də bu barədə müfəssəl məlumata malikdir. Amma o, belə bir addımı atdı. O, öz məsuliyyətini anlamalı idi. Belə bir addımla ilk növbədə Türkiyə və Azərbaycan kimi Amerika üçün strateji əhəmiyyətli ölkələrlə münasibətlərə ciddi zərbə vurdu. Eyni zamanda bütün türk dünyası, İslam dünyası ilə münasibətlərdə soyuqluq yaratdı. Ciddi siyasətçilərin, tarixçilərin yanında gözdən düşdü.

Aydındır ki, Bayden belə düşünür ki, o, bunu siyasət xatirinə edib. İndi o, ermənilərdən hər zamankı kimi bir alət olaraq istifadə etmək sevdasına düşüb. Ermənilərin özlərinin ayıq adamlarının da etiraf etdiyi kimi, ermənilərdən "anbarda qalmış bir silah kimi" yararlanmaq istəyir. Amma nəzərə ala bilmir ki, dünya artıq 30 il bundan qabaqkı dünya deyil. Türkiyə və Azərbaycanla münasibətləri soyuqlaşdırmaqla, bir çox başqa ölkələrdə etibarı itirməklə öz ölkəsinin siyasətinə ağır zərbə vurur. Artıq ermənidən ov tulası kimi istifadə etməklə də 30 il bundan qabaqkı nəticələri əldə etmək mümkün deyil. Əslində, mənim bu dediklərimi hər bir siyasətçi, hər bir ağıllı insan bilir, Baydendən başqa.

Baydenin bu siyasəti ermənilərin özləri üçün də xeyli zərərlidir. Çünki bununla o, zəhərli ideologiyanın eyforiyasına qapılmış erməni millətçilərini daha da qızışdıracaq. Onlarda ümid yaranacaq. Öz revanşist fəaliyyətlərini davam etdirməyə həvəsləndirəcək. Bununla da ermənilərin daha ağır vəziyyətə düşmələrinə səbəb olacaq. İndiki vaxtda, İkinci Qarabağ müharibəsindən sonra ermənilərin öz mənfur, faşizmdən daha betər ideologiyalarından əl çəkərək müstəqil bir dövlət qurmaları üçün tarixi imkan yaranmışdı. Baydenin "soyqırımı təsdiq" psevdoqəhrəmanlığı erməni revanşistlərini qızışdırmaqla bu tarixi imkanı yoxa çıxara bilər. Bu isə ermənilərin daha dərin fəlakətlərə düşməsinə səbəb ola bilər. Ona görə də onun bu "siyasəti" məharətdən yox, məhdudiyyətdən xəbər verir.

C.Baydenin bu "soyqırımı təsdiqləməsi" bizim ölkəmiz, Türkiyə üçün təhlükəli deyil. Əksinə, başa düşməyənləri də başa salır ki, bizim Türkiyə ilə hər sahədə birlikdə olmağımız tarixi bir zərurətdir. Bu təsdiqləmə bütün türk dünyasının əlaqələrinin güclənməsini daha da sürətləndirəcək.

## Azərbaycan – Rusiya arasında əməkdaşlığın genişləndirilməsi böyük potensiala malikdir

Rusiya yüz illərdən bəri Azərbaycanın qonşusu olmaqla yanaşı, dünyanın hegemon dövlətlərindən biridir. Bu qonşuluq zaman-zaman fərqli xarakterlər alsa da, SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan Rusiya Federasiyası əvvəlki dövrlərə nisbətən tamamilə yeni xarici siyasət kursu və konstruktiv istiqamət seçdi. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik qazanan Azərbaycan digər postsovet ölkələri kimi, Rusiya ilə də qarşılıqlı əlaqələr yaratdı və münasibətləri bərpa etdi. Əlbəttə, gənc respublikamız Ulu Öndərin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Yeni xarici siyasət kursu tərtib edildi. Bu proqramın da əsas müddəalarından biri, təbii ki, Rusiya ilə əlaqələrin gücləndirilməsi idi...

Ölkələrimiz və xalqlarımız arasında çox möhkəm tarixi bağlar var. Qeyd etdiyimiz kimi, müxtəlif dövrlərdə, fərqli idarəetmə prinsiplərinə görə yaranan problemlər, çaxnaşmalar SSRİ-nin süqutu ilə bitdi və yenilənmiş Rusiya dövlətinin yaranması ilə yeni bir mərhələyə – iqtisadi və siyasi əlaqələrin gücləndiyi müttəfiqlik mərhələsinə qədəm qoyduq.

Ulu Öndər Heydər Əliyevin dövründə daha da güclənən Rusiya–Azərbaycan münasibətləri 2000-ci ildə Vladimir Putinin Rusiya Prezidenti seçilməsi ilə bir qədər də möhkəmləndi. Belə ki, V.Putinin hakimiyyətə gəlişindən sonra qonşu ölkənin Azərbaycana qarşı münasibətlərində yeni dövr başlandı. Bu dəyişikliklərdən biri də ondan ibarətdir ki, Rusiya bizimlə münasibətlərində daha praqmatik öhdəlikləri yerinə yetirməyə başladı. Azərbaycan – Rusiya münasibətləri sadəcə MDB müstəvisində inteqrasiya çərçivəsindən çıxdı, hər iki ölkənin milli maraqları gözlənilməklə siyasi əlaqələr möhkəmləndirildi.

Əlbəttə, burada vurğulanmalı əsas məqam təhlükəsizlik və iqtisadi inkişaf istiqamətləridir. Beləliklə, iki ölkə arasında sıx dostluq və əməkdaşlıq üçün önəmli siyasi baza formalaşdı. Dövlətimizin başçısının qeyd etdiyi kimi, iki ölkə arasında bu günə qədər 245 hökumətlərarası sənəd imzalanıb. Qeyd edək ki, imzalanan bu sənədlər siyasi, hərbi-texniki, təhlükəsizlik, iqtisadi, ticarət, investisiya, maliyyə, yanacaq-energetika, elm, təhsil, mədəni və s. sahələri əhatə edir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev fevralın 22-də Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya rəsmi səfər edib. Səfər zamanı ikitərəli münasibətlərin gücləndirilməsi mövzusunda görüş keçirən prezidentlər sonda iki ölkə arasındakı münasibətlərini yeni bir mərhələyə daşıyan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə" imzalayıblar.

Dövlət başçımız sənədin imzalanmasından sonrakı çıxışı zamanı bildirdi ki, Rusiya Prezidenti ilə görüşlərin intensivliyi iki ölkə arasında olan münasibətlərin möhkəmliyindən və davamlı surətdə inkişaf etdirilməsindən xəbər verir. Cənab Prezident bildirdi ki, müharibədən sonra yaranan yeni reallıqlar Rusiya – Azərbaycan münasibətlərinə də xeyli təsir edəcək. Ümumiyyətlə, imzalanan yeni bəyannamə iki ölkə arasındakı münasibətlərin daha da gücləndirilməsinə şərait yaradacaq. Ticari-iqtisadi sahədə də yeni imkanlar yaranır. V.Putin də əmtəə dövriyyəsinin əhəmiyyətli dərəcədə artdığını qeyd edərək bildirdi ki, pandemiyaya baxmayaraq, iki ölkə arasında olan əlaqələr davamlı şəkildə sıxlaşdırılır və bu, yeni potensialların yaranmasına gətirib çıxarır.

***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və ona üzv təşkilatlar tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Vətəndaş cəmiyyətinin formalaşmasında həmkarlar ittifaqlarının rolu" mövzusunda konfrans keçirilib. İlk öncə 44 günlük müharibədə şəhadət zirvəsinə ucalmış şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

***AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev konfransda məruzə ilə çıxış edib. Sədr çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin ali sərkərdəliyi ilə qazanılmış 44 günlük müharibənin tarixi Qələbəsi, Şuşa şəhərində aparılan geniş miqyaslı bərpa-quruculuq işləri, Qarabağın yenidən qurulması, Laçının şəhərinin azad edilməsi və başqa mühim məsələlərdən danışılmışdır. Sonra çıxış edənlərdən Azərbaycan Prezidenti Administrasiyasının sektor müdiri Vüsal Quliyev, Azərbaycan Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cahangir Əliyev, Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Fəzail Bağırov, Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının sədri Habil Qurbanov və Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Cavid Məmmədov bu mühim tədbirlə bağlı öz fikirlərini bildirdilər.***

***Tədbirin sonunda AHİK Şuşa konfransı iştirakçılarının Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyevə müraciəti qəbul edilmişdir.***

## Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında həmkarlar ittifaqının rolu

Əsası XIX əsrdə İngiltərədə qoyulan həmkarlar ittifaqı təşkilatı uzun və mürəkkəb inkişaf yolu keçmiş və hal-hazırda dünyanın ən böyük ictimai təşkilatı funksiyasını daşımaqdadır. Öz fəaliyyətini beynəlxalq və yerli qanunlarla tənzimləyən həmkarlar təşkilatı müxtəlif ölkələrdə fərqli inkişaf xətti keçmişdir. Bu da hər bir ölkənin sosio-mədəni mühiti, iqtisadi-siyasi formasiyası, inkişaf amilləri, vətəndaş cəmiyyətinin gücü ilə birbaşa bağlıdır.

Bildiyimiz kimi, Azərbaycan 1990-cı illərdə tarixinin ən mürəkkəb dövrünü yaşayırdı. Belə ağır və çətin dövrdə Azərbaycan həmkarlar ittifaqları cəmiyyətdə öz mövqeyini itirməmək üçün gərgin fəaliyyət aparmaq məcburiyyətində idilər. Tam əminliklə deyə bilərik ki, Respublikmızın həmkarlar təşkilatları üçün bu ağır dövrdə ən əsas, vacib və dəyərli arxa-dayağımız Ümummilli Liderimiz, möhtərəm Heydər Əliyev oldu. Məhz onun birbaşa müdaxiləsi, səyləri və əzmkarlığı sayəsində həmkarlar təşkilatları cəmiyyətdə öz mövqelərini nəinki qoruyub saxlaya bildi, hətta əvvəlki dövrlərlə müqayisədə daha çox nüfuz qazandı. Həmkarlar ittifaqlarına olan bu qayğı və dəstək hal-hazırda da möhtərəm cənab prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün sahələrdə yürütdüyü dərin, düşünülmüş və müdrik syasəti ilə özünü biruzə verməkdədir. Hal-hazırda Azərbaycanda mövcud olan həmkarlar təşkilatlarının tam sərbəst fəaliyyəti, dinamik inkişafı üçün Respublikamızda lazımi qanunlar qəbul edilmiş, ölkəmiz bu sahədə bir çox beynəlxalq qanun və konvensiyalara qoşulmuş, beynəlxalq əlaqələrimiz isə ən yüksək səviyyədədir. Ölkə rəhbərliyinin həmkarlar təşkilatlarına göstərdiyi bu diqqət və qayğısı əlbəttə ki, həmkarlar təşkiatlarına rəhbərlik

edən şəxslər və ümumən bütün üzvlər qarşısında ciddi bir məsuliyyət qoyur və daha dinamik iş tələb edir.

Son dövrlərdə Azərbaycanda azad, demokratik, vətəndaş cəmiyətinin daha da inkişaf etdirilməsi istiqamətində ciddi addımlar atılır. Bugün ölkəmizdə vətəndaş cəmiyyətinin fəaliyyətinin daha məhsuldar olması üçün bütün imkanlar mövcuddur: hüquqi-normativ sənədlər qəbul edilmiş, postsovet dönəminin mirası olan bürokratik əngəllər aradan qaldırılmışdır. Bildiyimiz kimi vətəndaş cəmiyyəti həyatın sosial, mədəni, mənəvi sahələrini özündə birləşdirən, onların daha da təkmilləşməsinə xidmət edən bir sistemdir. Bu sistemin əsas funksional orqanlarını hər bir fərdin maraqlarını ifadə və yeri gəldikdə müdafiə edən müstəqil qurumlar təşkil edir. Bu baxımdan Həmkarlar Təşkilatının Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında tutduğu mövqe, rol və təsir gücü böyük və danılmaz əhəmiyyətə malikdir. AHİK-in 26 may 1993-cü ildə qeydiyyata alınmış, 5 fevral 2003-cü ildə keçirilmiş ikinci qurultayında yeni redaksiyada qəbul edilmiş Nizamnaməsində deyilir: "Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası həmkarlar ittifaqları üzvlərinin və digər işçilərin iqtisadi sosial, hüquqi, mənəvi mənafelərinin müdafiəsini ifadə edən, həyata keçirən sahə həmkarlar ittifaqlarının və Naxçıvan Muxtar Respublikasının sahələrarası birliklərinin könüllü ittifaqıdır".

Azərbaycan həmkarlar ittifaqları dünya həmkarlar ittifaqları sisteminə qoşulmaqla dünyada gedən proseslərdə, xüsusən də vətəndaş cəmiyyətinin daha effektli və funksional olması, vətəndaş cəmiyyəti üçün təhlükə ola biləcək qlobal təhdidlərin qarşısının vaxtında alınması istiqamətində ciddi addımlar atır. AHİK-in II qurultayında "Qloballaşma və Azərbaycan həmkarlar ittifaqlarının mövqeyi" haqqında xüsusi qətnamə qəbul edilmişdir. Qətnamədə qeyd edilmişdir ki, dünyada baş verən radi-

kal dəyişikliklər həmkarlar ittifaqı hərəkatı qarşısında vacib problemlərə yeni yanaşma tələb edən vəzifələr qoymuşdur. Qloballaşma şəraitində əməkçilərin həyati əhəmiyyət kəsb edən bir çox məsələlərin həllindən kənarlaşdırılması cəhdləri üzə çıxmaqdadır. Transmilli korporasiyalar, kapital bazarlarının inteqrasiyası dövründə əməyin xarakterində, bütövlükdə əmək münasibətlərində baş vermiş ziddiyyətlər həmkarlar ittifaqlarının təşkilatlandırma rolunu daha da artırır.

AHİK-in vətəndaş cəmiyyətinin yaranması, inkişafı və genişlənməsində əhəmiyyətini əyani təsəvvür etmək üçün onun struktuna, fəaliyyətinə və müvafiq hüquqi-normativ sənədlərə nəzər salmaq kifayətdir. AHİK yaranarkən ora cəmiyyətin 26 müxtəlif sahələri - elm, təhsil, sosial, səhiyyə, iqtisadi, kənd təsərrüfatı, nəqliyyat, sənaye, rabitə, və. s özündə birləşdirən üzv təşkilatlar daxil olmuşdu.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının işləyib hazırladığı layihə əsasında həmkarlar ittifaqlarının fəaliyyətini tənzimləyən 24 maddədən ibarət olan "Həmkarlar İttifaqları haqqında" Azərbaycan Respublikasının 24 fevral 1994-cü il tarixli Qanunu qəbul edilmişdir.  Həmin Qanunun 1-ci maddəsinə əsasən,  Həmkarlar ittifaqları istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün iş yeri, peşələr, sahələr üzrə və respublika səviyyəsində fərdi üzvlük prinsipi əsasında könüllü birləşdiyi, nizamnamələri və "Həmkarlar İttifaqları haqqında" Qanun əsasında fəaliyyət göstərən müstəqil ictimai, qeyri-siyasi təşkilatdır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası həmkarlar ittifaqları üzvlərinin iqtisadi-sosial, hüquqi, mənəvi mənafelərinin müdafiəsini ifadə edən və həyata keçirən Naxçıvan Muxtar

respublikasının və sahələrarası birliklərinin könüllü ittifaqıdır. Həmin sahələr üzrə həmkarlar ittifaqlarının üzvü 1,5 mln. nəfərə yaxındır. Hazırda "Ülfət" qəzetinin redaksiyası, 14 sanatoriya və sağlamlıq ocaqlarını özündə birləşdirən "Kurort" Səhmdar Cəmiyyəti, "Turizm və ekskursiya üzrə Respublika Şurası", Əmək və Sosial Münasibətlər Akademiyası və 16 idman cəmiyyəti, sağlamlıq idman klublarını özündə birləşdirən Azərbaycan Həmkarlar İttifaqları İdman Assosiasiyası (AHİİTA) AHİK-in tabeçiliyindədir.

Konfederasiyanın ali orqanı 5 ildən bir çağrılan qurultaydır. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası üzv təşkilatlarla birlikdə Respublikada aztəminatlı ailələrin, şəhid ailələrinin, qaçqın və məcburi köçkün ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması, eləcə də şəhid övladlarının, aztəminatlı tələbələrin pulsuz təhsil alması, əməkdaşların sanator-kurort və istirahət yollayışlarını güzəştli şərtlərlə əldə etməsi istiqamətində bir çox təqdirəlayiq işlər görməkdədir.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Həmkarlar İttifaqları dövlətimizin həyatının bütün sahələrində öz fəaliyyətlərini günü-gündən genişləndirərək, əməkçilərin mənafelərini müdafiə edən ən kütləvi ictimai təşkilat olmaqla bərabər, vətəndaş cəmiyyətinin ən önəmli faktoruna da çevrilmişdir.

## NƏTİCƏ VƏ YA CƏSARƏTİN QƏLƏBƏSİ

Necə böyük xoşbəxtlikdir İlham Əliyev kimi möhkəm iradəli, qətiyyətli, uzaqgörən, müdrik və cəsarətli Prezidentin rəhbərlik etdiyi ölkədə yaşamaq. Fəxr edirik ki, vədinə sadiq, əməlində düz, dediyini edən Prezidentimiz var. İlham Əliyev dövlət başçısı seçildiyi gündən indiyədək verdiyi bütün sözləri ləyaqətlə yerinə yetirib. Bir qarış torpağımızı belə düşmənə güzəştə getməyəcək, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcək, və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıdacaqlarını hər zaman cəsarətlə, hünərlə özünəməxsus qəhrəmanlıqla söyləmişdi və etdi də. Bəli, cənab İlham Əliyev xüsusi hünər sahibidir. İlham Əliyev hər bir azərbaycanlıya, hər bir azərbəycansevərə sonsuz fərəh və xoşbəxtlik sevincini gətirən bu zəfərə bizi inadla, ardıcıllıqla, düşünülmüş və hesablanmış siyəsət yeritməklə, addımlar atdı. Səbrlə, dönmədən, dayanmadan, ən çətin maneə və əngəlləri dəf etdi. Azərbaycanı ucaltmaqla, dünyada tanınıb söz sahibinə çevirməklə, dünya ictimaiyyətini xalqımızın haqq işinə inandırmaqla gətirdi.

Ən nəhayət özü də ucalaraq, müasir dünyanın tanınmış, ən mötəbər qurumlarına uğurla sədrlik etməyi bacaran dünya miqyaslı siyasi liderə çevrilməklə gətirdi. Azərbaycan ilk dəfə 1918-ci ildə – müstəqillik yoluna qədəm qoyduğu gündən torpaq itkisinə məruz qalıb. Öz dövlətini yaratmaq xətirinə kənardan gələn özgə millətlərə "torpaq payı" verməli olub. Torpaqlarımız hesabına özünə dövlət quran xain xislətli ermənilərin iştahası getdikcə artırdı. Sovet hakimiyyəti simasında özünə yeni ağa taparaq 1948-1953-cü illərdə minlərlə azərbaycanlını dədə-baba torpaqlarından çıxarmaqla qədim ərazilərimizin daha bir hissəsini ələ keçirdilər. İkinci dəfə dövlət müstəqilliyi qazanılanda – ötən əsrin doxsanıncı illərinin əvvəllərindən Azərbaycana maymaq, qətiy-

yətsiz, təcrübəsiz və səriştəsiz insanlar başçılıq etməyə başlayanda əllərinə yeni fürsət düşdü. Havadarlarına güvənərək qısa müddətdə Dağlıq Qarabağı və ətrafındakı daha yeddi rayonu işğal etdilər. Sonra 27 il işğal dövrü davam etdi. Həmin 27 il mənasız danışıqlar, atəşkəsin vaxtaşırı pozulması, səhidlər verilməsi və bütün bunların səbəbkarı olan erməni həyasızlığı və ikili standartlarla yadda qaldı. Bu 27 ilin 17 ili cənab İlham Əliyevin Prezidentliyi dövrünə düşür. Əslində, hadisələrin gedişi tarixin gərdişi torpaqların azadlığı missiyasın da cənab İlham Əliyevin üzərinə qoymuş oldu. Məlum səbəblərdən itirdiyimiz torpaqları geriyə qaytarmaq axan çayı tərsinə axıtmaqdan daha çətin idi. Amma İlham Əliyev bunu bacardı. Özünün polad iradəsi, uzaqgörən siyasəti, yorulmadan çalışması, düşünülmüş və hesablanmış addımları, cəsarətli və qətiyyətli fəaliyyəti ilə reallaşdırdı. Sözün həqiqi mənasında böyük hünər, qəhrəmanlıq göstərdi. Həmin on yeddi il ərzində gördüyü işləri. həyata keçirdiyi tədbirləri son nəticədə bu məqsədin gerçəkləşdirilməsinə müvəffəqiyyətlə yönləndirdi. Düşmənin öz xoşuna, sülh danışıqları yolu ilə torpaqları geri qaytarmayacağı bəlli idi. Müharibə üçün isə güclü dövlət və güclü iqtisadiyyat, fəal və çevik diplomatiya, beynəlxalq qurum və təşkilatlarla səmərəli iş tələb edirdi. Üstəlik dünyanın aparıcı dövlətlərinin maraqları ilə Azərbaycanın məraqlarının uyğunlaşdırılmasını. Ermənistanı açıq-aşkar müdəfiə edən dövlətlərin zərərsizləşdirilməsini, düşmənin səhvlərinin özünə qarşı yönəldilməsini, ölkəmizin dostlarının, haqq işimizi müdafiə edənlərin sayının artırılmasını, ən nəhayət güclü və modern ordu yaradılmasını şərtləndirirdi!

Ali Baş Komandanımız yeni ərazilərimizi ələ keçirmək niyyəti ilə təmas xəttində və sərhədimizdə təxribətlara əl atan düşmənə Azərbaycan Ordusunun gücü ilə 2 dəfə – 2016-cı ilin

aprelində və 2020-ci ilin Tovuz istiqamətindəki döyüşlərdə dərs verdi. Amma Ermənistan həmin dərslərdən nəticə çıxarmadı. Növbəti təxribatda isə Ali Baş Komandanımız "irəli" əmrini verdi! Bu gün İlham Əliyev öz əli ilə dünyada bir ordu yaradıb. Müasir, modern, güclü ordu! İnformasiya müharibəsində də cənab İlham Əliyev hamıdan öndə gedirdi, bu cəbhənin də bütün ağırlığını öz üzərinə götürmüşdü. O halda sülh yolu məqbul olardı ki, Ermənistan silahlandırılmasın, müxtəlif üsul və vasitələrlə müdafiə olunmasın, torpaqları işğalda saxlamaqda ona açıq və gizli dəstəklər verilməsin, ermənilərlə təkbətək döyüşən Azərbaycan çox qısa müddətdə və böyük şücəətlə 30 ildə ATƏT-in yarada bilmədiyi sülhə şərait yaratdı və boşalda bilmədiyi torpaqları boşaltdı. Bu isə İlham Əliyevin diplomatik məharəti və müharibə aparmaq bacarığı sayəsində mümkün oldu. İlham Əliyev tarixin qarşıya qoyduğu vəzifəni yerinə yetirdi. İlham Əliyev haqqı-ədaləti bərpa etdi. İlham Əliyev Azərbəycan xalqına şərəfli anlar, şərəfli dəqiqələr, şərəfli günlər yaşatdı. Eyni zamanda İlham Əliyev ATƏT-in Minsk qrupunun 30 ildə görə bilmədiyi işləri çox qısa müddətdə gördü. İlham Əliyev BMT-nin 4 qətnaməsini təkbaşına, uğurla icra etdi. İlham Əliyev 30 illik söz-söhbətə, qalaq-qalaq icrasız qalan sənədlərə, standart açıqlamalara, boş və mənasız görüşlərə, erməni tirpaşlığına bir həmlə ilə son qoydu. Erməni işğalçılarını Azərbaycandan iti qovan kimi qovdu. İlham Əliyev hünəri bax, budur! İlham Əliyev həm də Ulu Öndərimizin "Mən ona özüm qədər inanıram və əminəm ki, mənim sona çatdıra bilmədiyim işləri o uğurla başa çatdıracaqdır" sözlərini, xalqımızın etimad və etibarını tamamilə doğrultdu!



**Habil Surxay oğlu Qurbanov** 14 mart 1955-ci ildə Ağdam şəhərində anadan olmuşdur.

1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu, 1985-ci ildə SSRİ DİN Volqoqrad Ali İstintaq Məktəbini fərqlənmə diplomları ilə bitirmişdir. Hüquq üzrə elmlər doktoru, professordur.

Əmək fəaliyyətinə 1975-ci ildə Elmlər Akademiyasında kiçik elmi işçi vəzifəsində başlamış, müxtəlif illərdə Bakı şəhəri Nəsimi Rayon Komsomol Komitəsində azad təşkilat katibi, SSRİ DİN Bakı Xüsusi Orta Milis Məktəbində tədris şöbəsinin müfəttişi, müəllim-metodist, bölmə rəisi və məktəbin rəis müavini, Bakı Şəhər Prokurorluğunda şöbə prokuroru, böyük prokuror, Qaradağ rayon prokurorunun müavini, prokuror əvəzi, Dəvəçi (Şabran) rayon prokuroru, Azərbaycan Respublikası Baş Prokurorluğunda idarə rəisi, Moskva Dövlət Açıq Universitetinin Bakı filialında kafedra müdiri, Azərbaycan Universitetində hüquq fakültəsinin dekanı vəzifələrində çalışmışdır.

1988-ci ildə Moskva şəhərində SSRİ Daxili İşlər Nazirliyinin Akademiyasında hüquq elmləri üzrə namizədlik, 1997-ci ildə isə Rusiya Federasiyası Baş Prokurorluğunun Elmi-Tədqiqat institutunda hüquq elmləri üzrə doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmiş, 1997-ci ildə Rusiya Federasiyasının, 1998-ci ildə isə Azərbaycan Respublikasının hüquq elmləri doktoru diplomunu almışdır. 2010-cu ildə AR Prezidenti yanında AAK-ın qərarı ilə professor elmi adı almışdır.

Habil Qurbanov 2010-cu ildən 2016-cı ilin dekabr ayınadək AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun “Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses” şöbəsinin müdiri, 2016-cı ilin dekabr ayından 2022-ci ilin iyul ayınadək AMEA Hüquq və İnsan Haqları İnstitutunun baş elmi işçisi vəzifəsində çalışmışdır. 2017-ci ilin fevral ayında AMEA Azad Həmkarlar İttifaqının sədr müavini, 2017-ci ilin iyul ayında sədr əvəzi kimi fəaliyyət göstərmişdir. 2017-ci ilin noyabr ayından indiyədək AMEA Azad Həmkarlar İttifaqının sədridir.

Habil Qurbanov 300 elmi və publistik məqalələrin, 15 monoqrafiyanın, 5 dərslik və dərs vəsaitinin müəllifidir. Onlardan 4 mono-

qrafiya və 60 elmi məqalə xarici ölkələrdə dərc olunmuşdur.

1996-cı ildə Azərbaycanda ilk dəfə Yeni Cinayət Məcəlləsinin (Ümumi hissə) layihəsini hazırlayıb ictimaiyyətin müzakirəsinə təqdim etmişdir. 1999-cu ildə qəbul edilmiş Yeni Cinayət Məcəlləsində onun təkliflərinin bir çoxu öz təsdiqini tapmışdır.

2009-cu il aprel ayında Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının və 2009-cu il dekabr ayında Avropa Humanitar Elmlər Akademiyasının akademiki seçilmişdir. 1993-2008-ci illərdə AFFA-nın Futzal (mini futbol) və Hüquq Komitələrinin sədri olmuşdur. "Qarabağ futbol veteranları" klubunun təsisçisi və prezidentidir. Hazırda Azərbaycan Tələbə Futbol Federasiyasının vitse-prezidentidir.

2013-cü ildə "Avropa Nəşr Mətbu Evi"nin "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı və 2018-ci ildə "Cəmiyyət və sosiohüquqi problemlər" monoqrafiyasına görə ilin "Ən yaxşı tədqiqat əsəri" qızıl medalı ilə təltif edilmişdir. 2017-ci ildə Rusiya Federasiyası Professorlar Cəmiyyətinin (ilk azərbaycanlı) üzvü seçilmişdir. 2018-ci ildə AHİK-in 25 illik "Yubiley Döş Nişanı" ilə, 2020-ci ilin mart ayında isə "Həmkarlar İttifaqında xidmətlərinə görə" medalı ilə təltif olunmuşdur.

Habil Qurbanov Milli Aviasiya Akademiyasının nəzdindəki “Hüquq elmləri” üzrə Müdafiə Şurasının, İctimai Elmlər üzrə Problem Şurasının, Azərbaycan və xarici ölkələrin müxtəlif hüquq jurnallarının redaksiya heyətinin üzvüdür.

**Habil Surxay oğlu Qurbanov**

# QARABAĞIN AZADLIĞI VƏ ZƏFƏRƏ GEDƏN YOL: HÜQUQİ-SOSİO-MƏDƏNİ BAXIŞ

**Bakı – 2022**

Çapa imzalanıb 06.10.2022
Formatı $60x84^{1/16}$. Həcmi 8,5 ç.v.
Tirajı 200 nüsxə

Kitab “APOSTROF-A” nəşriyyatında
çap olunmuşdur.
E-mail: apostrof0706@gmail.com
Tel.: 432-51-04/050-313-07-06